**İMRAN AXUNDOV**

# HÖKÜMƏ QURBANOVA

*Monoqrafiya*

**Bakı – Mütərcim – 2015**

Redaktor: **H. M. Nəbili**
*əməkdar mədəniyyət işçisi*

**İmran Axundov. Hökümə Qurbanova**. *Monoqrafiya.*
– Bakı: Mütərcim, 2015. – 128 səh.

Monoqrafiyada Azərbaycan səhnəsinin ən qüdrətli nümayəndələrindən biri SSRİ xalq artisti Hökümə Qurbanovanın böyük sənətkarlıqla ifa etdiyi zəngin xarakterə malik olan obrazlar qalereyası tədqiqata cəlb olunaraq təhlil olunur.

$A\frac{4702060000}{026}$ 47-15

© İ.Axundov, 2015

# GİRİŞ

*Hökümə Qurbanova Azərbaycan*
*səhnəsinin ən nadir simalarından biridir.*

***Fəlsəfə doktoru* İmran Axundov**

Zaman yaradıcı insanın üzərinə böyük məsuliyyət qoyur. Bu məsuliyyət artdıqca sənətə olan məhəbbət də artır və ilahi sevgiyə çevrilir. Sənəti ilahi sevgiyə çatdıran nəhəng sənətkarlardan biri, mən deyərdim ki, birincisi də SSRİ xalq artisti Hökümə xanım Qurbanovadır.

"Onun səhnəmizə nisbətən gec gəlməsi, lakin tez parlaması, parlaq inkişaf yolu keçməsi, sənətin zirvələrinə sürətlə yüksəlməsi aktrisanın zəngin, orijinal istedad sahibi olduğunu, əməksevərliyini göstərir. Onun həyatı və yaradıcılığı səmərəli axtarışlar, gözəl tapıntılar, bədii nailiyyətlər yoludur" (16).

Hökümə Qurbanova güclü xarakterə malik olan bənzərsiz səhnə ustası idi. Aktrisa ifa etdiyi hər hansı bir obrazı istedadının süzgəcindən keçirərək, yüksək bədii səviyyəyə qaldırmağı bacarırdı.

"H. Qurbanova bir sıra rollarında belə parlaq ifaçılıq nümunəsi göstərmişdir. Məhz bu zaman o, ixtiraçı, novator bir aktrisa kimi diqqəti cəlb etmiş, teatrın sənətkarlıq səviyyəsinin yüksəlməsində mühüm rol oynamışdır. Reyhan, Germiona, Bənövşə və b. onlarca belə obraz buna misal ola bilər. O, bir tərəfdən öz yaradıcılıq təşəbbüskarlığı ilə, digər tərəfdən isə yaratdığı poetik təbiətli, gözəl mənəviyyatlı qəhrəmanları ilə nümunə olur" (1).

Onun Azərbaycan, Rus və Qərbi-Avropa dramaturqlarının əsərlərində ifa etdiyi müxtəlif zamanların mürəkkəb xarakterli qəhrəmanları dünya teatrında yaradılan nadir obrazlardandır. Zaman keçdikcə bu obrazların şöləsi Azərbaycan mədəniyyətini işıqlandırmaqdadır.

İstedad nadir bəxşişdir. O, hər adama verilmir. Ona daim qayğı göstərmək lazımdır ki, xalqının başını uca etsin. O qayğıda, gecəni gündüzə qatıb, çalışmaqdan ibarət olmalıdır. Hökümə Qurbanova bunu bacardı. İstedadı zəhmətlə birləşdirib, böyük sənət yaratdı. Və aktrisanın sənətinin alovu hələ də qəlbləri isidir.

# I FƏSİL
# HƏYATI VƏ AXTARIŞLAR DÖVRÜ
# (1913-1943)

*Azərbaycan tamaşaçılarının sevimlisi,*
*öz parlaq istedadı ilə teatrımızın tarixinə*
*yeni səhifələr yazmış Hökümə Qurbanova*
*yaratdığı sənət nümunələri ilə hamını heyran edir.*

**Cabir Səfərov**

SSRİ xalq artisti Hökümə Abbasəli qızı Qurbanova 1913-cü ildə iyun ayının 11-də Bakıda anadan olmuşdur. Hökümə xanımın anası Malikat Maqomayeva çeçen qızıdır, bəstəkar Müslüm Maqomayevin bacısıdır. Atası Abbasəli Qurbanov isə bakılıdır. Abbasəli Qurbanov Şimali Qafqazda səfərdə olarkən Malikat xanımı bir məclisdə görüb, bəyənmişdir. Onlar ailə qurduqdan sonra uzun müddət Müslüm Maqomayevin evində yaşamışlar. Müslüm bəy təbiətən xoşxasiyyət, qonaqsevər, tez ünsiyyət quran insan idi. Onun evinə ən çox o dövrün incəsənət və mədəniyyət xadimləri toplanardılar. Hökümə xanıma teatr sənətinə həvəs elə buradan başladı.

H. Qurbanova teatra çox sonralar gəlib. Əlbəttə ki, dolayı yolla. Onun teatra gəlişinə Müslüm bəyin evində yaşaması böyük təkan vermişdir.

Hökümə xanımın ilk rolu Telli olub, o da baş tutmayıb.

Aktrisa xatirələrində yazır; “Mən teatra ilk dəfə dayımla, Müslümbəylə getmişəm. Opera teatrına. Gördüyüm, dinlədiyim ilk tamaşa, əgər dolaşıq salmıramsa “Leyli və Məcnun” olub. Çünki xatırlamağa başlayanda səhra, qayalıq, mağara mənim gözlərimdə canlanır... Ordan cır-cındır paltarda çıxıb ətrafı uzun-uzadı süzən pəjmürdə bir adamın yanıqlı səsi qulağımda səslənir. Ora ayaq açandan sonra o biri tamaşalara baxmışam: “Əsli və Kərəm”, “Şah İsmayıl”, “Aşıq Qərib”, “Arşın mal alan”. Bəzilərinə təkrar-təkrar. “Leyli və

Məcnun"u elə o vaxt, yalan olmasın, dörd-beş dəfə dinləmişəm. Hüseynqulu Sarabskinin özünü Məcnun rolunda görmüşəm. Onun mağaradan çıxışını və səhrada şahnaz üstə oxuduğu qəzəli xatırlayanda indi də gözlərim yaşarır... Aktyorlardan Zülalov qardaşlarını, Hüseynağa Hacıbababəyov, Hənəfuş Terequlov, Məmmədtağı Bağırov yadımdadır. Aktrisalardan Sürəyya Qacarı Leyli rolunda, Sona Hacıyevanı Əsli rolunda yaxşı xatırlayıram" (16).

Hökümə Qurbanovanın dram tamaşalarına sonralar gedib. Görkəmli səhnə ustası Ələsgər Ələkbərovla görüşəndən sonra. O, gənc və istedadlı aktyor Ə. Ələkbərovla nişanlı idi. 17 yaşından sənət meydanına gəlmiş Ələkbərov 19-20 yaşlarında indiki Kukla teatrının binasında yerləşən Bakı Türk İşçi Teatrında müxtəlif xarakterli mürəkkəb obrazlar yaratmışdır. Hökümə xanım ilk dəfə dram tamaşalarına bu teatrda baxıb.

Hökümə Qurbanova yazır ki, "...dram aktyorlarından ilk gördüklərim kimdir. Kim mənə daha dərin təsir bağışlayıb. Mən ora birinci günlər ... əlbəttə, Ələsgərin həvəsinə gedirdim. Getdim, gördüm. Sevindim. Onu bir aktyor kimi də xoşladım, daha artıq sevdim. Amma mən orda ondan başqa aktyorlar, gözəl sənətkarlar da gördüm: Kazım Ziya, Cavadov, Gəraybəyli, Əzizə xanım, Fatma Qədri. Xüsusilə Fatma xanım mənə öz şirinliyi, məlahətli oyunu, təbii davranışı ilə dərin təsir bağışladı. "Hind qızı"ndakı Sürücü, "Qanlı səhra"dakı Fatimə indi də gözümün qarşısındadır. Sürücünün səhnəsinin önündə ay işığını andıran projektor altında, ağac dibində söylədiyi monoloq, ya onun Fatimə rolunda pərdə açılan kimi göz yaşı axıda-axıda "Hicaz" üstündə zümzüməsi indi də qulağımda səslənir... Gözəl aktyorlar, mənalı, məzmunlu tamaşalar görürdüm... Bunlarla, əlbəttə, sonrakı illərdə... Abbas Mirzə Şərifzadənin Elxan, Səyavuş, Maqbet obrazları, Mərziyə xanımın Sevil, Südabə, Solmaz rolları yaxşı yadımdadır. Yeva xanımı Solmaz rolunda heç unuda bilmirəm. Amma haqqında danışdığımız illərdə mən İşçi teatrına çox gedirdim. Mən tez bir zamanda o teatrın daimi tamaşaçısı oldum. Ələsgərlə bərabər onun işlədiyi İşçi teatrını da sevdim...

... məni teatra gedən yollara yaxınlaşdıran ilk cığır Ələsgərlə və İşçi teatrı ilə tanışlığımdan başlayıb.

... 1932-ci ildə İşçi teatrı artıq Gəncə şəhərinə köçürüldü. Ələsgərlə toyumuzdan sonra onunla bərabər mən də ora getdim...

... Başqa ixtisas seçməyim təsadüf, ya tərəddüd nəticəsində baş verməyib. İndicə elə bunu demək istəyirdim. Bu işdəki son qərarım özümün öz iradəmlə qəbul elədiyim şüurlu qərardır. Bir müddət mən konservatoriyada da oxudum. Fortepiano şöbəsində. Uşaq yaşlarından buna həvəsim vardı. Hazırlığım da kifayət edirdi. Lakin bu fikirdən də daşındım... Nə pianoçu, nə də müəllimə olmadığıma peşman deyiləm" (16).

Hökümə Qurbanova 1936-cı ildə Azərbaycan Dövlət Dram Teatrının (Akademik Milli Dram Teatr) yardım heyətinə işə qəbul olunub.

"H. Qurbanovanın teatrı özünə peşə seçməsi bir təsadüflə bağlı olsa da, bir həqiqətdir ki, o, səhnəyə gəlməyə özündə daxili ehtiyac hiss etmiş, bu yolu şüurlu olaraq seçmişdir. Bəlkə də, Hökümə xanım öz fikrini, həyata, hadisələrə münasibətini aydın demək, bir sənətkar kimi dövrün aktual məsələlərini, Azərbaycan qadınının ağıl və zəkasının nəyə qadir olduğunu isbat etmək üçün bu formanı, bu yolu, bu sənəti seçmişdir" (12).

Azərbaycanın teatr tarixi ilə məşğul olan mütəxəssislərin tədqiqatlarında qeyd edilir ki, H. Qurbanovanın ilk rolu S. Vurğunun "Vaqif" mənzum dramındakı gürcü qızı Tamara obrazı olub.

Lakin apardığımız araşdırmalar nəticəsində, əlimə keçən proqramda göstərilir ki, Hökümə xanım ilk dəfə 1936-cı ildə 05 oktyabrda Ağəli Dadaşovun quruluşunda C. Cabbarlının "Almaz" əsərində Sürmə rolu ilə səhnəyə çıxıb.

1938-ci ildə H. Qurbanova əsas heyətə keçdi. Həmin ilin 05 oktyabrında ilk dəfə tamaşaya qoyulan S. Vurğunun "Vaqif" mənzum dramında (rej. A. İsgəndərov) Tamara obrazını Hökümə xanım 1939-cu il fevral ayının 01-də ifa etdi.

Hökümə Qurbanova (Ələsgər Ələkbərovla nigahda olduğu üçün o dövrün afişa və proqramlarında Hökümə Qurbanovanın soy

adı Ələkbərova yazılırdı) Qacar tərəfindən əsir götürülmüş gürcü qızı Tamaranın keçirdiyi iztirabları tamaşaçıya dəqiq boyalarla rəsm etdirirdi.

Aktrisa özü qeyd edir ki; "Tamara rolunda ilk dəfə səhnəyə çıxmışam. Özü də hansı səhnəyə! Kimlər ilə! Bu bir səbəb. Tamara rolunu məndən əvvəl Barat Şəkinskaya oynamışdı. Gözəl oynamışdı, yüksək qiymət almışdı. O vaxt Barat xanım da gənc aktrisalar cərgəsində gedirdi. Amma teatra məndən neçə il əvvəl gəlmişdi və görkəmli mövqe tuturdu. Deməli, mən istər-istəməz bu ilk addımda özümdən təcrübəli bir aktrisa ilə müqayisə edilməli, özgə sözlə, yarışmalı idim. Bu ikinci səbəb. Bunu da nəzərə alın ki, mən hazır, bitkin bir tamaşaya kiçik hazırlıqla, bir necə məşqdən sonra yolüstü, tələsik daxil olurdum. Bu da üçüncü səbəb. Bunların üçü bir yerdə ciddi məsuliyyət, böyük həyəcan demək idi.

Birinci şərti məni əhatə eləyən aktyorların məharətində, kollektivin mənə qarşı gözəl, nəcib, qayğıkeş münasibətində görürəm. Mən tək deyildim. Teatra ayaq açan gənclərin sayı çox idi. Usta aktyorlarımız bizə həqiqətən böyük ehtiyatla yanaşır, gənclərə böyük qayğı göstərirdilər. Burdan keçəndən sonra ikinci şərti də əhəmiyyətli hesab eləyirəm. Bu rolda nə müvəffəqiyyət qazana bilmişəmsə, gecəni gündüzə qatıb çəkdiyim zəhmətin sayəsində qazanmışam. Tamara rolu mənim üçün bir növ "diplom işi" olub. Onu indi də əziz tuturam" (16).

Əsərdə Tamara epizodik obraz olmasına baxmayaraq Hökümə xanım onu əsas rollar səviyyəsinə çatdırmağa nail olmuşdur. Onun Tamarası daxilən fəryad keçirən bir əsir idi.

"O axşamkı "Vaqif" tamaşasında bütün tamaşaçıların diqqətini cəlb edən Hökümə xanım idi. Tamaşaçılar bu teatrın səhnəsində çıxış edən aktrisaları yaxşı tanıyırdı. Lakin bu təzə aktrisa onlara tanış deyildi. Bu ilk tanışlıq isə çox sevindirici, çox maraqlı, çox ürəkaçan idi.

Bir həqiqət var ki, bəzi aktyor və aktrisalar bu və ya digər tamaşada ilk dəfə çıxış edərkən heç kəsin diqqətini cəlb etmir, oyunları heç bir iz buraxmadan keçib gedir. Lakin Hökümə xanımın

bu tamaşada oynadığı gürcü qızı Tamara əsas rollardan olmasa da, aktrisanın məharəti nəticəsində bu rol əsas rollar cərgəsinə daxil olmuşdu. Tamaşa salonu Tamaranın-Hökümə xanımın simasında azadlıq sevən gürcülərin azadlıq uğrundakı mübarizələrini diqqətlə izləyir, Tamaranın şəxsi taleyinə ürəkdən yanır, onun iniltilərinə, fəryadlarına şərik olurdular" (8).

Gürcü qızı Tamara ilə Hökümə Qurbanova özünün həqiqi istedad sahibi olduğunu sübut etmişdir. Böyük müvəffəqiyyət qazanan Tamara obrazından Hökümə xanım ruhlandıraraq, daha ciddi axtarışlar aparmağa nail olmuşdur.

Teatr təhsili almamış Hökümə xanımın inkişafına müxtəlif xarakterli obrazlar kömək olmuşdur. Belə obrazlardan biri də Tamara idi. Səhnəyə ilk dəfə qədəm qoyan bu aktrisa, aktyorluq sənətində böyük həyat yolu keçmiş Sidqi Ruhulla və Rza Əfqanlı kimi bir sənətkarlara tərəf müqabili olması və onun ifasının alqışlanması, şübhəsiz ki, istedadın böyüklüyündən xəbər verirdi.

"Hökümə Qurbanovanın ilk çıxışı iki cəhətdən əlamətdar hesab edilə bilər. Birincisi, səhnəyə yeni aktrisa gəlmişdi. Fitri istedada malik, təbiət vergisilə zəngin, daxili və zahiri keyfiyyətlərinə görə cazibədar bir aktrisa. Adamı ilk görüşdən, aktyoru isə ilk çıxışından tanımaq çətin olur. Lakin bununla belə ilk təəssürat çox şey deyə bilir. Hökümə Qurbanova "Vaqif" tamaşasına sonradan daxil olsa da səhnədə həyəcanlı və kövrək davransa da tamaşaya üzvi surətdə daxil olub tamaşaçıların qəlbinə dərhal yol tapmışdı. Ona baxanlar Vaqif, Vidadi, Eldar və Gülnarla yanaşı Tamaranın da obrazında xalq faciəsinin dürüst timsalını, emosional təmsilini görmüşlər. İkinci cəhət, daha çox subyektiv məzmun daşıyır. Çünki şəxsən aktrisanın özünün yaradıcılıq yoluna və sənətkarlıq simasının yaxın illərdəki formalaşma prosesinə aiddir. Gənc aktrisa bu balaca obrazı ifa edərkən onun faciə damarını düzgün tutmuş, ehtimal ki, instinkt gücünə tapdığı doğru açarla təkcə bu obrazı deyil, həm də öz gələcəyinin qapılarını açmış, ona xas və məxsus olan bir aləmin astanasına qədəm basmışdır"(16).

“Gənc aktrisa Hökümə xanım bu balaca obrazın faciə damarını tutmuş, onun açarını tapa bilmişdi. Bizə belə gəlir ki, həmin açar eyni zamanda aktrisaya xas və məxsus olan səhnə aləminin qapılarını da onun üzünə açmışdır.

Bu aləm yüksək dramatizm və faciə aləmidir.

Tamaradan sonra aktrisanın müxtəlif janrlarda, müxtəlif rollardakı çıxışları, onun uzun və zəhmətli axtarışları onu ilk təməl daşının (Tamara obrazının) üstündə yüksələn bir zirvəyə gətirib çıxarmışdır” (15).

Hökümə Qurbanova 1939-1943-cü illərdə S. Rəhmanın “Toy” komediyasında Zinyət (rej. M. Haşımov, 28.04.1939); C. Cabbarlının “Od gəlini” faciəsində Solmaz (rej. İ. Hidayətzadə, 29.09.1939); N. Vəzirovun “Müsibəti Fəxrəddin” faciəsində Gülbahar (rej. S. Turabov, 18.03.1940); S. Rüstəmin “Qaçaq Nəbi” mənzum dramında Həcər (rej. İ. Hidayətzadə, 26.09.1940, aktrisa bu obrazı sonralar hazırlayaraq ansambla daxil olmuşdur), M. Təhmasibin “Bahar” pyesində Laçın (rej. Ə. Şərifov, 10.10.1940); S. Rəhmanın “Xoşbəxtlər” komediyasında İnci (rej. A. İsgəndərov və Ş Bədəlbəyli, 23.01.1941); Kondrat Krapivanın “Son gülən” əsərində Gülşən (tərcümə və təbdil edən Mir Cəlal, rej. Ə. Şərifov, 27.03.1941); S. Vurğunun “Fərhad və Şirin” mənzum faciəsində Məryəm (rej. A. İsgəndərov, 06.11.1941); M. Hüseynin “Nizami” dramında Afaq (rej. A. İsgəndərov, 16.08.1942); C. Cabbarlının “Almaz” əsərində Yaxşı (rej. S. Turabov, 10.01.1943); R. Rzanın “Vəfa” pyesində Vəfa (rej. A. İsgəndərov və Ə.Şərifov, 07.05.1943); S. S. Axundovun “Eşq və intiqam” faciəsində Zəhra (rej. Ə. Ələkbərov, 01.10.1943) obrazlarını ifa etmişdir.

1939-cu ildə aprel ayının 28-də H. Qurbanova Məhərrəm Haşımovun quruluşunda S. Rəhmanın “Toy” komediyasında Zinyət obrazını ifa etdi.

Bu komediyada iki qüvvə mübarizə aparır-yenilik və köhnəlik. Yeniliyə Zinyət (Hökümə Qurbanova), Şeyda (Atamoğlan Rzayev), Surxay (Süleyman Tağızadə), köhnəliyə isə Kərəmov (Mirzağa Əliyev), Mirzə Hüseyn (Məmmədəli Vəlixanlı) və b. başçılıq edirdi.

Əsl xalq yumoru ilə zəngin olan bu komediyada çox maraqlı komik vəziyyətlər var idi.

H. Qurbanova Zinyətin xarakterini düzgün dərk etmiş, onu maraqlı mizanlarla zənginləşdirmişdir. Aktrisa bu obrazı ifa edərkən şarjdan və şit hərəkətlərdən qaçmış, gələcəyə nikbin baxan, zəhmət-keş bir qız obrazı yaratmağa müvəffəq olmuşdur. Zinyət-Qurbanova ətrafında baş verən hadisələrə öz münasibətini bildirən kolxozçu qız idi. Zinyət-Hökümə xanım münasibətini iki yerə ayırırdı. O, dostlarına qarşı mehriban, Kərəmov kimilərə qarşı amansız idi. H. Qurbanova kinayəni iki yerə məharətlə ayıra bilirdi. Aktrisa Kərə-mova qarşı qatı kinayə bəsləyirdisə, dəmirçi Musaya qarşı bəslənən kinayə satirik xarakter daşıyırdı.

"Realist həyat hadisələrində açıq komizmə geniş meydan açan Məhərrəm Haşımovun rejissor niyyətini aktyorlardan Sidqi Ruhulla (Dəmirçi Musa), Hökümə Ələkbərova (Qurbanova – İ.A) (Zinyət), Əzizə Məmmədova (Zalxa) ... məharətlə təcəssüm etdirə bilirdilər" (19).

Aktrisa Zinyəti duyan, düşünən, sevən bir gənc kimi ifa edirdi. Onun Zinyəti işgüzar olmaqla yanaşı sevməyi də bacarırdı. Səhnədə ilk addımlarını atan Hökümə Qurbanova "Toy" komediyasında Zinyət obrazını yaradarkən SSRİ xalq artistləri Mirzağa Əliyev, Sidqi Ruhulla (dəmirçi Musa) və başqa görkəmli səhnə xadimləri ilə tərəf müqabili olmuş, onlarda sənətin sirlərini mənimsəmişdir.

1939-cu ildə sentyabr ayının 29-da Hökümə xanıma C. Cabbarlının "Od gəlini" faciəsində (rej. İ. Hidayətzadə) mürək-kəb və ziddiyyətli Solmaz obrazı tapşırılır.

"Solmaz rolu da səhnəmizin qüdrətli aktrisalarının, o cümlədən Mərziyə xanımın və Yeva xanımın repertuarını bəzəmiş, onların si-masında şöhrətli ifaçılarını tapmışdır. Belə sələflərə ləyaqətli varis ol-maq, onlardan sonra rolun ifasına yenilik gətirmək, təzə fikir, təzə söz demək o qədər də asan deyil. Hökümə Qurbanova bu təsadüfdə də çətin yolu üstün tutmuş, təkrardan və təqliddən uzaq olmuşdur" (16).

Bildiyimiz kimi tamaşanın diqqət mərkəzində Elxan və Sol-maz xəttləri durur. İstər Elxan rolunu ifa edən Ələsgər Ələkbərovun

və istərsə də Solmaz rolunu oynayan Hökümə Qurbanovanın birlikdə gördüyü iş tamaşanın yüksək səviyyədə getməsinə səbəb olmuşdur. Onların sevgisi təmiz qəlbdən yaranan sevgi idi.

Solmaz-Qurbanova ərəb xəlifələri əlində alətə çevrilmiş gözəl, pak bir qız idi. Aktrisanın Solmazında sevgi uğrunda döyünən ürək var idi. O, lazım gələndə nəyə qadir olduğunu tamaşaçıya göstərməyə nail olurdu. Bu da Solmaz-Qurbanovanın iti ağıla malik olduğunu göstərirdi. Onun Solmazı ətrafındakı hadisələri şərh etməyi bacarırdı. Hökümə xanım ifasında Solmazın mübarizliyi bütün tamaşa boyu hiss olunurdu.

Səhnədə ilk obrazlarından tamaşaçı yaddaşına həkk olunan H. Qurbanova yaradıcılıq axtarışlarını getdikcə dərinləşdirərək daha da müxtəlif xarakterli obrazlar yaratmağa nail olmuşdur.

1940-cı il mart ayının 18-də N. Vəzirovun "Müsibəti Fəxrəddin" faciəsi S. Turabovun quruluşunda tamaşaçılara nümayiş etdirildi. Əsasən gənclər üzərində qurulmuş bu tamaşada Atamoğlan Rzayev (Fəxrəddin), S. Bəsirzadə (Səadət), H. Qurbanova (Gülbahar) əsas rolları ifa edirdilər.

"... H. Qurbanova əsasən gənc aktyor qüvvələri tərəfindən hazırlanmış "Müsibəti Fəxrəddin" tamaşasında Gülbaharın rolunu hərarətlə oynamışdır. Lakin gənc aktrisanın ilk müvəffəqiyyətləri onu arxayınlaşdırmamış, əksinə, öz sənətkarlığını artırmaq üçün yeni axtarışlara ruhlandırmışdır" (23).

Gülbahar obrazında Hökümə xanım sadə və nikbin idi. Onun ifasında gənclikdən gələn ruh yüksəkliyi var idi.

"Gülbahar-Hökümə xanım tamaşada görkəmli yer tutur. Aktrisa sonrakı epizodlarda da rolu əsasən dramatik boyalarla canlandırır. Bu gənc qızın fəal, işgüzar təbiətini, müsibətə qarşı acizlik yox, müqavimət göstərmək bacarığını ön plana çəkir. Beləliklə o, tamaşada ictimai etirazın qüvvətlənməsinə xidmət edir" (16).

H. Qurbanovanın ifasında Gülbahar obrazı dramatik hadisələrlə, iztirab motivləri ilə zənginləşmiş səhnə qəhrəmanı idi.

"H. Qurbanova öz yaradıcılığını müasir həyatla, yeni cəmiyyət quran insanlarla sıx bağlamış, səhnədə müasir insanların obrazlarını

yaratmağa ciddi həvəs göstərmişdir. Onun bir çox sənətkarlıq qələbələri məhz müasir pyeslərin səhnə təcəssümü ilə əlaqədardır. Artist həyata fəal münasibət bəsləməklə onun inkişafına bilavasitə kömək etmək istəyir. O, müasir pyeslərin tamaşalarında oynadığı hər bir rolda həyat hadisələrinə öz vətəndaşlıq münasibətini, məhəbbət və nifrətini aydın şəkildə təzahür etdirir. Onun qəhrəmanları həmişə ideal adam olmur, bəziləri həyatın çətin yollarında səhv də edir; lakin bu qəhrəmanlar öz təmiz mənəviyyatları ilə hər cür çətinliklərə, məhrumiyyətlərə qalib gəlirlər"(23).

Hökümə Qurbanova səhnədə yaratdığı müxtəlif mövzulu obrazlar içərisində komediya janrı xüsusi yer tutur. Bu baxımdan onun 1941-ci il yanvar ayının 23-də A. İsgəndərov və Ş. Bədəlbəylinin quruluşunda tamaşaya qoyulan "Xoşbəxtlər" komediyasındakı İnci obrazı Hökümə xanımın yaradıcılığında xüsusi yer tutur.

S. Rəhmanın ikinci səhnə əsəri olan "Xoşbəxtlər" komediyası "Toy" dan fərqlidir. Bu lirik komediyada ailə-məişət məsələsi ön plana çəkilmişdir.

"Hökümə xanım bu pyesdə İncinin rolunu çox incə bir üslubda, zərif bir yumorla yaratdı" (8).

"Lirik qəhrəmanların surətlərini yaradan Barat (Gülər), H. Qurbanova (İnci), M. Sənani (Sadıq) və M. Mərdanov (Mürşüd) böyük həvəslə oynayır, incə və səmimi duyğuların gözəlliyini hifz edirlər. Onlar öz qəhrəmanlarını aydın fərdi xüsusiyyətləri ilə göstərirlər...

H. Qurbanovanın yaratdığı İnci ... daha səmimi və sadə bir varlıq olduğundan, özünə yaraşmayan küsülü rolunu axıra qədər ciddi oynaya bilmir. Onun "inadkarlığı" inandırıcı deyildir. Buna görə də o, bu ayrılığın acısını başqalarından daha çox hiss edir və öz hərəkəti üçün Gülərdən daha çox peşimançılıq çəkir. İncinin sadəliyi, Mürşüdün isə zahiri sarsılmazlığı səmimi gülüş doğurur" (4).

M. Hüseyn "Kommunist" qəzetində (29.01.1941) yazır ki; "Gənc aktrisalardan Barat (Gülər), Hökümə (İnci), Əminə (Maral) öz rollarını əvvəldən axıra qədər böyük bacarıqla oynayırlar. Baratın, Hökümənin və Əminənin aktyor sənəti sahəsində belə

sürətlə boy atmasında, köhnə teatr ştamplarına qarşı inadla vuruşan və aktyorların istedadından maksimum istifadə etməyi bacaran Adil İsgəndərovun böyük xidməti olmuşdur".

"Hökümə Qurbanova İnci rolunda həqiqətən bir inci idi. Barat Şəkinskaya Gülər obrazını böyük ustalıqla yaratdı. Yeri gəlmişkən deyim ki, Barat Şəkinskaya və Hökümə Qurbanova geniş diapazona malik sənətkarlardırlar. Onların ifasında gördüyümüz ... rəngarəng xarakterlər teatr tariximizdə mühüm yer tutur"(18).

"Aktrisalardan H. Qurbanova (İnci) və B. Şəkinskaya (Gülər) qabarıq fərdi xüsusiyyətləri ilə fərqlənən, lakin xarakterləri etibarı ilə bir-birinə yaxın olan iki gənc azərbaycanlı qadının surətində incə və səmimi duyğuların gözəlliyini ifadə edirdilər" (5).

H. Qurbanovanın ifasında İnci komediyada əsas obrazlardan biri idi. Bunların dördüdə (Sadıq, Gülər, Mürşüd, İnci) bir-birinə bənzəməyən xarakter olmasına baxmayaraq, tamaşada ümumi ansamblı yarada bilirdilər.

"İnci-Hökümə Qurbanova üçün ailə münaqişəsi və onun həlli ailənin səlamətliyi, möhkəmliyi məqsədi ilə bağlıdır. Hökümə xanım öz obrazını, hər şeydən əvvəl, həqiqətən ərini sevən və həqiqətən ailəsini qoruyan qadın kimi təqdim edir. O, məqsədində haqlıdır. Tamaşaçılar bunu yaxşı başa düşür. Amma ərinə qarşı rəftarında, iddiasında, tələblərində isə haqlı deyil. Tamaşaçı bunu da yaxşı başa düşür. Məqsədlə iddia, istəklə rəftar arasındakı bu təzad aktrisanın ifasında xarakterin mahiyyətinə və gülüşün mənbəyinə çevrilir" (16).

H. Qurbanovanın ifa etdiyi İnci onun komediya janrında bir növ sınağı idi. Və aktrisa bu obraz ilə sübut etdi ki, o, gələcəkdə daha mürəkkəb xarakterli komik obrazlar yarada bilər.

1941-ci il noyabr ayının 6-da A. İsgəndərovun quruluşunda S. Vurğunun üçüncü səhnə əsəri olan "Fərhad və Şirin" mənzum faciəsi tamaşaçıların ixtiyarına verildi və H. Qurbanova bu tamaşada çox möhtəşəm Məryəm obrazını yaratdı.

"Qəhrəmanlıq pafosu, romantik ruhu, monumental təfsiri, vətənpərvərlik, sevgi və ülviyyət mövzularının poetik təcəssümü ilə

Səməd Vurğunun “Fərhad və Şirin” faciəsi teatrın yeni və mühüm, təravətli və möhtəşəm sənət qələbəsi oldu” (19).

Bu qələbədə Hökümə xanımın da payı var idi. Faciəvi sima olan Məryəm-Qurbanova öz mükəmməl ifası ilə tamaşaçıları ovsunlamağı bacardı. Onun Məryəmi namuslu olmaqla yanaşı, həm də qəhrəman bir qadın idi. Məryəm-Qurbanova ilk səhnədən (Şirinlə görüş səhnəsi) başlamış son səhnəyə (oğlu Şiruyə ilə döyüş səhnəsi) qədər öz ifasını tamaşaçılara dəqiq göstərirdi.

H. Qurbanova müsahibəsində qeyd edir ki; “Yadımdadır “Fərhad və Şirinin məşqində Məryəm özünü öldürdüyü epizodun ümumi əzəmətli mənzərəsi-kompozisiyası tapılmışdı. Amma mən bu mənzərənin mərkəzində dayanmalı ikən uzun müddət bunu eləyə, öz son monoloqumu təbii tərzdə söyləyə bilmirdim. Rejissor səbirlə gözləyir, bu epizod üzərindəki işi bitirməyi gündən-günə təxirə salırdı. Ancaq son məşqlərin birində bu monoloq səsləndi, rejissorun işarəsi, təlqini ilə mən bu sıldırım dağlar arasında, iki qoşun əhatəsində öz yalnızlığımı hiss elədim, duydum ki, monoloqu səhnədəkilərə yox, bütün dünyaya, yerlərə, göylərə, bütün insanlara, taleyə, tanrıya, öz qarabaxtıma müraciətlə söyləməliyəm” (16).

“Hökümə yaxşı duyulmuş, ətraflı düşünülmüş ana və qəhrəman surəti ilə tamaşaçını sarsıdır... Hökümə Şiruyə ilə qarşılaşdığı səhnədə ana qəlbinin sızıltılarını və qorxmaz bir cəngavərin iradə möhkəmliyini sənətkarlıqla uyuşduraraq, özünü tamaşaçıya sevdirir” (9).

Tamaşada ən qüvvətli və orijinal səhnələrdən biri olan Məryəm-Qurbanovanın oğlu Şiruyə ilə üz-üzə gəldiyi səhnədir ki, burada aktrisa tamaşaçıları öz bənzərsiz ifası ilə sarsıdırdı.

“Məryəm tam mənası ilə fəci obrazdır. Janr və üslub cəhətdən tamam və kamil surətdir. Yəqin elə buna görə də aktrisanın istedadı Məryəm obrazında daha çox parlayır. Pyesin ən yüksək faciə zirvələrindən biri (Məryəmin öz oğlu ilə vuruşu və ölümü) Hökümə xanımın ifasında tamaşanın da ən yüksək zirvəsinə çevrilir. O bu rolu əsil faciə duyğusu ilə ifa edir” (15).

Hökümə Qurbanovanın ifasında Məryəm sadəcə qısqanc deyildir, o eyni zamanda aldanılmış və alçaldılmış bir qadının, həm də duyğulu bir ananın faciəsini ifa edirdi.

“... nəcib və fədakar ana Məryəmin obrazını Hökümə Qurbanova ... romantik sənət boyaları ilə yaratmışdı...” (22).

Tamaşaçı Məryəm-Qurbanovanın intiqam almaq qüdrətinə malik olduğuna inanırdı. Aktrisanın ifasında Məryəm qoçaq, sözü bütöv bir insan idi.

“Məryəm obrazının səhnə təcəssümü ən yüksək qiymətə layiqdir. Çünki yüksək tələblərə cavab verən, böyük sənətin meyarı ilə ölçülə bilən yaradıcılıq işidir. Təsadüfü deyildir ki, teatr ictimaiyyəti Hökümə xanımı Məryəm roluna təqdir elədi. Aktrisanın pərəstişkarlarının sayı birə on qat artdı. Tamaşaçılar onun sifətində teatra yeni, böyük bir istedad gəldiyinə inandı...

... Məryəm obrazı aktrisanın ... bütün yaradıcılığında əlamətdar hadisədir, onun inkişaf yolunda bir sıçrayışdır...

... Məryəm əsərin əsas qəhrəmanı olmasa da tamaşanın ideya pafosunun düzgün səslənməsində, o vaxt üçün aktual səpki ilə işıqlandırılmasında onun da fəal iştirakı və xidməti vardır. Aktrisanın ifası zülmə, təzyiqə qarşı etiraz fikri, azadlığa və insan səadətinə xidmət ideyası ilə bilavasitə və möhkəm surətdə bağlı olduğu üçün, bu işıqlı ideya ilə daxilən alovlandığı üçün gözəl təsir bağışlamış, yekdilliklə yüksək qiymətləndirilmişdir” (16).

Beləliklə, Məryəm obrazı Hökümə Qurbanovanın ilk yaradıcılıq uğurlarının ən gözəl nəticəsidir. H. Qurbanova Məryəm obrazı ilə sübut etdi ki, Azərbaycan səhnəsinə istedadlı bir aktrisa gəlib.

1942-ci il avqust ayının 16-da Adil İsgəndərovun quruluşunda M. Hüseynin lirik romantik səpgidə qələmə alınmış “Nizami” pyesi tamaşaçılara təqdim edildi və Hökümə Qurbanova Nizaminin həyat yoldaşını-Afaqı ifa etdi.

“Adil İsgəndərov tərəfindən hazırlanan bu tamaşada Rza Əfqanlı (Nizami), Sona Hacıyeva və Hökümə Qurbanova (Afaq) ... Sidqi Ruhulla və Ələsgər Ələkbərov (Əbdək) ... Mərziyə Davudova (Məhsəti) ... maraqlı və yadda qalan obrazlar yaradaraq, böyük

Nizaminin mühiti, zəmanəsi və mənəvi aləmi haqqında müasirlərimizə aydın təsəvvür verə bildilər” (22).

Müəllif tərəfindən zəngin boyalarla işlənmiş Afaq obrazını ifa etmək aktrisadan böyük bacarıq tələb edirdi. Çünki bu obraz təbiət etibarı ilə mərd və zərif qəlbə malik olan bir xanım idi. Ona görə bu rolu ifa edən aktrisanın istedadı kifayət qədər olmalıdır ki, obrazın səhnə taleyini düzgün şərh edə bilsin. Hökümə Qurbanova bunu bacardı. O, obrazın incə xarakteri və yüksək romantikası ilə bərabər vətənpərvərlik hisslərini də tamaşaçılara çatdıra bildi.

“Afaqın xəzərlərlə qarşılaşdığı, qılınclaşdığı epizod tamaşanın görkəmli və ifadəli yerlərindən biri kimi canlanır və bir qayda olaraq tamaşaçılar tərəfindən həmişə alqışlarla müşayiət olunurdu. Bu epizod Hökümə Qurbanovanın da ən uğurlu epizodu idi”(16).

Aktrisa analıq məhəbbətini, Nizaminin sevgisini və Afaqın faciəvi həyatını parlaq şəkildə təsvir edə bilirdi. Hökümə xanım ifa etdiyi qəhrəmanının xarakterini tamaşaçılara göstərməyə nail olurdu.

1943-cü il yanvar ayının 10-da C. Cabbarlının “Almaz” əsəri S. Turabovun quruluşunda tamaşaya qoyuldu və Yaxşı rolunu H. Qurbanova ifa etdi.

Hökümə xanımın ifasında Yaxşı daxilən azad olmayan, hüquqsuz bir kəndli idi.

“Yaxşı obrazı ilə Hökümə xanım ikinci dəfə görüşür. O, “Almaz” filmində müəlliflə bərabər görülən işin təcrübəsindən, səmərəsindən faydalanaraq indi əsərə və öz roluna daha artıq bələdçiliklə, daha dərin idrakla yanaşır. Xalis realistik planda yazılmış bu rolun səhnə rəsmində o, indi şairanəlik meyli, onun səhnə həyatında gizli dönüşlər, tamaşanın sonunda isə gözlənilməz bir sıçrayış, güclü bir partlayış tapır. İlk səhnələrdə kölə şüuru ilə yaşayan yazıq, aciz Yaxşı ilə axırda yoxlama iclasında səhnəyə atılan Yaxşı arasındakı fərqi, obrazın aqibətindəki dönüşü, onun şüurundakı intibahı aktrisa dərindən duyur, hadisələrə uyğun bir məntiqlə və eyni zamanda emosional hərarətlə oynayır” (16).

H. Qurbanova Yaxşısı nəcib duyğulara, sevən ürəyə malik bir insan idi. Onun varlığına təmiz mənəviyyat hakim idi. Almazın

ətrafında baş verən hadisələrə münasibətlər Yaxşı-Qurbanovanın daxili aləmini sarsıtmışdır, onu mübariz etmişdir.

"Hər bir həqiqi sənətkarın çoxlu mövzular içərisində öz mövzusu, özünə məxsus yaradıcılıq aləmi olur. O, həyat haqqındakı dəruni fikirlərini, həyat və sənət diləklərini, vətəndaşlıq və insanlıq arzularını özünün doğma mövzusu əsasında daha gözəl təcəssüm etdirir. Hökümə xanımın əsas səhnə mövzusunu böyük insan təbiətləri, qəhrəman, mübariz, möhtəşəm xarakterlər, öz faciəli taleyi, aqibəti ilə insaniyyəti, həqiqəti və ülviyyəti təsdiq edən, yüksək bəşəri ideallara çağıran obrazlar təşkil edir" (15).

1943-cü il mayın 7-də R. Rzanın ilk səhnə əsəri olan "Vəfa" pyesi A. İsgəndərov və Ə. Şərifovun quruluşunda səhnələşdirildi və prokuror Vəfa obrazını Hökümə xanım ifa etdi.

Vəfa indiki Akademik Milli Dram Teatrının səhnəsində H. Qurbanovanın ilk baş rolu idi. Aktrisa Vəfa obrazı ilə özünün misilsiz bir səhnə ustası olacağına tamaşaçıları inandırdı.

M. Arif "Kommunist" qəzetində (16.05.1943) yazır ki; "Hökümə Qurbanova bu məsuliyyətli rolu müvəffəqiyyətlə ifa edir".

H. Qurbanova Vəfanın daxili və xarici keyfiyyətlərini birləşdirərək dolğun bir obraz yaratmışdır. O, Vəfanın namuslu, əməksevər, dostluğa və sevgiyə sədaqətini tamaşaçılara dəqiq boyalarla təqdim edirdi.

Ə. Şərif "Bakinski raboçi" qəzetində (12.05.1943) qeyd edir ki; "... tamaşada ən mürəkkəb, ən çətin vəzifə bizim gözümüzün qabağında belə sürətlə inkişaf edən gənc aktrisa H. Qurbanovanın payına düşmüşdür".

"Çox mürəkkəb obrazlar olan Bahadır və Vəfa rollarının tam, dolğun səhnə təcəssümünü tapmaq, xarakterləri tamaşada yüksək səviyyədə yaratmaq R. Əfqanlı və H. Qurbanovadan böyük səy, bacarıq, istedad tələb edirdi. Buna görə də aktyorlar öz müasirləri olan bu qəhrəmanların ümumiləşmiş, inandırıcı, həyati obrazlarını yaratdılar və tamaşaçılara onların daxili təbəddülatını çatdıra bildilər. Aktyorlar onların böyük ədəb-ərkan, ictimaiyyət qarşısında mənəvi borc tələb edən mürəkkəb psixoloji vəziyyətlərə düşən, bir-

birini sönməz məhəbbətlə sevən qəhrəmanların hiss-həyəcanlarını yüksək dramatik qüvvə kimi təqdim edirdilər" (13).

"Aktrisa obrazın şəxsiyyəti ilə daşıdığı vəzifəsi, qulluq işləri ilə şəxsi həyatındakı davranışı, idarədəki və evdəki adamlarla rəftarı arasında möhkəm sərhəd çəkmirdi. Yəqin tamaşaçı buna görə asanlıqla inanırdı ki, onun düşüncə və həyat tərzi (ədliyyə xidmətindən asılı olmayaraq) ədalət qanunlarından ayrı deyildir. Onun adamlara göstərdiyi münasibət adamların onun çağırışına göstərdikləri münasibətlə şərtlənir. Biz inanırdıq ki, qohum yaxud yad olmağından, idarəyə ya evinə gəlməyindən asılı olmayaraq onun üçün doğru doğrudur, əyri isə əyri, cani canidir, xain də xain. Vəfa-Hökümə Qurbanova üçün dostluğun, sədaqətin, vəfanın meyarı şəxsi motivlərlə deyil, ictimai əlamətlərlə dəqiqləşirdi. Əgər Vəfa-Hökümə xanım Ülkər xala (bu rolu SSRİ xalq artisti Mərziyə Davudova ifa edirdi-İ.A.) ilə danışanda bir cür, Minnətovla (bu rolu SSRİ xalq artisti Ələsgər Ələkbərov ifa edirdi-İ.A.) danışanda başqa cür olurdusa, İntizarı dinləyəndə bir rəftar, Vəsfiyyəni dinləyəndə və Mirzə pomoşniki, yaxud Zeynəb oğlunu görəndə isə özgə rəftar göstərir, az qala dəyişib başqa adam olurdusa-bu dəyişmənin, belə ziddiyyətlərin özü xarakterin bütövlüyündən, əqidənin sabitliyindən və iradənin möhkəmliyindən xəbər verirdi.

Aktrisanın hərəkət və danışıq tərzi, səhnə davranışı bu rolda daha artıq həyatiliyi, səmimiliyi və sadəliyi ilə seçilirdi. Vətənpərvərlik pafosu ilə yazılmış bu əsərdə, vətən müdafiəsini təbliğ edən bir tamaşada bu üslubu gözləmək onu saxtalığa, şüarçılığa, ritorikaya qapılmaqdan qoruyurdu" (16).

Səhnədə ilk addımlarını uğurlu atan bu istedadlı aktrisa ictimaiyyətin rəğbətini qazanmış Vəfa obrazı ilə özünü görkəmli sənətkar sırasına daxil edə bilmişdir.

"... Vəfa rolunda çıxış edən Hökümə Qurbanova ciddi ifa tərzi ilə aparıcı obrazlar oynamaq üçün ona bəslənən ümidləri doğrultdu. "Vəfa" tamaşasından sonra ona dalbadal ciddi rollar tapşırıldı" (19).

Hökümə Qurbanova Vəfa rolu ilə qanun keşiyində duran insanların ümumiləşmiş obrazını yaratmağa müvəffəq olmuşdur. Cəmi

bir neçə il aktrisalıq fəaliyyətində Hökümə xanımın bu cür uğur qazanması şübhəsiz ki, böyük istedadın bəhrəsi idi.

1943-cü ildə oktyabr ayının 1-də S. S. Axundovun "Eşq və intiqam" faciəsi Ə. Ələkbərovun quruluşunda tamaşaya qoyuldu və burada Hökümə xanım Çingizin sevgilisi Zöhrə rolunu ifa etdi.

Bu obraz H. Qurbanovanın daxili aləminə çox yaxın idi və aktrisa bu rolu lirik-romantik səpgidə oynayırdı.

Hökümə xanım Zöhrənin saf məhəbbətini və bu məhəbbətdən meydana gələn faciəni incə detallarla tamaşaçılara təqdim edirdi. Bu kamil sənətkar Çingizsiz keçirən kədəri, onu gördükdən sonra yaranan sevinci böyük sənətkarlıqla göstərirdi. Bu səhnələrdə aktrisa Zöhrənin keçirdiyi psixoloji vəziyyətləri düzgün şəkildə tamaşaçılar qarşısında canlandıra bilirdi.

1943-cü ildə Hökümə Qurbanovanın 30 yaşı tamam oldu və bu münasibətlə ona respublikanın əməkdar artisti (17 iyun) fəxri adı verildi. Bu şübhəsiz ki, Hökümə xanımın səhnədə atdığı ilk addımlarının layiqli qiyməti idi.

# II FƏSİL
# MƏHSULDAR DÖVR (1944-1960)

*Hökümə xanım bədii və poetik xarakterlər yaratmağın, hər yeni rolda başqalaşmağın, yenidən təcəssüm tapmağın ustasıdır.*

***SSRİ xalq artisti, prof.* Mehdi Məmmədov**

Hökümə Qurbanovanın ifa etdiyi müasir və klassik səhnə qəhrəmanlarının hər biri böyük həyat yolu keçmiş canlı insanlardır. "Görkəmli səhnə xadimi öz qəhrəmanlarını həmişə hərəkətdə, inkişafda verir... Hökümə Qurbanovanın səhnəmizdə ehtiraslı bir ürəklə yaratdığı... obrazların hər biri ayrı-ayrılıqda incə sənətkar zövqü ilə işlənmiş, artistin füsunkar səhnə məlahətinə malik olduğunu nümayiş etdirmişdir.

Hökümə Qurbanovanı çox vaxt lirik rolların mahir ifaçısı kimi qiymətləndirirlər. Doğrudan da, onun yaratdığı Oliviya, Germiona, Şirin, Reyhan, Şəfəq, Xuraman, Cenevrə kimi rollarda lirik akkord olduqca güclüdür" (23).

H. Qurbanovanın böyük bir sənətkar kimi yetişməyində ilk növbədə fitri istedadın, bir də gərgin əməyin rolu əvəzsizdir. Aktrisa bu iki nadir varlığı birləşdirərək, əvəzsiz sənət yaratmışdır.

"40-cı illər yorulmaq bilməyəm sənətkarın səhnə həyatında axtarışlar dövrü olmuşdur. O, müxtəlif janrlarda, başqa-başqa səpkilərdə olan obrazlar üzərində yaradıcılıq işi aparmış, öz istedad və bacarığını sınaqdan keçirmişdir. Bu mahir aktrisa Zeynəb ("Dumanlı Təbriz"), Oliviya ("12-ci gecə"), Gülarə ("İşıqlı yollar"), Nataşa ("Şərqin səhəri"), Cenevrə ("Dərin köklər"), Şəfəq ("Bahar suları"), Yeva Qrant ("Bir evin sirri") kimi bir-birindən fərqlənən rollarda çıxış etmişdir, müxtəlif xalqların, ayrı-ayrı dövrlərdə yaşamış, öz istək və arzuları uğrunda mübarizə aparmış qız və qadınlarının xarakterini məharətlə eyni bədii səviyyədə yüksəltmiş, gözəl, uzun

zaman tamaşaçıların xatirində yaşayan obrazlar yaratmağa müvəffəq olmuşdur" (12).

Höküme xanım Qurbanova 1944-1950-ci illərdə M. Hüseyn və İ. Əfəndiyevin birlikdə qələmə aldıqları "İntizar" pyesində Süreyya (rej. S. Turabov, 26.12.1944); M. S. Ordubadinin "Dumanlı Təbriz" əsərində Zeynəb (rey. A. İsgəndərov və Ə. Şrifov, 28.04.1945); S. Vurğunun "İnsan" mənzum dramında Tatyana (rej. M. Haşımov və Ə. Ələkbərov, 07.11.1945); V. Şekspirin "On ikinci gecə" komediyasında Oliviya (tərcümə M. İbrahimov, rej. M. Məmmədov, 20.04.1946); L. Malyuginin "Köhnə dostlar" əsərində Tonya (tərcümə M. İbrahimov, rej. S. Turabov və Ə. Ələkbərov, 21.01.1947); İ. Əfəndiyevin "İşıqlı yollar" pyesində Gülarə (rej. A. İsgəndərov, 19.07.1947); Ə. Məmmədxanlının "Şərqin səhəri" dramında Nataşa (rej. A. İsgəndərov, 07.11.1947); Ceyms Qou və Arno D'Nyussonun "Dərin köklər" əsərində Cenevrə (tər.S. Rüstəm, rej. M. Haşımov və S. Turabov, 06.03.1948); A. Fadayevin "Gənc qvardiya"sında Valya Bors (səhnələşdirən Q. Qrakov, tərcümə T. Əyyubov, rej. M. Məmmədov, 04.04.1948); Ə. Haqverdiyevin "Pəri cadu"sunda Şamama qarı (rej. Ə. Şərifov, 07.05.1948); İ. Əfəndiyevin "Bahar suları" dramında Şəfəq (rej. A. İsgəndərov, 11.12.1948); S. Rəhmanın "Aydınlıq" komediyasında Fəridə (rej. M. Məmmədov, 05.02.1949); A. Boryanovun "O tayda" əsərində Valentina Nikolayeva (tərcümə Ə. Məmmədxanlı, rej. Ə. Şərifov, 08.04.1949); Tur qardaşlarının "Bir evin sirri"ndə Yeva Qrant (tərcümə M. Hüseyn, rej. S. Turabov, 04.12.1949); C. Məcnunbəyovun "Böyük məhəbbət" pyesində Sevda (rej. Ə. Ələkbərov, 12.05.1950) kimi obrazlar yaratmışdır.

Hökümə Qurbanova Azərbaycan teatrına parlaq səhifələr yazmış bir sənətkardır. Yuxarıda adları çəkilən bu qəhrəmanların hər biri xarakter etibarı ilə bir-birindən kəskin fərqlənirlər. Hökümə xanımın ifa etdiyi müxtəlif təbəqələrdən olan bu obrazların hər birinin öz şəxsi həyatları, dünyaya baxışları vardır. Bu obrazların biri şeirlə, digəri isə nəsrlə danışır. Bu obrazları ayrı ayrılıqda yaratmaq və

onların öz xarakterini tamaşaçılara dəqiq göstərmək həqiqətən sənət qələbəsi idi.

1944-cü il dekabr ayının 26-da S. Turabovun quruluşunda M. Hüseyn və İ. Əfəndiyevin müharibə mövzusunda müştərək yazdıqları "İntizar" tamaşası səhnəyə qoyuldu. Bu tamaşada Hökümə Qurbanova ilə Məhluqə Sadıqovaya Sürəyya obrazı tapşırıldı.

İ. Rəhimli qeyd edir ki, H. Qurbanova Sürəyya rolunu ifa etməyib (19). Sonra digər kitabında göstərir ki, Hökümə xanım Sürəyya rolunu oynayıb (21). Eyni müəllifin ayrı-ayrı kitablarında bir-birinə zidd olan fikirləri. Lakin bizim əlimizə düşən akademik Məmmədcəfər Cəfərovun, professor Mehdi Məmmədovun və Adilə İsmayılovanın tədqiqatlarında göstərilir ki, Hökümə xanım Sürəyya obrazını oynayıb.

"Müəlliflərin fikrincə Sürəyya qoca Alxasın başqa bir timsalı kimi dözüm, dəyanət, mərdlik və sədaqət ideyasını daşımalı, bu ideyanın təbliğatçısı olmalıdır. Aktrisa (H. Qurbanova-İ. A.) bu fikrə əsaslanmağa çalışsa da, rolun səhnə həyatında məntiq və təbiilik axtarmaqda səy göstərsə də pyesin, mətnin özündə olan qüsurları, oynadığı rolun canına hopmuş melodramatizmi tamam dəf eləyə bilmədi"(16).

"Bəzən də rejissor öz mizanları ilə aktyoru pis vəziyyətdə qoyur. Məsələn, "İntizar"da birinci pərdə də rejissor Turabov Məhluqə xanımı aparıb qoyur səhnənin lap dalına və deyir ki, burada dur və titrək bir səslə qısqanclıq odu ilə alışıb yanan qəlbini Tofiqə aç. Məhluqə xanım da arxada olduğuna görə ucadan danışmağa məcbur olur, səsi qeyri-təbii bir vəziyyət alır. Bir tərəfdən də Zeyniş rolunu ifa edən Vəlixanlı dilsiz otursa da məişətə aid hərəkətləri ilə hamının diqqətini özünə cəlb edir və Məhluqə xanıma imkan vermir ki, məhəbbətdən danışanda səsinə lirik bir ahəng verə... Beləliklə də effekt pozulur. Belə halda şübhəsiz ki, təqsir rejissordadır. Ancaq Hökümə xanımın həmən bu şəraitdə ucadan danışması tamamilə başqa cür təsir buraxır. Birinci ona görə ki, o bu rolu başqa planda oynayır. İkinci ona görə ki, onun növbəsində Zeyniş obrazını Mirzağa Əliyev ifa edir...

Sürəyya əsərin ilk səhnələrində son dərəcə qısqanc, əsəbi, dəymə-düşər bir qızdır. Xüsusilə Hökümə xanımın oyununda bu qısqanclıq və əsəbilik daha şiddətli bir hal alır. Sürəyya bu səhnələrdə hələ kamala çatmamışdır. İnsanları yaxşı tanıya bilmir... Lakin son səhnələrdə o dəyişilir. Cəbhədən qayıtmış bir qəhrəmana, sadə, təmiz ürəkli Cəfərə rast gəlir və başa düşür ki, qızların təmiz məhəbbətinə layiq olan oğlanlar necə olarmış. Sürəyya Cəfərə rəğbət bəsləyir... Bu xətt ilə Sürəyya obrazı düzgün, təbii və inandırıcı inkişaf etdirilmişdir”(6).

Beləliklə, “İntizar” tamaşasında qüvvətli aktyor ansamblının (S. Ruhulla, M. A. Əliyev, M. Mərdanov, A. Gəraybəyli, Ə. Qurbanov, M. Vəlixanlı, S. Hacıyeva Ə. Sultanov, H. Qurbanova və s.) ifa etməsinə baxmayaraq, müəlliflər və rejissor tərəfindən baş verən qüsurlar öz işini görmüşdür.

1945-ci il aprel ayının 28-də A. İsgəndərov və Ə. Şərifovun quruluşunda M. S. Ordubadinin “Dumanlı Təbriz” tarixi dramı tamaşaya qoyuldu və Hökümə Qurbanovaya xalq içərisindən çıxmış inqilabçı Zeynəb obrazı tapşırıldı.

Zeynəb obrazı H. Qurbanovanın müvəffəqiyyətlə yaratdığı rollar sırasına daxildir. Onun ifasında Zeynəb zəhmətkeş kütlə içərisindən çıxan inqilabçı, fədakar mücahid idi.

“Əli Qurbanovla Hökümə Qurbanovanın ifa etdikləri Cavad ağa və Zeynəb obrazlarının simasında teatr Təbriz zəhmətkeşlərinin ən yaxşı nümayəndələrini, xalq azadlığı uğrunda canlarından keçən fədakar inqilab mücahidlərini təsvir etmişdir” (13).

Hökümə xanımın ifasında Zeynəb sözün tam mənasında Şərq qadınıdır, hüququnu tələb edən, mübarizələrə qoşulan qadındır. Aktrisa obrazı bu aspektdən ifa edirdi.

“... Mirzağa Əliyev və Mustafa Mərdanovun (Hacı Salman), Ağasadıq Gəraybəylinin (Hacı Mehdi) ... Hökümə Qurbanova və Mirvari Novruzovanın (Zeynəb), Əli Qurbanovun (Cavad ağa) ... oyunu tamaşanın siyasi kəskinliyini və bədii-estetik dəyərini artırır, İran Azərbaycanı zəhmətkeşlərinin milli azadlıq mübarizəsinin əzəmətli lövhələrini tamaşaçılar qarşısında canlandıra bilirdilər” (22).

H. Qurbanovanın yaratdığı Zeynəb tamaşada baş rol deyil, əsas roldur. Hadisələrin cərəyanı Zeynəb-Qurbanovanın ifasından əhəmiyyətli dərəcədə asılı idi.

Zeynəb obrazı Hökümə xanımın simasında öz mükəmməl ifaçısını tapmışdır. Lazım olan bütün keyfiyyətləri H. Qurbanova tamaşaçılara inandırıcı boylarla nümayiş etdirirdi.

"Zeynəb rolunun özünə gəlincə onu səciyyələndirən xarakter cizgiləri, ifaçılıq boyaları da aktrisanın yaradıcılıq ehtiyatında bol idi. Rolun fakturasına görə burda qadın gözəlliyi kişi cəsarəti ilə, qadın həyası döyüşçü hünəri ilə, gənclik hərarəti fitri bir müdrikliklə uyuşmalıdır. Aktrisada bu cəhətlərin hamısı var idi və ifa prosesində onlar təbii surətdə uyuşur, bütöv xarakter nəzdində birləşirdilər. Aktrisa rolun dialektikasını düzgün hiss edir və ona münasib olan bu dialektikanı ifadə edə bilən bioqrafiya ilə yaşayırdı. Bu səhnə bioqrafiyasının başlanğıcı, inkişafı və intəhası var. Belə ki, biz tamaşanın əvvəlindəki Zeynəblə sonundakı Zeynəbi fərqləndirə, onun şəxsiyyətində, xarakterində baş vermiş təbəddülatı əyani surətdə görə bilirik. Əvvəllər özü əsarət altında olan, təzyiq və təcavüzə məruz qalan məzlum Zeynəbin tədricən şüuru dərinləşir, həyata baxışı dəyişir, başqalaşır, o, tədricən özündə qüvvə toplayır, etiraz səsini ucaldır, nəhayət özünün, özü kimi məhkum, məzlum qadınların namusunu qorumaq üçün silaha sarılır. Aktrisa bu mürəkkəb prosesi, xüsusilə onun ikinci hissəsini, fəal mübarizə səhnələrini çox təbii oynayır, daha doğrusu yaşayır. Silah da Zeynəbin-Hökümə Qurbanovanın əlində çox təbii görünür, təbii də işlənirdi. O, heç də bir səhnə atributu, rekvizit predmeti kimi gəzdirilmir, sahibəsinə bənzər tərzdə oynayır, yaşayır, fəaliyyət göstərir. Aktrisanın özü kimi-odlu, hərarətli surətdə, inamla və inandıraraq oynayır" (16).

"Kommunist" qəzeti (30.05.1945) yazır ki; "Cavad ağa (Əli Qurbanov-İ.A.) ilə Zeynəbin (Hökümə Qurbanova-İ.A.) simasında biz Təbriz zəhmətkeşlərinin ən yaxşı nümayəndələrini, xalq azadlığı uğrunda canlarından keçən fədakar inqilabçı, qorxmaz inqilab mücahidlərini görürük... Hökümə Qurbanova bu rolu böyük həyəcan və hərarətlə oynayır".

H. Qurbanovanın ifasında Zeynəb inqilab ruhunda tərbiyə almış mərd bir insan idi. Aktrisa Zeynəb obrazı ilə özünü bir daha mahir sənətkar kimi təsdiqləmişdir.

1945-ci ilin ikinci yarısında Mehdi Məmmədov indiki Akademik Milli Dram Teatrına rejissor ştatına götürüldü və bu teatrın səhnəsində ilk quruluş verdiyi tamaşa böyük ingilis dramaturqu V. Şekspirin “On ikinci gecə” komediyası oldu.

Ə. Şərif “İzvestiya” qəzetində (19.05.1946) yazır ki; “ “On ikinci gecə” tamaşası həm aktyor ifası, həm də rejissor işi baxımından M. Əzizbəyov teatrının böyük müvəffəqiyyətidir. Komediyanın məlahətini, onun şən, bayramsayağı xüsusiyyətini əks etdirmək teatra nəsib olmuşdur. Şekspir komediyası üzərindəki bu iş teatrın yeni istedadlı aktyor qüvvələrinin aşkara çıxmasına səbəb olmuşdur”.

On il səhnədə oynanılan “On ikinci gecə” tamaşası “Şıltaq qızın yumşalması” (tərcümə Həsən Səbri Abdullazadə, rej. A. A. Tuqanov, 18.02.1929) əsərindən sonra V. Şekspirin ikinci komediyası idi ki, Azərbaycan səhnəsində tamaşaya qoyulurdu.

1946-cı il aprel ayının 20-də Mirzə İbrahimovun tərcümə etdiyi V. Şekspirin “On ikinci gecə” komediyası Mehdi Məmmədovun quruluşunda tamaşaya qoyuldu və rejissor Oliviya obrazını H. Qurbanovaya həvalə etdi.

Hökümə xanım “Kommunist” qəzetində Oliviya obrazı üzərində ki, işi haqqında yazır ki; “Mən... Şekspirin yaradıcılığı ilə yaxından tanış olur və onun “12-ci gecə yaxud hər nə istəsəniz” komediyasında Oliviya rolunda çıxış edirəm. Ümumiyyətlə, Şekspirin surətləri üzərində işləmək aktyor yaradıcılığı, onun inkişafı üçün böyük bir vəsait və məktəbdir” (18).

Bu obraz Hökümə xanımın yaradıcılığında irəliyə doğru atılmış mühüm bir addım oldu. Aktrisa Oliviyanın düşdüyü vəziyyəti, dərin psixoloji anları olduqca düzgün ifa edirdi. H. Qurbanova tamaşaçı ruhunu oxşayan, dolğun obraz yaratmağa müvəffəq olmuşdur.

Aktrisa müsahibəsində qeyd edir ki; “...bu rola hazırlaşanda səhnəyə ilk çıxışımda olduğundan artıq həyəcan keçirirdim. Daha artıq. O ilk, bu isə yeni və çətin sınaq idi. Mən ilk Şekspir obrazı

oynamalıydım. Dünya klassik repertuarında ilk əsər, ilk rol! O mənim qarşımda dünya dramaturgiyasının, klassiklər aləminin qapılarını açırdı. Şekspir, Şiller, Hüqo, Qoldoni, Çexov dünyasının qapılarını... Mən astanada dayanmışdım" (16).

"Oliviya-Hökümə Qurbanovanın Şekspir əsərlərində ifa etdiyi ilk roldur. Buna baxmayaraq aktrisa çox maraqlı, canlı, tamaşaçıların rəğbətini qazanan dəyərli bir obraz yaratdı" (17).

"Kommunist" (Yerevan) qəzeti (10.07.1954) yazır ki; "Tamaşanın ifaçıları sırasında hamıdan əvvəl Oliviya rolunu ifa edən Hökümə Qurbanovanı qeyd etmək lazımdır. Eşqindən kədərlənən Oliviya-Hökümə xanım nə qədər qəşəngdirsə, məhəbbətin qələbəsi dəqiqələrində bir o qədər parlaq, bir o qədər cazibədardır. O, tamaşanın ilk səhnələrində həyatın ləzzətindən, nemətindən əl çəkib öz kədərinə qapılır, lakin Violanı görərkən bu həyat hissi, bu məhəbbət duyğusu onda coşub çağlayır. Məhəbbətin Oliviyanın qəlbinə gətirdiyi bu təbəddülatı, sənətkar aktrisa əla yaradır. Oliviya Hökümə xanımın ifasında cəsarətli, aktiv bir şəxsiyyətə çevrilir. Lakin bu cəsarət, bu aktivliklə yanaşı, Hökümə xanım Oliviyanın cazibədarlığını, məlahətini itirmir".

"Bu tamaşada komediyanın lirik axarı, Violanın, Hersoq Orsinonun və Oliviyanın romantik-xəyalpərvər mövzusu daha parlaq təcəssüm tapmışdır... Qurbanovanın Oliviyası böyük temperamenti, fəal məqsəd yönümü ilə fərqlənir. Eyni zamanda o, öz incəliyi, zərifliyi və gözəl davranışı ilə seçilir" (26).

"Bu yolda zəhmətə dözənlər, qeyrət göstərənlər, çox çalışanlar daha artıq nail olurdu. Hökümə Qurbanova-Oliviya çox nail olanların sırasında istedad və əməksevərlik timsalı kimi yadımda qalmışdır...

... Barat xanım və Hökümə xanım bu tamaşada əlbəttə, daha artıq müvəffəq olmuşdular. Halbuki mürəkkəbliyinə görə Viola və Oliviya rolları daha çətindir...

Oliviya-Hökümə xanımın tamaşadakı ilk çıxışı eyni zamanda həm rəsmi-təntənəli, həm də təmkinli və sadə idi. O, aşağı mərtəbədən (orkestrdən) ağır və ahəstə addımlarla xanımların və qaraqulun müşayiəti ilə yavaş-yavaş səhnəyə qalxır, otağın ortasında ayaq

saxlayıb uzun sükuta dalır, burda qalacağına qərar verir kimi rübəndini qaldırır və öz kreslosunda əyləşir. Hərəkətsiz halda əvvəl əlindəki incilə, sonra isə uzaqlara bir nöqtəyə baxırdı. Bu oturuş, baxış bu qara libas, dalğın çöhrə, dizlərin üstündə çarpazlaşaraq kiçik incili sıxan bəyaz əllər mahir rəssam fırçası ilə işlənmiş şəkilə bənzəyirdi. Daha dəqiq deyilsə, Oliviya rolunda Hökümə xanım özü intibah rəssamının tablosundan düşmüş bir gözəli andırırdı. Bu kədərli əhval, ibadət atributu qara cildli incil, qara paltar biri-birinə, onların hamısı isə Hökümə xanıma çox yaraşır, onu son dərəcə məlahətli və cazibədar göstərirdi" (16).

Qibtəyə layiq olan gözəllik simvoluna çevrilmiş Oliviya-Qurbanova sevmək, sevilmək üçün dünyaya gəlmiş olan bu incə məxluq hər bir eşqə və məhəbbətə layiq idi.

"... Oliviya obrazı Hökümə xanımın yaradıcılığında irəliyə doğru atılmış mühüm bir addım oldu...

Bizim Azərbaycan tamaşaçıları həqiqətən fəxr edə bilərlər ki, qabaqcıl aktrisamız Hökümə xanım başqa respublikalarda da yalnız öz sənətkarlığına deyil, bütün Azərbaycan teatrına şan və şöhrət qazandırır...

O, Oliviyanın düşdüyü mürəkkəb vəziyyətləri, dərin psixoloji momentləri düzgün yaşayır və tamaşaçıları da bu hisslərlə yaşadır. Qardaşının ölümü münasibəti ilə yas saxlayan Oliviya ilə sevən Oliviyanın arasında nə qədər kəskin, nə qədər dərin fərq vardır! Bu çətin, mürəkkəb keçidləri addım-addım tamamlamaq, bunları inandırıcı bir şəkildə yaratmaq və beləliklə tamaşaçını yeni konfliktə, yeni vəziyyətə hazırlamaq məsələsini Hökümə xanım ustalıqla həll edir.

Aktrisamızın hər vəziyyətin öz daxili ritmini tapmaq məharəti həyəcanlarda, hərəkətlərdə, danışıq tərzlərində təzahür edir" (8).

On səkkiz şəkildən ibarət olan bu tamaşada Oliviya-Qurbanova cəmi altı şəkildə görünürdü. Tamaşada az görünməsinə baxmayaraq Oliviya-Qurbanova səhnədə baş verən hadisələrdə iştirak edirdi.

Dəqiq işlənmiş bu komediyada lirik-romantik xətt-Orsino – Ə. Sultanov, Oliviya-H. Qurbanova, Viola-B. Şəkinskaya son dərəcə maraqlı və incə idilər.

1947-ci il iyul ayının 19-da İ. Əfəndiyevin “İşıqlı yollar” pyesi A. İsgəndərovun quruluşunda tamaşaçılara təqdim olundu. Rejissor bu tamaşada Gülarə obrazını H. Qurbanovaya tapşırdı.

“Teatra mövzu təzəliyi, dramaturji üslub yeniliyini, psixoloji realizmi, müasir obrazlar toplusunu İlyas Əfəndiyev “İşıqlı yollar” dramı ilə gətirdi. Tamaşanın quruluşçu rejissoru Adil İsgəndərov pyesdəki təzəlik nəfəsini tamaşada ustalıqla saxlaya bilmişdi. “İşıqlı yollar” tamaşası ilə Akademik teatr realist psixoloji üslubun açıq formasının başlıca prinsiplərini bəyan etdi. Bu üslub altmışıncı illərdə təşəkkül tapan lirik-psixoloji üslubun müəyyən mənada təməli oldu” (19).

“Əsərdə mühəndis Gülarə rolunu istedadlı aktrisa Hökümə Qurbanova ifa edirdi. O, açıq fikirli, siyasi cəhətdən yetişmiş, möhkəm iradəli gənc ... qızın obrazını yaratmağa müvəffəq oldu” (17).

Bu tamaşada Hökümə xanım Gülarənin Elmara olan münasibətini düzgün göstərməyə çalışmış və buna nail olmuşdur. Aktrisa sevgi xəttini incə boyalara rəsm etdirirdi.

M. Hüseyn “Kommunist” qəzeti (30.07.1947) yazır ki; “Gülarənin rolunu ifa edən Hökümə Qurbanova bu surəti bütöv göstərməyə müvəffəq ola bilmişdir, yəni o, Gülarəni əvvəldən axıracan eyni ahəngdə, təbii və sadə bir şəkildə inkişaf etdirir. İncə, psixoloji ştrixlərə xüsusi fikir verən Qurbanova, səhnədə özünü sərbəst hiss edir və yalnız aydın tələffüzlə kifayətlənməyib, xəsis, lakin ifadəli hərəkətlər də seçməyi bacarır. Bunu biz ən çox altıncı şəkildə, Gülarə Səlimlə Elmar haqqında söhbət edərkən daha aydın görürük”.

H. Qurbanovanın ifası təbiiliyi ilə diqqəti cəlb edirdi. Hökümə xanım obrazı əvvəldə sonadək eyni ritmlə, inandırıcı və sadə bir formada inkişaf etdirmiş, nəticədə dolğun bir obraz meydana gəlmişdir.

1947-ci il noyabr ayının 7-də A. İsgəndərov quruluşunda Ə. Məmmədxanlının “Şərqin səhəri” pyesi tamaşaya qoyuldu, H. Qurbanovada Nataşanı ifa etdi.

“Tamaşada Əjdər Sultanov (Bəhruz), Barat Şəkinskaya (Dilarə), Mərziyə Davudova (Ana), Əminə Sultanova (Nazlı), Hökümə

Qurbanova (Nataşa), Kazım Ziya (general Tomson) və digər aktyorlar da canlı, həyati surətlər yaradırdılar" (13).

H. Qurbanovanın ifasında Nataşa tamam başqa bir obrazdır. Bu obraz xarakterinə görə Hökümə xanımın əvvəl yaratdığı obrazlara bənzəmir. Aktrisanın ifa etdiyi Nataşada vətənə məhəbbət və əqidə də azadlıq əsas meyar idi.

"Rus qızı Nataşa-Hökümə Qurbanova Azərbaycanı Azərbaycanın övladı kimi, doğma torpağı kimi sevir, onun yolunda ağrıya, əzaba, məhrumiyyətlərə dözür, ən qorxulu vaxtda cəsarətli görünür, fədakarlıq nümunəsi göstərirdi. Aktrisanın çadraya bürünmüş halda səhnəyə ilk gizli gəlişi, dənizdə ingilis katerləri ilə vuruşma haqqındakı həyəcanlı nağılı, neçə günün müddətindəki aclıqdan, yorğunluqdan sonra burda özündən bixəbər dərin yuxuya dalması tamaşanın ən gözəl, dramatik epizodlarından biri hesab edilə bilər" (16).

H. Qurbanovanın Nataşası Fərhadı (bu rolu xalq artisti Rza Əfqanlı ifa edirdi) dərin məhəbbətlə sevən insan idi. Nataşa-Qurbanova və Fərhad-Əfqanlı bir-birini ağır döyüş imtahanlarında, hər an ölüm təhlükəsi olan mühitdə sevmişdilər. Bu pak məhəbbətə sevinc və xoşbəxtlik hakim idi.

Hökümə Qurbanova rola düzgün yanaşırdı, obrazın daxili aləminə nüfuz edirdi, onu təhlil etməyi bacarırdı. O, sadəcə müəllifin yazdığı mətni əzbərləyib, tamaşaçıya diktə etmirdi, hər sözün mənasını, məğzini, məqsəd və hədəfini müəyyənləşdirməyi bacarırdı. Bundan sonra aktrisanın dramaturqdan, rejissordan, rəssamdan tələbi meydana gəlirdi. Obrazı hər tərəfli mənimsəməklə, yaratdığı qəhrəmanın tərcüməyi halını mənimsəməklə qane olmurdu. O, bütün əsərin təhlilinə önəm verirdi, onu yaradıcılıq süzgəcindən keçirirdi. Hər hansı bir obrazı gözəyarı hazırlamaq Hökümə Qurbanova yaradıcılığına zidd idi. Bu görkəmli sənətkar səhnəyə nəyə görə çıxdığını, hansı sözü harda və hansı mizandan sonra dediyini yaxşı bilirdi. Nəticədə aktrisanın ifa etdiyi hər hansı bir obraz bitkin sənət nümunəsinə çevrilirdi. Aktrisanın obraza bu cür münasibəti olmasa idi, onun oyunu tamaşa boyu bu qədər müvəffəqiyyətli alın-

mazdı. Hökümə xanım obrazı nöqtə-nöqtə təhlil etməsi, tamaşanın uğur qazanmasında həlledici rol oynayırdı.

1948-ci il martın 6-da Amerika yazıçıları Ceyms Qou və Arno D'Nyussonun "Dərin köklər" əsəri tamaşaya qoyuldu (tərcümə S. Rüstəm, quruluş M. Haşımov və S. Turabov).

Müasir imperialist Amerikasının mənfur irq siyasətini, qərb burjua demokratiyasının riyakarlığını ifşa edən "Dərin köklər" tamaşası da teatrın bu illərdə gördüyü müvəffəqiyyətli işlərindəndir" (2).

Bu tamaşada dövlətli senator Lenqdonun qızı Cenevrə obrazı Hökümə Qurbanovaya tapşırıldı. Cenevrə-Qurbanova zənci Çarlz Brettini müdafiəsinə qalxır, onu təmiz məhəbbətlə sevir.

"Ədəbiyyat" qəzeti (19.03.1948) yazır ki; "Hökümə Qurbanovanın yaratdığı bu gözəl gənc qız surəti, əlbəttə, istedadlı aktrisanın ən yaxşı rollarından biridir".

H. Qurbanovanın ifasında Cenevrə Brettini saf məhəbbətlə sevən, mehriban, təmiz ürəkli bir qız idi. "Onlar tamaşada zənci Brettin (İ. Dağıstanlı) senator Lenqdonun qızı Cenevrənin (H. Qurbanova) məhəbbəti ucundan çəkdiyi iztirabları çox bədii və təsirli bir şəkildə şərh etmişdilər" (18).

Tamaşada hadisələrin eyni məkanda cərəyan etməsinə baxmayaraq, rejissorlar ağ dərili, qara vicdanlı Amerika sahibkarlarının zəncilərə bəslədiyi nifrəti, irqçilik siyasətinin acı nəticələrini patetik vüsətlə canlandırmağa müvəffəq olmuşdular. H. Qurbanovanın (Cenevrə), R. Əfqanlının (senator Lenqdon), İ. Dağıstanlının (Çarlz Brett) böyük peşəkarlıqla canlandırılmış, arzu və mübarizələri ilə bir-birindən seçilən obrazları böyük emosional təsir qüvvəsinə malik idi.

Məhərrəm Haşımov və Səftər Turabov tərəfindən hazırlanmış bu gözəl tamaşada Mərziyə Davudova, Hökümə Qurbanova, Fatma Qədri, Rza Əfqanlı, Mirvari Novruzova, Əjdər Sultanov kimi sənətkarlar da iştirak edirdilər. Teatr ictimaiyyətinin və mətbuatın yüksək qiymətləndirdiyi bu səhnə əsəri teatrın müharibədən sonrakı dinc quruculuq dövrünün ilk illərində hazırladığı böyük ideya-estetik dəyərə malik bir tamaşa idi" (22).

Tamaşanın əvvəlində H. Qurbanovanın ifa etdiyi Cenevrə yumşaq təbiətli, sadə, nisbətən şıltaq, ərköyün əsil varlı ailəsinə məxsus insan kimi görünürdü. Hadisələr dinamik inkişaf etdikcə tamaşaçılar Cenevrə-Qurbanovanın mənəviyyatındakı inkişafın, onun daxili məninin şahidi olurdu.

“Höküme Qurbanova pak, cəsur bir məhəbbətlə sevən və açıq ürəkli qız Cenevrə surətini... duyaraq yaradırdı (13).”

“Cenevrə-Hökümə xanım qara Bretti belə insani ülfətlə, belə dəruni məhəbbətlə sevməklə bizim nəzərimizdə yüksəlir. Çünki bu məhəbbət təkcə hiss, ehtiras deyil, o həm də idrak və iradə təzahürüdür. Böyük cəsarət və mərdlik əlamətidir. Aktrisa öz obrazını sevgi prizmasından keçirib idrakın yüksək mərtəbələrinə qaldırır. Biz ona baxdıqca quduz, vəhşi qanunlar üstündə qərar tutmuş bu cəmiyyətdə ağıl və zəka odunun sönmədiyinə, düzlüyün, ədalətin son qələbəsinə inanmaq istəyirik. Bu inamı doğurmaq aktrisanın ali məqsədinə çevrilir. Bunun naminə Cenevrə-H. Qurbanova dərin təəssüratla, dramatik yaşantı ilə yaşayır, böyük iztirablardan keçir, böyük sevinclə sevinir. Tamaşanın sonunda ata evini tərk edib Brettin sorağınca gedəndə biz onun çətin, əzablı, qorxulu səfərə çıxdığını bilirik. Eyni zamanda biz onun bu cəsarətinə, qətiyyətinə heyran olur, onun ümidlərinin doğulacağına inanırıq, böyük ümid bəsləyirik” (16).

Hökümə Qurbanovanın ifa etdiyi Cenevrə teatr tarixində hadisəyə çevrilmiş obrazlardan biridir. Aktrisanın teatr tarixində yerini möhkəmlətmək üçün bir zəmin idi.

1948-ci il aprelin 4-də M. Məmmədovun quruluşunda A. Fadeyevin “Gənc qvardiya” əsəri Q.Qrakov səhnələşdirildi və Valya Bors obrazını səhnədə Hökümə xanım canlandırdı.

Hədindən artıq obrazları çox olan belə əsərə səhnə həyatı vermək, şübhəsiz ki, rejissordan böyük bacarıq tələb edirdi. Mehdi Məmmədov bu vəzifəni asanlıqla dəf etdi.

M. Arif “Kommunist” qəzetində (12.05.1948) yazır ki; “Əsərin ilk səhnəsindən başlayaraq tamaşaçıların qabağından xasiyyətcə bir-birinə az oxşayan, lakin bir tale ilə yaşayan qızlar və oğlanlar

gəlib keçir. Onlar sevir, sevilir, gülür, ağlayır, əzab çəkir, düşünür, qələbə çalır, həbs olunur, ruhdan düşmürlər. Müharibə sınağından çıxan gənclərlə yeni keyfiyyətlər, gözəl xasiyyətlər, yüksək fikirlər, təmiz duyğular, nəcib meyllər meydana çıxır... Qızlardan Valya Bors (H. Qurbanova), Nina İvanovna (S. Bəsirzadə), Klava Kavalyova (S. Hacıyeva) və başqalarının fərdi xüsusiyyətləri, istək və arzuları olmaqla bərabər hamısı bir hisslə yaşayır, bir məqsəd uğrunda çarpışır. Ən sevindirici hal orasıdır ki, bütün üzvlərdə gənclik təravəti, nikbinlik, təmiz mənəviyyatın xoş ifadəsi oxunur".

Valya Bors həcm etibarı ilə böyük rol deyil. Hökümə Qurbanovanın mükəmməl ifası nəticəsində bu obraz əsas qəhrəmanlar səviyyəsinə qalxa bildi. Aktrisa bu obrazı diqqət mərkəzində saxlamağa nail oldu.

1948-ci il dekabr ayının 11-də İlyas Əfəndiyevin "Bahar suları" dramı A. İsgəndərovun quruluşunda tamaşaya qoyuldu.

"Psixoloji realizm istiqamətində Adil İsgəndərovun növbəti uğurlu addımı "Bahar suları" tamaşası oldu. Şəfəq (Hökümə Qurbanova), Alxan (Ələsgər Ələkbərov), Uğur (İsmayıl Dağıstanlı) səhnədə təzə, təravətli və canlı obrazlar idi" (19).

"Real əmək şəraitini canlı surətdə təsvir edən bu tamaşa həyat konfliktlərinin mahiyyətini və kolxoz kəndi adamlarının apardığı mübarizənin konkret məzmununu aşkara çıxarır.

Bunu biz tamaşanın əsas qəhrəmanlarının – Alxan, Uğur, Səadət, Turac, Mədəd və Şəfəqin obrazlarını yaradan aktyorların oyununda çox inandırıcı surətdə görürük. Bu aktyorlar öz vəzifələrini dərindən duyduqlarından, obrazın ən mühüm cəhətlərini aydın göstərməyə ... müvəffəq olurlar" (3).

M. Arif "İnqilab və mədəniyyət" jurnalında (1949, № 3, səh. 130) yazır ki; "Aktrisa Hökümə Qurbanova Şəfəq rolunda özünü vüqarla aparır. Dörd illik müharibə Şəfəqi mətin və iradəli bir qız kimi tərbiyə etmişdir. Aktrisa ürəyindəki məhəbbət odunu söndürməyə çalışan bir iş adamı rolunu təmkinlə oynayır".

"Aktrisanın "Bahar suları" tamaşasında oynadığı Şəfəq bədii obraz kimi daha yetkindir. Pyesdə əsasən kənd təsərrüfatından, onun

iqtisadi təşkilatı məsələlərindən bəhs olunur. Amma əxlaq-mənəviyyat məsələlərinə, iştirakçıların arasındakı şəxsi münasibətlərə də çox yer verilir. Şəfəqin isə səhnə həyatı, demək olar ki, əsasən onun şəxsi həyatına, Uğurla onun dolaşıq, mürəkkəb münasibətlərinə həsr olunur. Lakin aktrisa burdakı birtərəfliliyin, bu dəfəki çətinliyin öhdəsindən gəlməyə müvəffəq olur. Tamaşaçı onun daxili, şəxsi yaşantılarını görüb duymaqla bərabər onun haqqında bir memar-mühəndis kimi də kifayət qədər təsəvvür ala bilir. Lakin aktrisanın həmin roldakı nailiyyəti bununla bitmir. O, Şəfəqi yalnız peşə, yalnız ixtisas əlamətlərinə görə yox, insani keyfiyyətlərinə görə fərdiləşdirir və bayaqkı rolundan tamam fərqləndirir. Gülarə ("İşıqlı yollar" əsərindəki Gülarə nəzərdə tutulur-İ.A.) və Şəfəq zahirən bir-birinə bənzəyirlər. Aktrisanın öz yaraşığı, yapışığı, gözəlliyi, məlahəti hər iki rolda duyulur, görünür. Amma bununla belə daxili xarakter cizgilərinə görə onlar fərqlidirlər. Şəfəq Gülarəyə görə daha canlıdır, istiqanlıdır, təmkinli olsa da ünsiyyət, ülfət axtarandır. Nəhayət, o, müəyyən mənada cəfakeşdir. Biz onu səhnədən-səhnəyə belə tanıyır, tamaşanın sonunda, Şəfəqin Səadətlə son dialoqunda isə onun belə olduğuna şəksiz inanırıq" (16).

Beləliklə, Hökümə Qurbanova Şəfəq obrazı ilə dinc-quruculuq dövründə fəaliyyət göstərən insanların ümumiləşmiş surətini yarada bilmişdir.

Akademik Milli Dram Teatrı 1930-cu il Olimpiyadasından sonra ikinci dəfə 1948-ci il avqust ayının 20-dən sentyabr ayının 5-nə qədər özünün 75 illik yubileyi ilə əlaqədar Moskva şəhərinə dəvət olundu. Teatrın yaradıcı kollektivi qastrol müddətində S. Vurğunun "Vaqif" (20;25;3;5), C. Cabbarlının "1905-ci ildə" (27;31), Ə. Məmmədxanlının "Şərqin səhəri" (21;29;2;4), İ. Əfəndiyevin "İşıqlı yollar" (24), V. Şekspirin "On ikinci gecə" (23;30), A. Ostrovskinin "Tufan" (22;28) və "Günahsız müqəssirlər" (26) tamaşalarını ifa etdilər.

Hökümə Qurbanova Moskva qastrolu zamanı "Şərqin səhəri"ndə Nataşa, "İşıqlı yollar"da Gülarə, "On ikinci gecə"də Oliviya obrazlarını səhnədə canlandırdı.

"Tamaşalarımız V. İ. Hemiroviç-Dançanko adına teatrda gedirdi. Qastrolların başlandığı gün, 1948-ci il avqustun 20-də "Pravda", "İzvestiya" və "Veçernyaya Moskva" qəzetlərində məqalələr dərc olunmuşdu. Məqalələrdə teatrımızın ... nailiyyətlərindən ayrı-ayrı aktyor və rejissorlardan yaradıcılığından və teatrımızın qarşıdakı 75 illik yubileyindən danışıldı.

Moskvada 15 (16 – İ.A.) tamaşa verdik. Tamaşalar müvəffəqiyyətlə keçirdi. Ümumittifaq Radio Komitəsi bizim çıxışlarımızı lentə yazıb, efir vasitəsi ilə bütün dünyaya verirdi. Mənim və Oliviyanın gözəl ifaçısı H. Qurbanovanın oynadığı səhnə də lentə yazılmışdı" (17).

Teatrın yaradıcı heyətini moskvalılar böyük maraq və alqışlarla qarşıladılar. O dövrün mərkəzi qəzet və jurnallarında ("İzvestiya", "Trud", "Sovetskoe iskustvo", "Pravda", "Veçernyaya Moskva", "Komsomolskaya pravda", "Teatr", "Oqonyok") tutarlı məqalələr çap edildi və teatr mütəxəssislərinin iştirakı ilə diskussiyalar keçirildi.

"Həm lirik, həm də qəhrəmanlıq kefiyyətlərini ifadəli bir şəkildə oynayan, müasir ... qadın surətlərini yaxından duyaraq yüksək mədəni bir səviyyədə yaradan Hökümə Qurbanova Moskva qastrolu zamanı bəyənilən və təqdir olunan Gülarə, Oliviya, Nataşa surətlərindən başqa, səhnəyə gəldiyi qısa müddət ərzində Vəfa, Həcər, Zeynəb, Məryəm, Fəridə, Sürəyya, Solmaz, İnci, Afaq, Şəfəq və sairə bədii cəhətdən mükəmməl surətlər yaratmışdır" (2).

1949-cu il fevralın 5-də Mehdi Məmmədov "On ikinci gecə" dən sonra ikinci komediyaya S. Rəhmanın "Aydınlıq" əsərinə quruluş verdi və Fəridə rolunu H. Qurbanovaya tapşırdı.

"Bu ifa həqiqətən ciddi axtarışların, axtarıb tapmaq şövqünün nəticəsi, gerçəkliklə bədii yaradıcılığın birgə məhsulu idi. Aktrisa iki cəhəti, iki keyfiyyəti Fəridənin sifətində daxilən, üzvi surətdə, təbii tərzdə uzlaşdıra bilirdi. O, kənd qızlarının sadəliyi, məsumluğu ilə müasir kənd qadınının işgüzarlığını, iş hünərini və cəsarətini öz surətində birləşdirirdi. Bu peyvənd Fəridə obrazına xüsusi bir yapışıq verir, onun zahiri göyçəkliyi ilə daxili gözəlliyi arasında xoş ahəng yaradırdı. Bu gözəlliyi görən, duyan tamaşaçı Fəridənin hamı

tərəfindən tərif olunduğuna təəccüb eləmirdi. Yaxud çox cavanların onda gözü olduğuna heyrətlənmirdi. Tamaşaçı Azər və Səlim kimi bir-birinə bənzəməyən, əks xasiyyətli adamların Fəridəyə eşq yetirməsini də mümkün və təbii görürdü. Fəridə-Hökümə Qurbanova səhnədə iştirakçıların, salonda isə tamaşaçıların sevimlisi ola, hamının rəğbətini qazana bilirdi" (16).

Hökümə xanımın ifa etdiyi kolxoz briqadiri Fəridə Ziynət və İnci obrazlarından sonra S. Rəhmanın dramaturgiyası ilə üçüncü görüşü idi. Fəridənin "Toy" komediyasındakı Ziynətə müəyyən oxşarlığı var. Lakin fərqli cəhətləri də vardır. Bu obrazda şəxsi hisslər, cərəyanlar, daxili təlatüm qüvvətli idi. H.Qurbanova sadə kənd qızı, briqadir Fəridənin dolğun obrazını dəqiq tapmış və düzgün yaratmışdır.

1949-cu il aprelin 8-də A. Boryanovun "O tayda" əsəri Ə. Şərifovun quruluşunda səhnələşdirildi və Hökümə xanıma Valentina (Valya) Nikolayeva obrazı tapşırılırdı.

Böyük Vətən müharibəsi mövzusunda olan bu uğurlu tamaşadakı hadisələr Mancuriyada cərəyan edirdi. Dava ordular arasında yox keçmiş sovet və Yapon kəşfiyyatçıları arasında baş verirdi. H. Qurbanovanın ifa etdiyi kəşfiyyatçı Nikolayeva son dərəcə mürəkkəb obraz idi. Nikolayeva-Qurbanova düşməni qabaqlayırdı, çox çətin bir şəraitdə məxfi sənədləri ələ keçirirdi. Vəziyyət gərginləşdikcə aktrisanın işi getdikcə ağırlaşırdı. Nikolayeva-Qurbanova hər an təhlükələrlə rastlaşır, hər hansı bir əmri yerinə yetirmək üçün ölümlə üz-üzə qalırdı. Aktrisa bu gərgin səhnələri son dərəcə təmkinlə, soyuqqanlılıqla tamaşaçılara təqdim edirdi.

1949-cu il iyul ayının 21-də və 22-də Akademik Milli Dram Teatrının 75 illiyinin möhtəşəm yubileyi bayram edildi. Kollektivin aparıcı aktyor və aktrisaları fəxri adlara layiq görüldülər. Bu bayram münasibətilə Hökümə Qurbanova Şərəf nişanı ordeni ilə təltif olundu.

1949-cu il dekabrın 4-də rejissor Səftər Turabov quruluşunda Tur qardaşlarının "Bir evin sirri" əsəri tamaşaçılara təqdim olundu və Yeva Qrantın rolunu Hökümə xanım ifa etdi.

“Kommunist” qəzeti (17.12.1949) yazır ki; “Aktrisa Hökümə Qurbanova da bu surəti daxili məna və qüvvə ilə ifa edir. O, Yevanın dəyişilməsini, onun daxili aləminin zənginləşməsini, ürəyində yaranan üsyan və etiraz hisslərini böyük incəliklə tamaşaçıya təqdim edir”.

Bu tamaşa müharibədən sonra soyuq müharibə aparanları ifşa edirdi. Moskvada yaşayan Amerika səfirliyində çalışanlar məhz bu cür siyasət irəli sürürdülər. Onlar burada yenicə işə başlamış Yeva Qrant-Qurbanovanı özlərinə tərəf çəkmək istəyirlər, lakin buna nail ola bilmirlər. Aktrisa burada müsbət Amerika vətəndaşı obrazını yaratmağa müvəffəq olmuşdur.

“Yeva-Hökümə Qurbanova tamaşa boyunca bir tərəfdən özünün işlədiyi səfarətxanada xalqlar arasında şübhə və ədavət toxumu səpən Amerika diplomatlarının iç üzünü görür, digər tərəfdən, Moskvada yaşayan sadə sovet adamlarının dinc-quruculuq şəraitində yalnız sülh arzusu, dostluq niyyəti ilə yaşadıqlarının şahidi olur. Aktrisa bu ikitərəfli müşahidəni, düşdüyü təzadlı vəziyyətləri ardıcıl müqayisə yolu ilə başa çatdırdıqca tamaşaçı da Yeva Qrantın şübhələrdən çıxıb inamlı sülh mübarizinə çevrildiyinin, bir xarakter, bir şəxsiyyət kimi təkmilləşdiyinin şahidi olur. Bunun isə təkcə bu obrazın təcəssümü üçün deyil, həm də tamaşanın ümumi ideya təcəssümü üçün əhəmiyyəti böyükdür” (16).

Tamaşada Yeva Qrant əsas personaj olmaqla yanaşı, qüvvətli bir obrazdır. Hökümə xanım bu obrazı böyük sənətkarlıqla tamaşaçılara təqdim edə bildi.

1950-ci ildə may ayının 12-də C. Məcnunbəyovun “Böyük məhəbbət” pyesi Ə. Ələkbərovun quruluşunda tamaşaya qoyuldu və Sevda rolunu H. Qurbanova canlandırdı. Tamaşa həm dramaturq və həm də rejissor tərəfindən qüsurlu hazırlanmışdır. Lakin buna baxmayaraq Hökümə xanım böyük istedadının müqabilində bu obrazı ifa etdi.

M. Arif “Ədəbiyyat və incəsənət” qəzetində (08.06.1950) yazır ki; “Canlı bir insan olaraq həkim Sevda (Hökümə Qurbanova) müvəffəqiyyətlidir. Onu biz istər məişət, istərsə istehsalat planında

yaranmış səhnələrdə ətraflı görürük, onu yüksək şüurlu zəngin mənəvi aləmə malik, qüvvətli, iradəli bir qadın kimi tanıyırıq”.

“Gənc Azərbaycan aktrisalarının ən yaxşı nümayəndələrindən biri Hökümə Qurbanovadır. Onun gözəl səhnə qabiliyyəti vardır. Qısa müddət içərisində o, gənc ... qızların bir çox maraqlı və xatırda qalan obrazlarını yaratmışdır. Onun qəhrəmanlarının çox sadə və aydın tərcümeyi-halı vardır... Prokuror Vəfa (“Vəfa”), həkim Süreyya (“İntizar”), mühəndis Gülarə (“İşıqlı yollar”), mühəndis Şəfəq (“Bahar suları”) belə qəhrəmanlardandır. Bunlar əsl həyata indicə qədəm qoymuşlarsa da, fikirləri açıq, siyasi şüurları yetkin, ictimai vəzifə anlayışları dərindir. H. Qurbanovanın qəhrəmanları, əksərən, qüvvətli və iradəli adamlardır; xarakterçə möhkəm, köhnəliyə və mühafizəkarlığa düşməndirlər. Həm lirika, həm də qəhrəmanlıq keyfiyyətlərini ifadəli bir şəkildə canlandıran H. Qurbanova öz oyunu ilə inandırır ki, onun qəhrəmanları yeni adamlardır, onların ayrıca, “xüsusi” həyatı, qapalı şəxsi aləmləri yoxdur, istər sevinc, istərsə də əzablı dəqiqələrdə onlar tənhalıq hiss etmirlər. Onlar daxilən zəngin və yeni adamlardır. Bu adamların hiss və arzularını H. Qurbanova təbii və sadə bir şəkildə ifadə edir” (3).

Görkəmli səhnə ustası Hökümə Qurbanova 1951-1955-ci illərdə C. Cabbarlının “Od gəlini” faciəsində Solmaz (rej. Ə. Şərifov, 20.03.1951); Ə. Məmmədxanlının “Od içində”pyesində Reyhan (rej. A. İsgəndərov, 05.05.1951); M. Təhmasibin “Çiçəklənən arzular” əsərində Nərgiz (rej. M. Məmmədov, 13.06.1951); H. Muxtarovun “Ailə namusu”nda Zina (rej. T. Kazımov, 30.10.1951); K. Haldoninin “Məzəli hadisə” komediyasında Janniana (tərcümə S. Rəhman, rej. T. Kazımov, 04.01.1952); A. Şirvanzadənin “Namus” əsərində Süsən (rej. A. İsgəndərov, 17.05.1952); A. Qəhharın “İpək naxışlar”ında Hafizə (tərcümə C. Məcnunbəyov, rej. Ə. Şərifov, 20.09.1952); S. Vurğun “Fərhad və Şirin” mənzum dramında Məryəm (rej. A. İsgəndərov, 06.10.1952); N. Hikmətin “Türkiyədə” əsərində Xətcə (çevirəni Ə. Babayev, rej. A. Isgəndərov, 20.03.1953); S. Rəhmanın “Nişanlı qız” komediyasında Bənövşə (rej. A. İsgəndərov, 11. 12. 1953); M. İbrahimovun “Həyat” dra-

mında Həyat (rej. A. İsgəndərov, 11.09.1954); İ. Əfəndiyevin "Atayevlər ailəsində" pyesində Lətafət (rej. T. Kazımov, 09.10.1954); C. Cabbarlının "1905-ci ildə" dramında Sona (rej. A. İsgəndərov, 29.01.1955); V. Şekspirin "Qış nağılı"nda Germiona (tərcümə T. Əyyubov, rej. Ə. Şərifov, 22.10.1955) kimi müxtəlif xarakterli mürəkkəb obrazlar qalereyası yaratmışdır.

1951-ci il mart ayının 20-də C. Cabbarlının "Od gəlini" faciəsi beşinci dəfə tamaşaya qoyuldu. 1928-1939-cu illərdə (16.02.1928, rej. A. Tuqanov; 18.12.1930, rej. A. Tuqanov və Ə. Əliyev; 02.12.1933, rej. S. Mayorov və Ə. Tiriniç; 29.09.1939, rej. İ. Hidayətzadə) "Od gəlini" faciəsi dörd dəfə tamaşaya qoyulmuş, böyük müvəffəqiyyət qazanmışdır. On iki il sonra yəni 1951-ci ildə rejissor Ə. Şərifov bu əsərə müraciət etdi və Solmaz obrazını Barat Şəkinskaya ilə Hökümə Qurbanovaya tapşırdı. Azərbayacan teatrında Solmaz rolunun böyük ifaçıları olub. 1928-ci ildə Solmazı-M. Davudova, Y. Olenskaya, S. Hacıyeva; 1930-cu ildə S. Hacıyeva, Y. Olenskaya; 1933-cü ildə M. Davudova, S. Hacıyeva, Y. Olenskaya; 1939-cu ildə F. Qədri, H. Qurbanova kimi sənətkarlar ifa ediblər.

Ə. Şərifovun quruluşundakı "Od gəlini" əvvəlki quruluşlardan fərqli olaraq müvəffəqiyyət qazana bilmədi. Bu da rejissorun aktyorları düzgün seçməməsində idi.

Hökümə Qurbanovanın Solmazı haqqında mən bu kitabın birinci fəslində bəhs etmişəm. İndi də bəzi qeydləri etməyi özümə borc bilirəm.

H. Qurbanovanın ifasında Solmaz öz məhəbbətinə sadiq bir insan idi. Onun Solmazı məhkum qadın olmasına baxmayaraq, barmağında atəşgahın müqəddəs üzüyünü gəzdirən, daxilən azad bir insan idi.

"Hökümə Qurbanova Solmaz rolunu ... Barat Şəkinskaya kimi məharətli bir aktrisa ilə yanaşı, yaradıcılıq yarışı şəraitində oynamışdır. İki aktrisanın yaradıcılıq siması, sənətkarlıq xüsusiyyətləri arasındakı fərq, əlbəttə, bu rolun hazırlanma prosesində, ifasında özünü göstərməyə bilməzdi. Buna görədir ki, tənqidçi-teatrşünas Cəfər Cəfərov "Od gəlini" faciəsinin həmin beşinci quruluşuna həsr elə-

diyi məqaləsində iki Solmaz haqqında söhbət açır. O, bu tamaşanı bütünlükdə qənabəbəxş hesab eləməsə də ayrı-ayrı ifaçıların, o cümlədən “iki Solmazın” ifasındakı müvəffəqiyyəti və kəsirləri göstərir, xüsusilə onların arasındakı ifa fərqlərini aşkarlayır. Solmaz-Hökümə Qurbanova tənqidçinin müşahidəsinə görə “qəhrəman təbiətli bir qızdır və onun xarakterinin başlıca xüsusiyyəti fədakarlıqdır”. Tənqidçinin fikrincə aktrisanın ifasında Solmazın sevgi mövzusu da güclü təcəssüm tapır: aktrisa “sevən Solmazı səmimi və inandırıcı oynayır. O, Elxana bəslədiyi məhəbbətin müsibətlərlə bağlı olduğunu hiss edir, çünki o, həyata qarşı daha gözüaçıqdır, ətrafında baş verən vuruşların qara günlər gətirəcəyini başa düşür” .” (16).

Tamaşa boyu hadisələr cərəyan etdikcə Solmaz-Qurbanova daha fəal olur. Aktrisa öz ifası ilə faciənin nikbin ruhunu gücləndirir, tamaşanın poetikasını artırır.

“H. Qurbanova ... Solmaza daha yaxın bir surət yaradırdı. O, Solmazın məhəbbətini lirik boyalarla çatdırır, öz məhəbbətinin müsibətlərini də yaxşı duyurdu” (10).

Beş dəfə tamaşaya qoyulan “Od gəlini”nin iki quruluşunda (1939, 1951) Solmazı səhnədə canlandıran H. Qurbanovanın ifası tamaşaçıları mütəəssir etdi və obrazın taleyinin nə ilə sona çatacağını aktrisa maraqlı boyalar ilə tamaşaçılara çatdırdı.

1951-ci il may ayının 5-də Ə. Məmmədxanlının İran Azərbaycanında milli azadlıq hərəkatından bəhs edən “Od içində” pyesi A. İsgəndərovun quruluşunda tamaşaçılara təqdim olundu. Bu tamaşada Hökümə xanım ilk dəfə yaşlı qadını-ana obrazını Reyhanı yaratdı.

H. Qurbanova Azərin anası olan Reyhanı elə ifa edirdi ki, obraz səhnədən-səhnəyə inkişaf etdikcə yaş məsələsi də aradan qalxırdı.

“Ədəbiyyat” qəzeti (16.05.1951) yazır ki; “Reyhan-Hökümə xanım son səhnələrdə “təsirlidir, həyəcanlıdır, səmimidir”.

Aktrisanın ifasında Reyhan övladı Azəri və vətənini böyük məhəbbətlə sevirdi. Həm vətəni və həm də ovladı üçün həyəcan keçirən H. Qurbanova öz təbii və inandırıcı ifası ilə tamaşaçılarda vətənpərvərlik hissini aşılayırdı.

1951-ci il iyun ayının 13-də M. Təhmasibin "Çiçəklənən arzular" əsəri M. Məmmədovun quruluşunda tamaşaya qoyuldu və Nərgiz rolunu səhnədə Hökümə xanım canlandırdı.

C. Cəfərov "Bakinski raboçi" qəzetində (27.06.1951) yazır ki; "H. Qurbanova partorq Nərgizin cazibədar obrazını yaradır. Aktrisanın yozumunda Nərgiz açıq fikirli, möhkəm və cəsur xarakterli insandır. O həmişə sakitdir, inamlıdır, qarşıdakı məqsədi görür və kolxozçu kütləsini özü ilə bərabər həmin məqsədə doğru aparır".

H. Qurbanovanın ifa etdiyi Nərgiz həyata açıq baxan, sakit təbiətli, öz məqsədinə və məramına sadiq bir insan idi.

Akademik Milli Dam Teatrı iyul ayının 20-dən avqust ayının 22-nə qədər Özbəkistanda qastrolda oldu. Qastrolun açılışı iyul ayının 20-də axşam Həmzə Həkimzadə adına teatrda S. Vurğunun "Xanlar" mənzum dramı ilə son tamaşası isə avqust ayının 20-də Ə. Nəvai adına teatrda Ə. Məmmədxanlının "Od içində" pyesi ilə başa çatdı. Qastrol müddətində özbəklər C. Cabbarlının "Solğun çiçəklər" (23;25;2;11), "Sevil" (21;24;1;12) "Od gəlini" (21;24;26;1), S. Vurğunun "Vaqif" (27) və "Xanlar" (20;22;25), M. S. Ordubadinin "Dumanlı Təbriz" (3), S. Rəhmanın "Xoşbəxtlər" (30;31;3;4;14), "Aydınlıq" (7); Ə. Məmmədxanlının "Od işində" (28;29;5;10;20), İ. Əfəndiyevin "Bahar Suları" (2;9), V. Şekspirin "Otello" (6;8;13) tamaşaları Ə Nəvai teatrı, M. Qorki teatrı, H. Həkimzadə teatrı və s. yerlərdə göstərildi.

H. Qurbanova qastrol müddətində Solmaz, İnci, Fəridə, Şəfəq, Reyhan və başqa rolları ifa etdi.

1952-ci il mayın 17-də A. Şirvanzadənin "Namus" əsəri A. İsgəndərovun quruluşunda səhnəyə qoyuldu və Süsən rolunu H. Qurbanova ifa etdi. "Namus" romanı ilk dəfə 1885-ci ildə yazılmış və müəllifə geniş şöhrət gətirmişdir. Müəllif sonralar bu romanın əsasında eyni adlı pyes qələmə almış və bu əsər bir çox səhnələrdə uğurla tamaşaya qoyulmuşdur.

Xoşa gələn cəhət odur ki, müəllif romanı mexaniki olaraq səhnələşdirməmişdir. O, dram janrının bütün spesifik xüsusiyyətlərini yəni gərgin dramatik nüanslar, dolğun obrazlar, canlı dialoqlar, ha-

disələrin dramatik inkişafı fonunda əsl səhnə əsəri yaratmağa nail olmuşdur.

"Özünün başlıca yaradıcılıq üslubu olan romantik monumental səpgidə "Namus" (Aleksandr Şirvanzadə) tamaşası hazırlayan teatr pyesin indiyədək oynanılmış bütün quruluşlarından fərqli əsər meydana çıxarmışdı. Tamaşanın romantik ahənginin əsas daşıyıcıları Barxudar (Ələsgər Ələkbərov), Süsən (Hökümə Qurbanova), Seyran (Əli Zeynalov) obrazları idi. Quruluşçu rejissor Adil İsgəndərov həmin romantik ahəngdə səmimi və realist nəfəsli dialoqlar qurmuş, hərəkətə, səhnə dinamikasına rəvac verən pauzalardan məharətlə istifadə etmişdir" (19).

Aktrisa özü qeyd edir ki; "Mən uzun illər rejissor Adil İsgəndərovla işləmişəm. Rollarımın böyük bir qismini onunla hazırlamışam. O, aktyorla iş əsnasında sadə, səmimi, həqiqi kontakt yaratmağı bacarırdı. Xasiyyətindəki sərtliyə baxmayaraq onunla işləmək asan idi. Onu yarı sözdən, bəzən sözsüz də başa düşmək olurdu. A. İsgəndərov qurduğu səhnənin məğzini özü yaxşı duyduğu üçün məşq vaxtı ifaçı vəziyyətində, əhvalında olurdu. Fikirləri, onun davranışında, baxışında, mimikasında jestlərində görə, oxuya bilirdik... Yararlı təklifləri qəbul eləyirdi. Məşq zamanı təsadüf özü yaxşı bir hərəkət, orijinal bir səhnə mizanı doğururdusa, onu diqqətsiz buraxmırdı. "Namus" pyesinin son pərdəsi məşq olunurdu. Adətən Rüstəm öz arvadı Süsəni öldürmək səhnəsində "yaxanı aç!.. Göstər qara xalı!" deyə-deyə onun üstünə yeriyir. Süsən isə qorxub geri çəkilir. Mən məşq zamanı özümün də xəbərim olmadan görünür instinkt gücünə bu yerdə özüm Rüstəmə tərəf hərəkətə başladım (Mən günahsız olduğum üçün ondan qorxmurdum). Rüstəm-Əfqanlı isə xəncəri çəkə-çəkə geriləyirdi, öz cümləsini təkrar eləyirdi. Belə mizan rəsmində A. İsgəndərov yalnız orijinal yox, həm də təbiilik və həqiqət gördü və onu eynilə qəbul eləyib saxladı. O, təbii mizanları xoşlayırdı. Onların kanvasını tapan kimi, qalan təfsilatı və mənimsəmə, uyğunlaşma işini aktyorun öhdəsinə buraxırdı. A. İsgəndərov bir vəziyyəti, ya mizanı ta ifaçının özü daxilən duymayınca, inanmayınca qanunlaşdırmırdı" (16).

“Hökümə Qurbanovanın ifasında Süsən rolunun orijinal təfsiri daha tez oxunur, daha kəskin fərqlənirdi. Bunun ilkin səbəbi görünür ondan ibarətdir ki, “Namus” pyesinin bu son quruluşu və Adil İsgəndərovun rejissor təfsirinin özü əsərin əvvəlki quruluşlarından fərqlənirdi. Bu dəfə məhkum, məzlim məhəbbətin hicranı, hicran faciəsi ilk plana çəkilmişdi. Namis mövzusunun, anlayışının özü də bu faciə baxımından şərh edilir, etik kateqoriya kimi öz bədii-emosional şərhini Seyranın, xüsusilə Süsənin taleyi misalında tapırdı. Hökümə Qurbanovanın oynadığı ismətli, məsum, müti Süsən namus anlayışının təhrifinə, təhqirinə qurban gedən günahsız, müti bir qızdır. O, itaət etmək, tabe olmaq, dözmək, qarabaxtına qane olmaq və bəlkə bu cür fəlakətlərin, bəlaların sayını azaltmaq xəyalı ilə yaşayır, başqa çıxacaq görmür. Aktrisa özü etiraf edir ki, əgər Seyranla Rüstəmin Dağıstandakı görüşü olmasa idi, Süsən öz kəm taleyinə, çətin qismətinə qane olub mühit və dövran qarşısında aciz və əlacsız, ömrünü əzabla da olsa başa vurardı. Seyranı unutmazdı, zaman-zaman onu anar, hicranın, müsibətin səbəbini də təsəllisini də əlacsızlıqda görərdi” (16).

Tamaşada dramatik mübarizənin ana xəttini Süsənlə Seyranın faciəsi təşkil edir. “Əsərin lirik qəhrəmanları Süsən və Seyran rollarında Hökümə Qurbanova və Əli Zeynalov bu iki gəncin səmimi duyğularını, azad məhəbbət həsrətlərini ustalıqla, ilhamla tamaşaçılara çatdırmışlar” (22).

H. Qurbanovanın ifa etdiyi Süsən obrazında tamlıq, bütövlük var idi. Bu tamlıq və bütövlük aktrisanın ifasında məharətlə görünürdü.

M. Rəfili “Kommunist” qəzetində (23.03.1952) yazır ki; “Hökümə xanım Süsən rolunda gözəldir. Hələ ilk görüşlərindəki incə və mənalı dalğınlıq, öz sevgilisi yolunda çəkdiyi qorxu və müsibətlər üçün daxili, ruhi bir hazırlıqdır. Quşların azadlığına həsəd aparan, həyata məftun, məhəbbətə sadiq olan Süsən uşaq kimi müti, qul kimi əsirdir. Süsənin, Rüstəmin evində göstərdiyi itaətkarlıqda belə, böyük bir məsuliyyət və fədakarlıq vardır ki, insanı heyrətləndirməyə bilməz. Süsən iztirablara və faciəli ölümə məhkum bir qadın-

dır. Qadın məhkumiyyətini, pak və ismətli bir qadının sevgisini, ələmlərini, dərdlərini Hökümə xanım ilhamla, həqiqi səhnə sənətkarlığı ilə məharətlə ifa etməyə müvəffəq olmuşdur".

H. Qurbanovanın ifa etdiyi Süsən də bir cazibə, bir məlahət var idi. Süsən – Qurbanova bir yandan böyük məhəbbətlə sevən aşıq olmaqla yanaşı, digər tərəfdən çürük adət və ənənələrdə batıb qalmağa məcbur olan, ixtiyarı öz əlində olmayan təmiz qız surətini böyük sənətkarlıqla canlandıra bildi.

"Hökümə xanım Süsənin xəyalpərvərliyini, romantikliyini, ilk plana çəkdi. Hökümə xanım Süsənin kaman telləri kimi incə qəlbini, onun qəfəsə salınmış bir quş vəziyyətini ilhamla yaratdı. Süsən-Hökümə xanım çirkin adətlərə, insanı qula çevirən qanunlara qarşı etiraz etmək istəyir, lakin bunu bacarmır, onun etirazı zalım atası Barxudarın qəddarlığı qarşısında acizdir. Hökümə xanım, Süsənin dili ilə öz dərdini quşlara, buludlara, otlara, çiçəklərə söyləyir...

Budur, toy pərdəsi. Qonaqlar çalıb-çağırır, qədəhlər dolub-başalır, Sergey bəy (bu rolu xalq artisti Möhsün Sənani ifa edirdi-İ.A.) oxuyur, yengələr rəqs edir... Hökümə xanım-Süsən isə dinməz-söyləməz oturmuşdur. Onun xəyalpərvər gözləri uzaqlara, əngin fəzalara dikilmişdir. Lakin istedadlı sənətkarın bu lal duruşu, söylənən sağlıqlardan, oxunan mahnılardan, sürətli rəqslərdən daha güclüdür... O, bir baxışı ilə Süsənin varlığını, ürək çırpıntılarını qüvvətli bir monoloq kimi söyləyir, tamaşaçıları sarsıdır. Ürəyi dağ suları qədər təmiz olan Süsən-Hökümə xanım feodal dünyasının cansıxan qanunlarının məngənəsində çırpınmaqla hamının qəlbində dərin izlər buraxır. Bu dərin izlərin sirrini müəllifin realist qələmiylə bərabər, Hökümə xanımın məharətində, sənətkarlığında axtarmalıyıq" (8).

H. Qurbanovanın ifasında Süsən Barxudar, Rüstəm kimi insanların pəncəsində əzilən zavallı idi. Aktrisanın ifa etdiyi Süsəni qara qüvvələr içərisində nur saçan bir insan kimi tamaşaçılara təqdim edirdi.

"Süsənin faciəsi də onun həqiqi insan kimi yaşamağa çalışmasındadır. O, romantikdir. Bu gəncin xəyalları, coşqun arzuları vardır. Bu pak qəlbli nəcib qız feodal mühitinin məşəqqətləri içərisində

çürüyüb məhv olduğuna görə tamaşaçının qəlbində dərin bir iz buraxıb gedir. Əgər bunun birinci səbəbini A. Şirvanzadənin realist qələminin məhsulu olan Süsən obrazının daxili məzmununda axtarmaq lazımdırsa, ikinci səbəbini də istedadlı aktrisamız Hökümə Qurbanovanın müvəffəqiyyətlə yaratdığı obrazda axtarmalıyıq.

H. Qurbanovanın ifasındakı Süsən azadlıq həsrətilə çırpınan sadə, səmimi bir qızdır. Artistka Süsən obrazının meyllərini təbii, realist cizgilərlə əks etdirdiyi kimi, onun zahiri hərəkətinə, danışığına, keçirdiyi ruhi hallara, çəkdiyi əzaba da dərindən diqqət yetirmişdir. Seyranla görüşəndə çox həyəcanlı, səmimi və sərbəst olan Süsən, atasının qəzəbinə məruz qaldığı anda, gücsüz və kimsəsizdir. Toy məclisində təmkinli bütün daxili və zahiri görünüşü ilə gözəl olan Süsən Rüstəmlə görüşündə ürkək, müti və qorxaqdır. Sevgilisi ilə görüşündə, Süsənin-H. Qurbanovanın hətta ürək çırpıntılarını da eşidirik, Rüstəmlə tək qalan zaman isə Süsənin varlığı buza dönür. O, heç bir şey eşitmir və duymur. Onun həyatı elə bil sönür. O bilir ki, köməksiz, kimsəsiz və gücsüzdür. Xüsusən son səhnədəki çıxışı-H. Qurbanovanın oyununda daha müvəffəqiyyətlidir. Rüstəm onun xəyanət etdiyini zənn edib gəlmişdir. O, elə bir haldadır ki, heç nəyi şüurlu şəkildə ayırd edə bilməz. O, yalnız xəyanətin həqiqətə nə dərəcədə uyğun olub-olmadığını yoxlamaq istəyir. Rüstəmə ancaq bu lazımdır. Rüstəm çox qəti bir hərəkətlə Süsəni yanına çağırır. Bu vaxt Süsən-Qurbanova elə addımlarla Rüstəmə sarı gedir ki, tamaşaçının qəlbində bir gizilti baş qaldırır. Onun hərəkəti, addımının səsi, üzündəki ifadənin mənası sanki deyir: "Mən günahsızam. Mən həyatı sevirəm. Mən yaşamaq istəyirəm." Rüstəm ondan, gözlərinin içinə baxmağı tələb edir. Bu zaman Süsən asta-asta başını qaldıraraq ölgün nəzərlə Rüstəmin gözünə baxır və o, H. Qurbanova dəhşətə gəlir, yəqin edir ki, həyatının sonu çatmışdır. Elə bu zamandan tamaşaçı da duyur ki, hər şey bitmişdir, Süsən öləcəkdir" (7).

1954-cü ildə iyul ayının 3-dən 26-dək Akademik Milli Dram Teatrı İrəvanda qastrolda oldu. Qastrol müddətində on tamaşa nümayiş olundu ki, onların içində "Namus" tamaşası da var idi. Bu

tamaşa Q. Sundukyan adına teatrda iyul ayının 11-i və 15-i nümayiş olundu və Yerevan tamaşaçılarının böyük rəğbətini qazandı.

A. Araksmanyan "Sovet Ermənistanı" qəzetində yazır ki; "Tamaşada Süsən xüsusi bir yer tutur. Hökümə xanımı biz bir sıra başqa rollarda da gördük və onun səhnə istedadına inandıq. Hökümə xanım "Namus"da Şirvanzadənin bu gözəl qəhrəmanı-Süsən rolunu ifa edir. Hökümə xanım bu obraza son dərəcə böyük nəciblik və saflıq vermişdir. Onun Süsəni öz məhəbbət duyğularını baxışlarla, yerişlə, hərəkətlə, zərif və sakit intonasiyalarla ifadə edir. Onun bütün hərəkətlərində məhəbbət hiss olunur. Tamaşaçı Hökümə xanımın oyununda Süsənin bütün daxili aləmini çox yaxşı hiss edir. Hətta, son pərdədə Süsənin, artıq bir ana olmağa hazırlaşdığına baxmayaraq, biz, aktrisanın oyununda onun bütün düşüncələrinin, ruhunun, bütün mövcudiyyətinin Seyranla birlikdə olduğunu hiss edirik. Bizim qarşımızda elə bir realist yaradıcılıq vardır ki, onda bədii zövq üstün yer tutur, obrazı təcəssüm etdirmək üçün elə rənglərdən istifadə edilir ki, bunlar Şirvanzadənin yaratdığı səciyyəyə uyğun gəlir. Süsənlə Rüstəmin son görüş səhnəsi Hökümə xanımın oyununun zirvəsidir. Burada Süsənin daxili dəhşəti, məhəbbəti, özünü hədələyən təhlükəni dərk etməsi bir-birini təqib edir. Aktrisa yaratdığı obraza sona qədər sadiqdir. Hətta elə hiss edirsən ki, Hökümə xanım-Süsən, həyatdan o qədər də təəssüflə ayrılmır. Ölüm, onun tapdalanmış, rəhimsizcəsinə təhqir edilmiş məhəbbəti üçün yeganə çıxış yoludur. Hökümə xanımın obrazı belə izah etməsi, dramatizmi gücləndirir, faciə dərəcəsinə çatdırır".

Bu cür rəylərdən məlum olur ki, Hökümə Qurbanova nəinki öz vətənində hətta başqa ölkələrdə də tamaşaçıları təlatümə gətirən nadir sənətkarlardan idi.

1953-cü il mart ayının 20-də N. Hikmətin "Türkiyədə" dramı A. İsgəndərovun quruluşunda tamaşaçılara təqdim olunur. Ənənəvi üslubda səhnəyə qoyulan bu tamaşada xeyli obrazlar olduğu üçün rejissor bu əsəri səbirlə hazırlamış, tamaşanın bədii həllinə nail olmuşdur.

"“Türkiyədə” dramı nəinki mənası, ideyası və daxili nizamı ilə, həm də bütün zahiri rəsmi etibarilə monumental bir tamaşa idi... Pyesdə hadisələr də, iştirakçı da çox idi. Elə görünə bilərdi ki, pyesin səhnə təfsirində “illüstrasiyaçılıqdan” qaçmaq mümkün olmayacaqdır. Lakin rejissor bu təhlükədən yan keçə bilmişdi. Əsas surətlərin emosional şərhi konfliktlərin psixoloji cəhətdən kəskinləşdirilməsi və əsaslandırılması, zidd cəbhələr toqquşmasının dramatik ifadəsi bütün bunların parlaq və bədii həyəcan doğuran səhnələr şəklində canlandırılması, həmçinin tamaşanın monumental üslubu ilə bağlı başqa məsələlər müvəffəqiyyətlə həll edildi” (5).

Bu monumental tamaşada Hökümə xanım sülh müdafiə cəmiyyətinin sədri həkim, jurnalist Xətcə obrazını öz sənətinə layiq səviyyədə ifa etdi.

“Rolun ifaçısı Hökümə Qurbanova Xətcəni həm evdə-ailədə, həm də onun ictimai işlərdə fədakar insan kimi tanıtdırır. O, ərini, ailəsini sevən qadın, xalqını, vətənini sevən vətəndaş və mətin ictimayyətçi-sülh mübarizidir” (16).

S. Rüstəm “Kommunist” qəzetində (29.03.1953) yazır ki; “Hökümə Qurbanova sadə, namuslu, gözəl insan olan Xətcəni istər mübarizə, istərsə məişət səhnələrində rəngarəng boyalarla tamaşaçılara sevdirə bilir”.

Ə. Məmmədxanlı “Bakinski raboçi” qəzetində (29.03.1953) qeyd edir ki; “Aktrisa H. Qurbanova qabaqcıl türk qadının həlim təbiətli, mərd xasiyyətli obrazını gözəl canlandırır. Onun Xətcəsi dostları üçün həlim və mehriban, vətənin düşmənləri qarşısında isə amansızdır, mətindir”.

M. Hüseyn “Vışka” qəzetində (01.04.1953) yazır ki; “Aktrisanın yaratdığı bu mərd qadının cismi, mənəvi işgəncələrə baxmayaraq iradəsi qırılmayan Xətcənin surəti tamaşaçının zehnində möhkəm iz buraxır”.

Göründüyü kimi tənqid Hökümə Qurbanovanın ifa etdiyi Xətcə obrazını yüksək qiymətləndirmiş, həmişə olduğu kimi bu rolda tamaşaçıların yaddaşına həkk olunmuşdur.

İctimai baxışı (23 iyul, 1954) Yerevan şəhərində olan M. İbrahimovun “Həyat” pyesinin ikinci quruluşunun premyerası 1954-cü ildə sentyabr ayının 11-də (rej. A. İsgəndərov) oldu. İlk dəfə 1937-ci il aprel ayının 28-də A. İsgəndərov tərəfindən səhnəyə qoyulan “Həyat” dramında baş rol oynayan Həyat-Mərziyə Davudovanın ifası tamaşaçıların yaddaşında dərin iz buraxmışdır. Mərziyə xanımdan sonra bu rolu ifa etmək, şübhəsiz ki, H. Qurbanovanın məsuliyyətini birə on artırdı. “I“Həyat”ın mövzusu müəyyən mənada aktuallığını itirdiyi üçün tamaşası 1937-ci ildəki təmtəraqla qarşılanmadı. Bununla belə, Hökümə Qurbanovanın Həyat rolu nailiyyət kimi qeyd olundu” (19).

“Üstündən iyirmi ilə yaxın bir müddət keçəndən sonra 1954-cü ildə həmin pyes həmin teatrda yenidən tamaşaya qoyuldu və baş rollarda Hökümə Qurbanova (Həyat) ilə Ələsgər Ələkbərov (Süleyman) çıxış elədilər. Konfliktsizliklə zədəli pyeslərin bolluğu şəraitində teatrın yenidən “Həyat” dramına müraciət etməsi təbiidir və qanunidir. Bu əsər həm də əlvan, bitkin xarakterlərlə zəngindir. Müasir məzmunlu kəskin konflikt, bitkin səhnə xarakterləri tez-tez dəyişən və şiddətlənən dramatik mübarizə! Bütün bunlar rejissor A. İsgəndərovu və ifaçıları, əlbəttə, maraqlandırır, cəzb edir. Lakin eyni zamanda onların çiyninə ağır yük, böyük yaradıcılıq məsuliyyəti də qoyur. Məsuliyyətin ağırlığını, ciddiliyini ilk növbədə H. Qurbanova hiss edir” (16).

Əsərin qəhrəmanı Həyat-Qurbanova qorxmaz insan, möhkəm iradə sahibi idi. O, sadə insanlara sadiq, düşmənlərə isə dərin nifrət edirdi. Aktrisa öz mübarizəsini qəti və ardıcıl aparırdı. H. Qurbanovanın ifasındakı Həyat həm ictimai xadim, həm də sadə bir insan idi.

“Bakinski raboçi” qəzeti (02.10.1954) yazır ki; “Həyat rolunun ifaçısı Azərbaycan qadınının cazibədar, bitkin obrazını yaratmağa müvəffəq olub... Aktrisanın yaratdığı Həyat obrazının ən qüvvətli cəhəti onun iradə gücündə görsənir”.

Həyatın rayona gəlişi ciddi ictimai-siyasi hadisəyə səbəb oldu. Biliyə və təcrübəyə malik olan Həyat-Qurbanova təkbaşına iş

görmürdü nə edirdisə xalqa arxayın idi. Qətiyyətli və bütöv xarakterə malik olan Həyat obrazını böyük sənətkarlıqla ifa edən Hökümə Qurbanova bir daha tamaşaçılara görkəmli səhnə xadimi olduğunu sübut etdi.

"Ədəbiyyat və incəsənət" qəzeti (09.10.1954) yazır ki; "Aktrisa incə və təbii ştrixlərlə Həyatın sinfi instinktini tamaşaçıya çatdırır. Hər bir işdə partiyalılıq Həyat xarakterinin başlıca xüsusiyyətidir. Bunu həqiqi sənətkarlıqla açıb göstərmək isə Hökümə Qurbanovanın aktrisalıq məharətidir".

Hökümə Qurbanova mərd, qeyrətli Azərbaycan qızının dolğun obrazını yaratmağa müvəffəq olmuşdur. Aktrisa Həyat rolunu ifa edərkən öz talantında layiqincə bəhrələnmişdir.

"Həyat-Hökümə Qurbanova sözün əsl mənasında vətəndaşlıq borcunu yerinə yetirir, siyasi xadim vəzifəsi daşıyır. Bu mənada o, C. Cabbarlı dramaturgiyasındakı Sevil, Almaz, Gülsabah kimi qadın obrazlarının varisi və davamçısıdır. İkincisi, Həyat surəti təkcə həyati məzmununa görə yox, həm də bədii təcəssümünə görə aktrisanın əvvəlki obrazlarından fərqlənir. Onun xarakteri, həyat mövqeyi yalnız məram (proqram) xasiyyəti daşımır, obrazın səhnə həyatına, fəaliyyət meydanında, konkret hadisələrdə, münasibətlərdə, işdə təcəssüm tapır, görünür, duyulur və tamaşaçı tərəfindən qəbul olunur.

Hökümə Qurbanova Həyat obrazına ikinci dəfə səhnə həyatı verərkən onun müstəsna ləyaqətlərindən ikisini-Həyatın inamını və iradəsini bu rolun şah damarına çevirir. Həyat-Hökümə Qurbanova ətrafındakılara yalnız şübhə eləmir, həm də inanır. Onun şübhəsi inamından, inamı isə sayıqlığından ayrı deyildir. Bu nöqtədə aktrisa rolun yozumunu əvvəlki ifadan tamam fərqləndirir və aradan keçən iyirmi ilin nəticələrini hesaba alır. İradə məsələsinə gəlincə demək lazımdır ki, iradə güclü, qaynağı Hökümə xanımın səhnə istedadının özünə xas olan, bu istedadın özünü səciyyələndirən fitri keyfiyyətdir... Aktrisa Həyatın siyasi əqidəsini onun vətəndaş inamına, inamını isə onun qırılmaz, yorulmaz iradəsinə çevirməklə dəyanətli, sədaqətli bir ... obraz yaradır, ona üzvi, təbii təcəssüm verir. Həyatın hə-

qiqi ... siması, ... mövqeyi, xüsusiyyəti də məhz onun iradəsi gücünə, obrazın bu şah damarını tutmaq nəticəsində təzahür tapır" (16).

H. Qurbanovanın səhnədə canlandırdığı Həyat Azərbaycan qadınının qəhrəman, mübariz nümunəsidir. Aktrisanın bu obrazdakı bütün hərəkətləri və mimikaları başqa rollarda olduğu kimi təbii və inandırıcı idi. O, Həyatın varlığını dərindən duyurdu, onun başa düşərək tamaşaçılara təqdim edirdi.

Həyat-Qurbanova Süleyman kimi mənfi tipləri ifşa edərək, obrazın fikrini aydın ifadə edirdi. Hökümə xanım sözlə həm mühiti, həm digər başqa obrazları, həm də özünün daxili bütövlüyü haqqında tamaşaçılarda aydın təsəvvür yarada bilirdi. Aktrisa Həyatın xarakterini tamaşaçıların gözləri qarşısında yaradırdı. Hökümə Qurbanova obrazın hiss və düşüncəsini, mimika və jestlərin müxtəlifliyini, bütün replika, dialoq və monoloqları ilə birlikdə Həyatı canlı xarakterə çevirmək qüdrətinə malik nadir istedad sahibi idi.

1954-cü il oktyabr ayının 9-da İ. Əfəndiyevin üçüncü səhnə əsəri olan "Atayevlər ailəsində" pyesi T. Kazımovun quruluşunda tamaşaya qoyuldu və Lətafətin (Lyalya) obrazını (Bu rolun adını M. Məmmədov-Lalə, M. Hüseyn və İ. Kərimov isə Lətifə yazıblar) səhnədə canlandırmaq H. Qurbanovaya tapşırılır. Hökümə xanımda bu obrazın öhdəsindən məharətlə gəlir.

"Tamaşada Lətafətin obrazını Hökümə Qurbanova son dərəcə real boyalarla rəsm edə bilmişdir. Lətafət-Hökümə ibrətamiz bir həyat yolu keçir. Biz ona həm nifrət edirik, həm də acıyırıq, lakin onun islah oluna biləcəyinə də ümidsiz baxmırıq. Lətafət səhnəmizdə öz təzəliyi və təravəti ilə nəzəri cəlb edən maraqlı bir surətdir" (9).

Tamaşadakı Lətafət-Qurbanova konfliktlə üzvi surətdə bağlı olan obrazdır. Bu konflikt Lətafətin şəxsi faciəsinə gətirib çıxarır. Lətafət xalası Dilşad xanımın (B. Şəkinskaya) təkidi ilə Sadıqov (M. Mərdanov) kimi yaşlı, dövlət malını mənimsəyən, küt bir insana ərə getmişdir. Sadıqova nifrət edən Lətafət-Qurbanova yaraşıqlı insan olan zabit Ziyad Şahsuvarova (M. Dadaşov) aşiq olur. Şahsuvarovda Lətafətin bu zəif cəhətindən istifadə edir, onu aldadır. Şahsuvarovun xəbis bir adam olduğunu Lətafət-Qurbanova gec başa düşür, özünə

qəsd etmək istəyir. Onu cavan müstəntiq Cahangir (Ə. Məmmədov) ölümdən qurtarır. Ailə-məişət mövzusunda yazılmış bu əsərdə Hökümə xanımın ifası öz orijinallığı ilə fərqlənirdi.

“Əsərdə Sadıqovun qaş-daşına, qızılına aldanıb, xalası Dilşad xanımın təsiri altına düşmüş Lyalyanın rolunu H. Qurbanova gözəl ifa edirdi” (17).

“Biz qayğısız həyat sürmək, naz-nemət içində yaşamaq istəyən Lətafətin indi, tamaşa müddətində uyub aldandığını başa düşdüyünü, onun peşmançılıq anlarını, dəyişilmə və yenidən doğulma prosesini görürük. Bu proses üçün, əlbəttə, əsasən dramatik boyalar, dramatik yaşantı tələb olunur. Aktrisa məhz belə boyalarla zəngin olan yaradıcılıq palitrasından məharətlə istifadə edərək bu rolda da bitkin, orijinal bir xarakterdə təcəssüm tapmağa müvəffəq olur. O, tamaşanın yeddinci şəklində Lətafətin öz günahlarını etiraf elədiyi, dərin əzablar içində peşmançılıq keçirdiyi, ölümdən qurtulub, ayılıb yenidən həyata qayıtdığı çətin səhnəni inandırıcı tərzdə, böyük ustalıqla ifa edir” (16).

H. Qurbanovanın ifasında Lətafət müasir mövzularda ifa etdiyi obrazlar içərində öz bitkinliyi ilə fərqlənən səhnə qəhrəmanı idi. Hökümə xanım obrazın nəbzini düzgün tutmuş, onu tamaşaçılara sevdirmişdir.

1954-cü il iyulun 3-dən 26-dək Akademik Milli Dram Teatrı Yerevan şəhərində qastrolda oldu. Qastrolun açılışı və bağlanışı Q. Sundukyan adına teatrda S. Vurğunun “Vaqif” mənzun dramı ilə oldu. Qastrol müddətində kollektiv S. Vurğunun “Vaqif” (3; 7; 11; 22 ;25 ;26), “Xanlar” (6; 13), “Fərhad və Şirin” (10; 17; 18; 20; 21; 23; 25), S. S. Axundovun “Eşq və intiqam” (16; 19), M. İbrahimovun “Həyat” (23 ictimai baxış), S. Rəhmanın “Nişanlı qız” (4; 7), V. Şeksprin “On ikinci gecə” (5; 12) , Lope de Veqanın “Sevilya ulduzu” (8; 14), N. Qoqolun “Müfəttiş” (18), A. Şirvanzadənin “Namus” (11; 15) tamaşalarında Hökümə xanım Məryəm, Həyat, Bənövşə, Oliviya, Süsən və s. rolları ifa etdi.

1955-ci il yanvar ayının 29-da C. Cabbarlının məşhur "1905-ci ildə" pyesi A. İsgəndərovun quruluşunda tamaşaçılara təqdim olundu və Sona rolunu Hökümə Qurbanova ifa etdi.

Hökümə Qurbanovanın oynadığı Sona obrazı öz səmimiyyəti və təbiiliyi ilə fərqlənirdi. "Sona rolunda H. Qurbanova böyük bir məhəbbətin faciəsini oynayırdı" (10). Aktrisa Sonanın düşdüyü psixoloji anları da gözəl əks etdirirdi.

M. Rəfili "Ədəbiyyat və incəsənət" qəzetində (05.02.1955) yazır ki; "Hökümə Qurbanova Sonanın faciəsini, onun məftun və həsrətli təbiətini şux, cəsarətli boyalarla verir. Kənd səhnələrində, ölüm otağında Sona-Hökümə Qurbanova cazibədardır".

Sona obrazı C. Cabbarlı tərəfindən qələmə alınmış bitkin obrazlar içərisində nəzəri cəlb edən səhnə qəhrəmanıdır. Hökümə xanım öz qəhrəmanının günahsız olduğunu böyük ifası ilə tamaşaçılara göstərirdi.

"Sona və Solmaz rollarına dair mülahizələrimizə gəlincə, hər şeydən əvvəl, onu deməliyəm ki, klassik xəzinəyə daxil olmuş Cəfər Cabbarlı pyesləri içərisində bu iki əsər – "1905-ci ildə" və "Od gəlini" öz monumentallığı, ideya-tematik əhatənin genişliyi, kompozisiya əzəməti və güclü müasirlik mayası, duyğusu ilə fərqlənirlər. Onların biri uzaq, digəri yaxın keçmişimizi əsil müasirlik mövqeyindən inikas etdirir. Buna görə hər iki pyes dəfələrlə müxtəlif rejissorlar tərəfindən tamaşaya qoyulmuş, burdakı obrazları müxtəlif ifaçılar tərəfindən hər dəfə yeni fikir, yeni münasibətlə canlandırılmışdır. "Həyat" pyesində və Həyat rolunda olan kimi Sona və Solmaz rollarında da Hökümə Qurbanovanın qüdrətli sələfləri vardır: Mərziyə Davudova, Yeva Olenskaya, Sona Hacıyeva!.. Sona Hacıyeva hələ müəllifin sağlığında onun özünün rejissorluğu ilə hazırlanan "1905-ci ildə" əsərinin ilk tamaşasında Sona rolunun ilk yaradıcısı olmuş və uzun illər onun ən gözəl, ən mahir ifaçısı kimi qəlblərdə yaşamışdır. Solmaz rolu da səhnəmizin qüdrətli aktrisalarının, o cümlədən Mərziyə xanımın və Yeva xanımın repertuarını bəzəmiş, onların simasında şöhrətli ifaçılarını tapmışdır. Belə sələflərə layiqli varis olmaq, onlardan sonra rolun ifasına yenilik gətir-

mək, təzə fikir, təzə söz demək o qədər də asan deyil. Hökümə Qurbanova bu təsadüfdə də çətin yolu üstün tutmuş, təkrardan və təqliddən uzaq olmuşdur. Sona roluna onun gətirdiyi yenilik diqqətəlayiqdir. Aktrisa əsasən lirik səpgidə yazılmış bu rolun daxili dramatizmini, dramatik boyalarını üzə çıxartmış və bununla tamaşanın ideya-emosional istiqamətdə Sonanın rolunu və iştirakını fəallaşdıra bilmişdir" (16).

H. Qurbanovanın yaratdığı Sona nikbin idi. Aktrisa obrazın günahsız olduğunu tamaşaçılara mənalı detallarla göstərirdi. Eşqinin daşa dəydiyini bildikcə Hökümə xanımın Sonası bədbinləşirdi, taleyinin amansız olduğunu görüb fəryad qoparırdı. O, Baxşıdan ayrılıq səhnəsini məharətlə ifa edirdi. H. Qurbanova nakam məhəbbətin faciəli yekununu romantik boyalarla tamaşaçılara təqdim edirdi.

Hökümə Qurbanovanın sənətinin ən böyük keyfiyyəti onun səmimi olmasındadır. O, inanmadığı hər hansı bir sözü tamaşaçılara diktə eləməz. Bu həqiqətən də belə olmalıdır. Əgər aktyor ağzından çıxan sözə özü inanmırsa, tamaşaçılar da ona heç vaxt inana bilməz. Aktrisanın daxilindən gəlməyən hər hansı bir söz Hökümə xanımın yaradıcılığına zidd idi. Onun ifasının arxasında dərin hisslər və mənalı duyğular dayanmışdır. Hökümə Qurbanova sənətini yüksəklərə qaldıran bu hiss və duyğulardır.

1955-ci il oktyabr ayının 22-də Vilyam Şekspirin "Qış nağılı" əsri (tərcümə T. Əyyubov) Ə. Şərifovun quruluşunda səhnəyə qoyuldu və Hökümə xanım Qurbanova Germiona (bəzi kitab və məqalələrdə Hermiona da yazılır) rolunu misilsiz sənətkarlıqla ifa etməsi tamaşanın gözəl alınmasına səbəb olmuşdur.

"Səhnənin mərkəzində ağ mərmərdən bir heykəl dayanmışdır. Salondakılar, lojadakılar, amfiteatrdakılar nəzərlərini çəkmədən, heyrət içində diqqətlə bu heykələ tamaşa etməkdədirlər. Yalnız, tamaşa salonunu ağzına kimi doldurmuş tamaşaçılar deyil, səhnədəkilərin də diqqəti bu heykələ dikilmişdir... Bu mərmər heykəl hamını heyran qoymuş, hamının ürəyində keçmiş acı və şirin xatirələri canlandırmışdır...

Bu heykəl-Şekspir dühasının yaratdığı Germionadır. Bu həmin Germionadır ki, dosta mehriban, acizlərə, zavallılara kömək olmuşdur. Bu həmin Germionadır ki, öz əri Leontun (bu rolu xala artisti Əjdər Sultanov ifa edirdi-İ.A.) çirkin böhtanlarına məruz qalmış, hamilə ola-ola zindanlara atılmış, hakimlər qarşısında, müttəhimlər kürsüsündə dayamışdır. Lakin o yenə də öz təmizlik və vüqarını itirməmiş, öz namusunu, şərəfini sona kimi müdafiə etmişdir.

Ancaq bu nədir? Heykəl hərəkət edir! Elə bu zaman salondan gurultulu alqışlar qopur, bu alqışlar bitib-tükənmək bilmir, heykəlin canlanmasından vəcdə gələn tamaşaçıların sevinci, səhnədəkilərin sevincinə qarışır.

Heykəlin canlanması, hərəkət etməsi, dahi bir aktyorun səhnədən söylədiyi odlu-alovlu, ehtiraslı bir monoloqun təsirini bağışlayır. Bu heykəlin yalnız bircə addım atması, başının azca hərəkəti gərgin bir dramatik səhnənin doğurduğu həyəcanlar kimi, əkssədalar yaradır.

Vilyam Şekspirin ecazkar qələminin məhsulu olan Germiona, beləliklə, tamaşaçıların qəlbindən xəbər verir. Germionanın dəqiqələr ərzində, təxminən bütün bir şəkil boyu mərmər heykəl kimi lal dayanıb yavaş-yavaş canlanması, xeyrin şərə, günəşin zülmətə qələbəsinin təntənəsidir.

Lakin biz bu əsəri kitabdan oxumuruq, biz buna səhnə əsəri kimi tamaşa edirik, deməli, bu səhnəni, bu dramatik vəziyyəti, bu rolu yaradan bir səhnə sənətkarı, həm də çox qüdrətli bir ustad gərəkdir.

Bu səhnə sənətkarı, bu ustad Hökümə Qurbanovadır.

Hökümə Qurbanova "Qış nağılı!" pyesindəki kraliça Germiona roluna uzun illərin zəhməti, axtarışları, səyləri və cəhdləri nəticəsində gəlib çıxmışdır.

Ancaq bu axtarışlar, bu zəhmət bircə şərtə bağlıdır. Bu şərtin adı-istedaddır. Çünki incəsənətdə çalışan hər bir adamın əməyi, zəhməti hələ onun tamaşaçılar arasındakı müvəffəqiyyəti, sevilməsi demək deyildir. Bu müvəffəqiyyəti, bu xalq məhəbbətini təmin edən əsas amil istedaddır" (8).

H. Qurbanovanın Germionası bitkin səhnə qəhrəmanı olmaqla yanaşı, zəngin daxili olan bir insan idi. Onun yaratdığı Germiona yalnız bir xətdən ibarət deyildi. Bu obrazın ayrı-ayrı cizgiləri aktrisanın məharətli ifası ilə bir-birinə qarışaraq sənət qələbəsinə çevrilmişdir.

"“Qış nağılı” tamaşasının müvəffəqiyyətlə çıxmasına Hökümə Qurbanovanın Germiona surətini gözəl yaratması da səbəb oldu... Bu rolu Hökümə Qurbanova böyük məharətlə ifa edir, inandırıcı və real boyalarla yaradılmış heykəlin dirilməsi səhnəsi xüsusilə nəzəri cəlb edir. Cəsarətlə demək olar ki, Germiona-Qurbanova səhnəmizdə Şekspir repertuarı tarixində şöhrət tapan surətlər silsiləsində görkəmli yer tutur” (18).

Germiona Hökümə xanımın Oliviyadan sonra ikinci Şekspir qəhrəmanı idi. Şekspirin böyük sənətkarlıqla qələmə aldığı Germiona obrazını Hökümə xanım ədibə layiq səviyyədə ifa etmişdir.

M. Rəfili “Ədəbiyyat və incəsənət” qəzetində yazır ki; “Germiona-Hökümə Qurbanova haqsızlığın günahsız qurbanıdır. Tamaşada Hökümə Qurbanova sevən və pak bir qadının alçaq şübhələr nəticəsində çəkdiyi iztirabları ustalıqla nümayiş etdirir. “Qış nağılı” tamaşasında dərin bir təsir bağışlayan və alqışlara səbəb olan heykəlin dirilməsi səhnəsidir: Germionanın duruşunda, baxışımda, gözlərində belə, günahsız çəkilən iztirabların qəmli əlamətləri görünür... Aktrisa Germionanın simasında yalnız günahsız bir qadının iztirablarını deyil, eyni zamanda, pak və müqəddəs bir qadının daxili gözəlliyini realist cizgilərlə açmağa çalışır”.

Aktrisa səbirli və vüqarlı Germionanın günahsız bir kraliça olduğunu, nahaqdan təhqir olunduğunu, zindanlara salınan bir insanın bütün incəliklərlə tamaşaçılara göstərirdi.

“Pafos və patetika, poeziya və yüksək lirika tərtibatda, rejissor fikrində, işində yox, başlıca olaraq aktyorların ifasında, ifaçılıq üslubunda görünürdü. Bu mənada Hökümə Qurbanova aparıcı rol oynayır, yaxşı cəhətdən fərqlənirdi. O, Şekspirin poetikasını, “Qış nağılı” pyesinin mürəkkəb janr və üslub xüsusiyyətlərini düzgün duymuş, elə buna görə də tamaşanın mərkəzində dayanmış, onun

yaxşı və naqis cəhətlərini görmək, eşitmək üçün kamertona çevrilmişdir...

... Hökümə xanım pyesi və rolu həm instinkt, həm şüur gücünə düzgün duyub mənimsəmişdir. O bir tərəfdən bütünlükdə Şekspirin aləmini, ikinci tərəfdən "Qış nağılı"nın özünün real, amma nağılvari, romantik-fantastik dünyasını dərindən hiss eləmişdir...

... Germiona obrazında bu iki xasiyyət, iki keyfiyyət bir obrazın daxilində birləşmişdir. Germiona-Hökümə xanım həm məzlumdur, həm də mübariz; həm təhəmmül edir, həm də müqavimət göstərir; həm qurban gedir, həm də tablayıb nəhayət qalib gəlir. Aktrisa tamaşada bu iki zidd keyfiyyətin gözəl peyvəndini, şairanə rəmzini, heyrətli mücəssəməsini yaradır. Son pərdədə Germionanın mücəssəməsi, heykəli qarşısında söylənən misralar bir dərəcəyə qədər aktrisanın özünü, onun sehrli sənətini və bu sənətin qüdrətilə yaranan bədii obrazı vəsf edir" (16).

Rus imperatorunun qızı olan Germiona-Qurbanova Siciliya kralı Leontu sevmiş və ona ərə getmiş və sədaqətini ondan əsirgəməmişdir. Hökümə xanımın Germionası tamaşanın əvvəlində qayğısız və mehriban bir kraliça idi.

"Germiona obrazına böyük ustalıqla, daxili qüvvətlə təcəssüm verən H. Qurbanova tamaşada mərkəzi yeri tutur. Bu rolun ifası onun istedadının nadir keyfiyyətlərini üzə çıxartdı... O, Germiona rolunda romantik səpgili klassik rolu ifa eləməyin nümunəsini göstərdi" (26).

Germiona-Qurbanova kraliça olmasına baxmayaraq öz sadəliyi ilə seçilirdi. Müxtəlif təbəqəli insanlar onun üçün eyni idi, dövlət işlərinə qarışmırdı, ailəsini böyük məhəbbətlə sevirdi.

1955-ci il noyabr ayında Bakıya gəlmiş SSRİ xalq artisti N. P. Oxlopkov "Qış nağılı" tamaşasına baxandan sonra verdiyi müsahibədə Hökümə Qurbanovanın ifasından vəcdə gəldiyini bildirmiş, onun ustad sənətkar olduğunu xüsusi qeyd etmişdir. O, demişdir ki; "Azərbaycanda Vilyam Şekspirin ənənəsi çox qüvvətlidir. Azərbaycan teatrından bu sahədə öyrənməli şey çoxdur" ("Kommunist" qəzeti, 30 noyabr, 1955).

“Teatr tariximizdə Hökümə Qurbanova kimi gözlə və səs variatsiyaları ilə oynaya bilən ikinci qadın sənətkar olmayıb. Tamaşaçı salonunun arxa sıralarında əyləşən sənətsevərlər də onun məşəl kimi yanan, alovlu və ağıllı gözlərindəki mənaları aydınca görür, duyur və dərk edirdilər. Aktrisa lazım gələndə səhnədə dəqiqələrlə mərmər abidə kimi “donub” qala bilirdi (məsələn, Şekspirin “Qış nağılı”nda Germiona rolunda). Pauzaları baxış və hərəkətləri ilə ustalıqla “dondururdu”.

Hökümə Qurbanova romantik aktyor məktəbinin poetika göstəricilərini lirik-psixoloji aktyor məktəbinin ifadə vasitələri ilə qovuşduran, onları harmonik ayrılmazlıqda, bir estetik prinsiplərdə təqdim edən ilk aktrisadır” (21).

Hökümə Qurbanovanın sadə geyimli Germionası daxilən güclü, əzəmətli və ləyaqət timsalı idi. Onun hakimlər önündəki monoloqu böyük sənət qələbəsi idi.

“Pyes nağıl janrında şərh edilsəydi, çox şey dəyişər, başqa bir məna ilə parlardı. Lakin teatr bu itkilərlə hesablaşmadı və bununla belə, Azərbaycanın Şekspir tamaşaları salnaməsinə mənalı bir səhifə də artıra bildi. Bu səhifədə teatrın yeni Şekspir ifaçıları nəslinin, ən çox isə H. Qurbanovanın (Germiona) və Ə. Sultanovun (Leont) əldə etdiyi böyük nailiyyətdən yaxşı bir xatirə qorunacaqdır. Ə. Sultanovun yaratdığı obraz mübahisələr doğursa da, H. Qurbanovanın Germionasına münasibətdə tənqidi fikir tam yekdil idi. “Ədəbi bir gözəllik və həqiqətin, mənəvi təmizliyin təntənəsini” (26) təsdiq edən bu ülvi-romantik surəti aktrisa böyük füsunkarlıqla və sarsıdıcı bir təsir gücü ilə oynayırdı” (5).

Teatr 1957-ci il və 1960-cı ilin yay aylarına Yerevan və Gürcüstanda qastrolda olmuş, müxtəlif tamaşalarla yanaşı “Qış nağılı” əsəri də orada nümayiş olunmuş, Hökümə Qurbanovanın dörd dəfə Yerevanda və üç dəfə Gürcüstanda ifa etdiyi Germiona yüksək qiymət almışdır. Yerevanda nəşr olunan “Kommunist” qəzeti (29.06.1957) yazır ki; “Əsərin əsas qəhrəmanı olan Germionanı Hökümə Qurbanova maraqlı və parlaq bir şəkildə yaradır. Hökümə Qurbanova, tamaşadakı məhkəmə səhnəsində əladır. Hökümə

Qurbanovanın ifasında biz müdrik insan gözəlliyini görürük. Bax, buna görə Germiona, parlaq və inandırıcıdır. Hökümə xanım yaratdığı Germionada ehtiras coşub qaynayanda, biz bu ehtirasa inanırıq. Biz inanırıq ki, bu ehtirasın arxasında böyük insan qüvvəti dayanmışdır".

"Sovet Ermənistanı" qəzeti (12.07.1957) yazır ki; "Tamaşaçılarda belə bir fikir əmələ gəlir ki, görəsən Hökümə Qurbanova gözəl Germionanın obrazını əla yaratmasaydı, tamaşa bu qədər gözəl çıxardımı? İstedadlı aktrisa Hökümə Qurbanovanın oyunu o qədər yüksək və nəcibdir ki, tamaşadakı bəzi qüsurlar bu obrazın təsiri altında, demək olar ki, yaddan çıxıb gedir. Aktrisa sakit və hərarətli, bəzən alovlu və qorxunc olan Germionanın bədbəxt eşqini və faciəsini düzgün, psixoloji cəhətdən inandırıcı yaradır və obraza tam haqq qazandırır. Məhkəmə salonunda və son hadisələrdə bir-birindən tamamilə fərqli olan vəziyyətləri, Hökümə Qurbanova böyük aktrisa məharəti ilə əks etdirdi. O özü həyəcanlanmaqla bərabər, tamaşaçıları da dərindən həyacanlandırır və təsirləndirir".

"Zarya Vostoka" qəzeti (24.07.1960) yazır ki; ""Qış nağılı" tamaşasının canını Germiona rolunda çıxış edən Hökümə Qurbanova təşkil edir. Təhqir olunmuş bu ana və qadının yüksək alicənablığı Hökümə Qurbanovanın ifasında öz parlaq əksini tapır. Qüdrətli aktrisa hamını heyran qoyan məlahətli bir obraz yaradır. Onun qüsursuz plastikası, heyrətamiz səs və diksiyası ürəkləri vəcdə gətirir. Məhkəmə salonundakı və sonuncu şəkildəki heykəlin canlanma səhnəsini aktrisa əla yaradır. Şekspir poeziyasının yüksək nümunəsi olan Germionanın özünü müdafiə nitqini aktrisa dərin bir inam və sadəliklə söyləyir. Qüdrətli aktrisanın-Hökümə Qurbanovanın əla ifası və məharəti sentimentalçılıqdan uzaqdır. O, təbii, sadə və ustadcasınadır".

Hökümə Qurbanovanın Germionası Azərbaycan səhnəsində ifa olunan nadir obrazlardan biridir. Aktrisa bu əzəmətli obrazı yaratmaqla özünün teatr tarixində ki, yerini möhkəmlətdi. Hökümə xanımın Germionası H. Ərəblinskinin-Otellosu, A. M. Şərifzadənin-Hamlet və Maqbeti, S. Ruhullanın-Kral Liri, M. Davudovanın-Ledi

Maqbeti, Ü.Rəcəbin-Romeosu, Ə.Ələkbərovun-Otellosu, B.Şəkinskayanın-Cülyetta və Dezdemonası ilə bir sırada duran sənət incisidir.

Hökümə Qurbanova 1956-1960-cı illərdə R. Rzanın "Qardaşlar" pyesində Pərvanə (rej. T. Kazımov, 02.06.1956); H. Cavidin "Şeyx Sənan" mənzum dramında Xumar (rej. A. İsgəndərov və Ə. Şərifov, 13.10.1956); S. Vurğun "Vaqif" mənzum dramında Xuraman (rej. A.İsgəndərov, 16.02.1957), M. Hüseynin "Cavanşir" dramında Reyhan (rej. A. İsgəndərov, 14.09.1957); C. Məcnunbəyovun "İliç buxtası" əsərində Könül (rej. A. İsgəndərov və Ə. Şərifov, 24.05.1958); S. Vurğunun "Fərhad və Şirin" mənzum faciəsində Şirin (rej. A. İsgəndərov, 21.03.1959); Y. Osnos və V. Vinnkovun "Hind gəzəli"ndə Vasantasena (Hind yazıçısı Şudrakın "Gil araba" əsəri əsasında səhnələşdirilib, rej. Ə. Quliyev, 02.10.1959); A. Çexovun "Vanya dayı" əsərində Yelena (tərcümə N. Rəfibəyli, rej. Ə. Şərifov, 27.12.1959); İ. Səfərlinin "Ana ürəyi"ndə Sevgili (rej. A. İsgəndərov, 28.04.1960); İ. Əfəndiyevin "Atayevlər ailəsində" əsərində Lətafət (rej. T. Kazımov, 04.12.1960); N. Hikmətin "Şöhrət və ya unudulan adam" pyesində Qız (tərcümə İ. İbrahimov, rej. N. Sadıqzadə, 28.12.1960) kimi müxtəlif xarakterli obrazlar ilə çıxış edib.

1956-cı il oktyabr ayının 12-də A. İsgəndərov və Ə. Şərifovun quruluşunda tamaşaya qoyulan Hüseyn Cavidin "Şeyx Sənan" pyesinin qapalı tamaşası oldu. Tamaşaya Azərbaycan Kommunist Partiyasının birinci katibi İmam Mustafayev, Nazirlər Sovetinin sədri Sadıq Rəhimov, Mədəniyyət naziri Məmməd Qurbanov baxdılar. Oktyabrın 13-də tamaşanın premyerası oldu. Bu tamaşada gürcü gözəli Xumar obrazını Hökümə Qurbanova ifa etdi. Tamaşa 13-dən 22-nə kimi on gün hər axşam anşlaqla oynanıldı. "Düz on gün dalbadal "Şeyx Sənan" tamaşasının oynanılması həm Cavid intizarının vüsalı, həm rejissorların monumental işi, həm də aktyorların romantik oyunlarının vüsəti ilə bağlıydı. Əlbəttə ki, aktyor nailiyyətlərinin önündə Rza Əfqanlı və Əli Zeynalovun Şeyx Sənan, Hökümə Qurbanova Xumar, Sidqi Ruhulla Platon, Möhsün Sənani və Məlik Dadaşov Serqo, Ağadadaş Qurbanov şeyx Mərvan rolları dururdu. Quruluşçu rejissorlar Şeyx Sənan və Xumarın faciəli məhəbbətlə-

rinin poetik səhnə dastanını yaratmaq, romantizmin lirik çalarlarını əhatəli vermək üçün pyesdə müəyyən epizodlardan yaradıcı şəkildə sərf-nəzər etmişdilər. Rejissor redaktəsi ümumən səmərəli alınmışdır” (19).

“Şeyx Sənan” H. Cavidin bəraət aldıqdan sonra ilk əsəri idi ki, tamaşaya qoyulurdu. Hökümə Qurbanova isə bu obraza çoxdan hazır idi. Aktrisa bu haqda belə yazır: “1932-ci ildə İşçi teatrı artıq Gəncə şəhərinə köçürüldü. Ələsgərlə toyumuzdan sonra onunla bərabər mən də ora getdim. Aktyorların əksəriyyəti teatr işçiləri üçün ayrılmış xüsusi binada, bir həyətdə olurdu. Bizim mənzilimiz A. M. Şərifzadə ilə yanaşı düşmüşdü (A. M. Şərifzadə son iki mövsümü bu teatrda işıəyirdi). O, Hüseyn Cavidin “Şeyx Sənan” pyesini tamaşaya hazırlayırdı. Teatrın binası təmirdə olduğuna görə və darısqallıq üzündən məşqlər tez-tez onun mənzilində keçirdi. Bizim mənzilləri nazik bir divar ayırdığı üçün məşqin gedişini, rejissorun qeydlərini, məsləhətlərini mən hər dəfə əvvəldən axırına qədər aşkar eşidirdim. Özümün xəbərim olmadan burda keçən bütün məşqlərin iştirakçısı olurdum. Xumar rolunun ifaçısı o qədər də həssas, çevik olmadığına, ləng işlədiyinə görə rejissor vaxtının çoxunu ona və Xumara aid parçaların təkrar məşqlərinə sərf edirdi. Mən bir müddətdən sonra ayılıb gördüm ki, Xumar rolunu əzbər bilirəm və Abbas Mirzənin bu rol haqqında dediklərinin hamısını xatırlayıram. Rolu günü sabah oynamağa hazıram. Beləliklə, mən hələ aktrisa olmaqdan çox-çox əvvəl aktrisa olmuşam, məşqlər eləmişəm. A. M. Şərifzadənin rejissorluğu ilə Xumar rolunu “hazırlamışam”. Bu qəribə əhvalatı uzun illər bir mən bilmişəm, bir də Ələsgər. Üstündən 23 il keçəndən sonra Dram teatrında “Şeyx Sənan” tamaşası hazırlananda, Xumar rolunda məşq və çıxış edəndə mən tez-tez o qəribə hadisəni və o böyük sənətkarı təşəkkürlə xatırlayırdım. Mən aktrisa olmaq arzusunu ilk dəfə həmin “gizli məşqlər”dən sonra duydum” (16).

Hökümə Qurbanova Xumarın xarakterini tamaşaçılara dəqiq çatdırmağı bacarırdı. Onun cazibədar Xumarında əxlaq və vicdan təmizlikdən yoğrulmuşdur.

“Hökümə xanım Xumar obrazını təkraredilməz bir ustalıq, bir incəlik və məlahətlə yaratmışdır. Gürcü gözəli Xumarın mürəkkəb psixoloji aləmini o, nəcib poetik boyalarla bəzəmiş onu rövnəqləndirmişdir.

... Xumar, Hökümə xanımın ifasında füsunkardır. Öz atasını, evini, dinin belə məhəbbət yolunda qurban verən, müqəddəs bir eşqə can fəda edən, bu eşqin yolunda uçurumlara atılan Xumarın ruhi aləmini, Hökümə xanım lirikləşdirmiş və poetikləşdirmişdir. Tamaşaçını onun hüsnü, onun məlahəti heyran edir. Aktrisanın hayranedici müvəffəqiyyətinin sirri bundadır ki, Xumar obrazını yaradarkən, müəllifin ideyasını düzgün başa düşməklə kifayətlənməmiş, o bu ideyanı öz aktrisalıq təhlilindən keçirmiş, öz böyük aktrisalıq imkanlarına uyğunlaşdırmışdır. Hökümə Qurbanovanın sənətkarlığının şairanəliyi, səmimiyyəti Xumar obrazında özünü bir daha parlaq şəkildə göstərdi” (8).

Bu obraz H. Qurbanovanın yaradıcılıq manerasına tam uyğun idi. Gözəl və təkrarsız səs, incə hərəkətlər, iti və mənalı baxış aktrisanın bu obrazı yaratmasına tam haqq verirdi.

“H. Qurbanovanın-Xumarın iştirak etdiyi səhnələr tamaşanın ən maraqlı və dəyərli səhnələrindən idi. Xumarın təbiəti ilə mühit arasında olan barışmaz cəhətləri aydın şəkildə nəzərə çatdıran H. Qurbanovanın şən, oynaq hərəkətləri, gülüşü, şux yerişi obrazın təbiətinə tamamilə uyğun idi. Şeyx Sənanla görüş səhnəsində məhəbbət sevincini duyduğundan özünü xoşbəxt sanan Xumar-H. Qurbanova daha zərif və füsunkar görünürdü” (13).

Xumar-Qurbanovanın eşqi o qədər böyük idi ki, o, Şeyx Sənanın yolunda hər şeydən keçərdi və keçdidə. Şeyx Sənanın böyük məhəbbətinə tabe olaraq öz dinindən, atası Platondan üz döndərən Xumar-Qurbanova həqiqətən böyük məhəbbətin nə olduğunu tamaşaçılara göstərirdi.

“Xumar rolunun ifaçısı Hökümə Qurbanova obrazın təbiəti ilə mühit arasında olan barışmazlığı aydın nəzərə çarpdırırdı. Onun Xumarı təbiətcə çox şən, oynaq, şivəli bir qız idi.

Məhəbbət sevinclərini yenicə duymuş bu qız ilk səhnələrdə dağ şəlaləsini andırırdı. Onun şən gülüşü, şux yerişi, sevinc və məhəbbət dolu baxışları Xumarın daxilində gizlənmiş həyat eşqinin alovlandığını göstərirdi. Xumar-H. Qurbanova Sənanla görüş səhnələrində xüsusilə incə və füsunkar görünürdü.

Sonrakı səhnələrdə Sənan təqib və təhqirə məruz qaldıqda bu hal təmkinli bir kədərə çevrilirdi.

Xumarın-Hökümə Qurbanovanın iştirak etdiyi səhnələr tənqidin də qeyd etdiyi kimi, tamaşanın ən maraqlı və təsirli səhnələri idi" (24).

Aktrisa Xumarın məhəbbətini və bu sevginin gücünü bacarıqla göstərirdi. Xumar-Qurbanovanın bu pak məhəbbəti iki mühit arasında çırpınırdı. Bunardan biri yaşadığı mühit, digəri isə Sənana olan böyük sevgisi idi. Aktrisa bu iki xətti yüksək sənətkarlıqla nümayiş etdirə bilirdi.

"Hökümə Qurbanova Cavid dramaturgiyasında Xumar obrazında özünün temperamentinə, səhnə üslubuna uyğun olan, ona zəngin yaradıcılıq qidası verən bir xəzinə tapmışdır. Xumar əsasən şairanə-lirik obrazdır. Aktrisa onu belə rəftarla da ifa eləyir. Bu rolda aktrisa öz obrazının romantik-poetik təbiətini, daxili zərifliyini, incə qəlbini, məsum, pak mənəviyyatını ifadəli boyalarla əyan eləyir. O, Sənanı qəlbən duyduqca, dərindən sevdikcə, yüksək tutduqca özü də yüksəlir, tamaşaçıların nəzərində ucalır, ülviləşir" (16).

Akademin Milli Dram Teatrı 1957-ci il iyunun 14-dən iyulun 25-nə qədər Yerevanda, 1960-cı il iyun ayının 28-dən-avqust ayının 7-dək Tiflisdə qastrolda olmuşdur. Bu müddətdə Hökümə Qurbanova Yerevanda on bir dəfə, Tiflisdə və azərbaycanlılar yaşayan rayonlarda altı dəfə Xumar rolunda tamaşaçılar qarşısında çıxış etmişdir.

A. Alşilova "Zarya Vostoka" qəzetində yazır ki; "Xumar rolunda çıxış edən ... Hökümə Qurbanova lirik təmayüllü bir sənətkardır. Hökümə Qurbanova öz eşqi yolunda heç bir çətinlik çəkməyən, fədakar hisslərə malik olan cəsarətli gürcü qızının obrazını böyük məhəbbət və takt ilə yaratmışdır".

Hökümə Qurbanova Xumarın düşüncəsindəki inkişafı, öz məhəbbəti uğrunda hər şeyə qadir olmağı göstərməyi bacarırdı. Aktrisa obrazı məntiqlə əvvəldən axıra kimi elə dəqiq və düzgün aparırdı ki, tamaşaçı onun hər bir hərəkətinə inanırdı. Xumarının ən ali məqsədi eşq idi ki, Hökümə xanımda onu yüksək peşəkarlıqla tamaşaçılara çatdırmışdır.

1957-ci il fevral ayının 16-da H. Qurbanovaya "Vaqif" tamaşasında Xuraman obrazı tapşırıldı. Əlbəttə bu əsər Hökümə xanıma tanış idi. O, səhnəyə gəldiyi ilk illərdə "Vaqif"də gürcü qızı Tamara rolunu ifa etmişdir. Bütün tamaşaya və obrazların xarakterinə bələd olan aktrisa indi Vaqifin ömür-gün yoldaşı Xuramanı ifa etməliydi. Bu rol epizod olsa da onu ifa etmək məsuliyyət tələb edirdi. Çünki Xuramanın ilk tamaşadan keçən iyirmi ilə yaxın bir müddətdə onun Fatma Qədri kimi əvəzsiz bir ifaçısı var idi. Tamaşaçılar da Xuraman rolunda başqa bir aktrisanı qəbul etmirdilər. Lakin Hökümə Qurbanova bu rolun məsuliyyətini dərk etdi və Xuramanı öz sənətkar qəlbinin süzgəcindən keçirərək, tamaşaçılara gözəl bir ifa nümayiş etdirdi.

Hökümə xanımın Xuramanı meşşan, xəyanətkar, zavallı bir qadın idi. Aktrisa bu üç ayrı-ayrı xətləri kiçik bir obrazda elə məharətlə birləşdirirdi ki, onun böyük sənətinə heyran olmamaq mümkün deyildir.

1957-ci il sentyabr ayının 14-də M. Hüseynin "Cavanşir" qəhrəmanlıq dramı A. İsgəndərovun quruluşunda tamaşaya qoyuldu və cəngavər, hiyləgər, qorxaq Bəhramın qızı Reyhan obrazına H. Qurbanova səhnə həyatı verdi.

Q. Sundukyan teatrı Bakıda qastrolda olarkən iyun ayının 13-də onlara "Cavanşir" tamaşası (premyeradan əvvəl) göstərilmişdi.

"Müəllifin fikrini, əsərdə cərəyan edən dövrün əsas xüsusiyyətlərini əks etdirən rejissor, tamaşanın müasir səslənməsini əsas götürmüşdü. Ə. Ələkbərov (Cavanşir), İ. Dağıstanlı (Bəhram), H. Qurbanova (Reyhan) ... və digər aktyorlar tutarlı səhnə obrazları yaratdılar" (13).

Aktrisanın lirik səpgidə ifa etdiyi Reyhan öz təmiz məhəbbətinə sadiq qalan bir insan idi.

“Reyhan-H. Qurbanova sevgilisinin yolunu ürək çırpıntısı ilə gözləyən, titrək hərəkətlərlə boylanan nazlı, şux bir qız kimi təbii və canlıdır. Elçinin günahsız yerə öldürülməsinə kəsik-kəsik, lakin dərindən hiddətlənən, məhəbbətini qəlbində saxlayıb özü ilə torpağa aparan həyalı, ürkək bir sevgilinin könül hıçqırıqlarını, cəfakeşliyini yaradarkən də istedadlı aktrisamız xüsusi səy və zəhmət göstərmişdir” (7).

H. Qurbanovanın Reyhan obrazı vasitəsilə məhəbbətin nə olduğunu, ona hansı meyarla yanaşmağı tamaşaçılara göstərirdi.

“Müəllif tərəfindən əsasən lirik planda yazılmış Reyhan tamaşada, aktrisanın ifasında fədakar məhəbbətlə sevən, öz sevgisi və sevgilisi üçün fəda olmağa hazır qəhrəman bir qız kimi, özü də faciə səpgisində canlanır. Tənqid qeyd edir ki, aktrisa xüsusilə tamaşanın “Sonuncu pərdəsində öz ifasını böyük faciə səviyyəsinə çatdırır, faciə ahəngilə səsləndirir”” (16).

Reyhan obrazı Hökümə xanımın yaradıcılığında tamamilə yenidir. Aktrisa yaratdığı bu obraz ilə roldan-rola dəyişməyin nə olduğunu tamaşaçıya göstərdi. O, sübut etdi ki, hər an başqalaşmaqın həqiqi sənətkarıdır.

Ə. Ağayev yazır ki; “O, (H. Qurbanova-İ.A.) daxili aləmini, sevgisini və düşdüyü vəziyyəti inandırıcı cizgilərlə yaradır”.

Hökümə Qurbanova Reyhanın sevgisini tamaşaçılara dəqiq göstərdiyi kimi, faciəsi ilə də ürəkləri dağladı. Onun Reyhanı təmiz məhəbbətdən qidalanmış, canlı bir səhnə qəhrəmanı idi.

1957-ci il noyabr ayının sonunda Akademik Milli Dram Teatrı Moskvada keçirilən Ümumittifaq festivalında “Almaz” və “Cavanşir” tamaşaları ilə təmsil olunurdu. A.İsgəndərov, M.Hüseyn, Ə.Ələkbərov, H.Qurbanova, M.Sənani, Ə.Qurbanov, L.Bədirbəyli Ümumittifaq festivalın laureatı adını aldılar.

Festifalın sonuna həsr olunmuş yığıncaqda görkəmli rejissor və teatrşünaslar Aleksidze, Qolberq, Komissarjevski, Levin, böyük

türk şairi Nazim Hikmət və başqaları çıxış edərək Azərbaycanın teatr ustalarının ifalarını yüksək qiymətləndirdilər.

V. Komissarjevski "Pravda" qəzetində (03.12.1957) yazır ki, "Cavanşir rolunda Ələsgər Ələkbərovun təmkinli və ehtiraslı oyunu, onu ümumittifaq səhnəsinin qabaqcıl tragik aktyorları səviyyəsinə qaldırdı. Lakin o tək deyildir, onunla yanaşı Hökümə Qurbanovanın və başqalarının da adlarını çəkmək lazımdır".

Teatr iyunun 14-dən iyulun 25-nə qədər Yerevanda qastrolda oldu. Qastrolda V. Şekspirin "Otello" (25), və "Qış nağılı" (22, 23, 7, 22), H. Cavidin "Şeyx Sənan" (17, 27, 29, 5, 8, 9, 13, 15, 17, 20, 24), Ə. Haqverdiyevin "Pəri cadu" (18, 20, 24, 26, 28, 19, 23), C. Cabbarlının "Solğun çiçəklər" (21, 1, 5, 9, 13, 14, 15, 17, 20, 24), S. Vurğunun "Vaqif" (19, 2, 4, 10, 12, 14, 16, 21, 25), N. Hikmətin "Qəribə adam" (24, 3,), Ə. Məmmədxanlının "Şirvan gözəli" (20, 30, 1,), İ. Səfərlinin "Göz həkimi" (18, 26, 6, 11, 23) tamaşaları göstərildi. Hökümə Qurbanova qastrol müddətində bu tamaşalarda Germiona, Xumar və b. rolları ifa etdi. Onun ifası haqqında Yerevan mətbuatında tutarlı məqalələr yazıldı.

Hökümə Qurbanovanın aktyorluq bacarığına sünilik və şablon yaddır. Onun oyununda elə bir təbiilik var idi ki, o, səhnədən tamaşaçılara bir başa öz emosiyasını təlqin edə bilirdi. Tamaşaçını özü ilə birlikdə çəkib aparırdı. Aktrisa obrazı yüksək peşəkarlıqla ifa etməklə, tamaşaçılarını obrazın dərdinə şərik edirdi.

1959-cu il mart ayının 21-də xalq şairi S. Vurğunun "Fərhad və Şirin" mənzum faciəsi A. İsgəndərovun quruluşunda tamaşaçılara təqdim olundu. Bu dəfə ki, quruluşda H. Qurbanovaya Şirin obrazı tapşırıldı.

Şirin obrazı ilə səhnədə tamaşaçılar qarşısına çıxmaq Hökümə xanımdan böyük məsuliyyət tələb edirdi. Əvvəla ona görə ki, Şirinin Mərziyə Davudova, Fatma Qədri, Barat Şəkinskaya kimi mükəmməl ifaçıları olmuşdur. İkincisi də artıq tamaşaçılar bu əsərlə, bu obraz ilə yaxşı tanış idilər. Bu məsuliyyəti dərk edən Hökümə xanım sözün tam mənasında Şirini ifa edə bildi. Və yuxarıda adları çəkilən sənətkarlarla birlikdə onun da Şirini sevildi, yüksək qiymət aldı.

“Məlumdur ki, tamaşaçı teatra əsərin yalnız məzmunu ilə tanış olmaq üçün deyil, habelə incəsənətin başqa və daha cazibəli bir sahəsi olan teatr sənətini, aktyor, rejissor, rəssam sənətini görməyə, bu sənətdən dərs almağa və zövq almağa gəlir. Bu tələblər nöqteyi-nəzərindən yanaşdıqda “Fərhad və Şirin” tamaşasında bir neçə artistin ifası diqqəti cəlb edir. Bunlardan biri Şirin rolunda ... Hökümə Qurbanovanın ifasıdır. Artistka Şirinin təmiz, qərəzsiz sevgi hisslərini, sadəliyini, açıqürəkliliyini, həyata, insana həssaslığını, eşqə, sənətə hörmətini, incə mühakimələrini, xeyirxahlıqla döyünən qəlbini, Azərbaycan qızının vətənpərvərlik qürurunu, vətəndən ayrılandan sonra qəlbində çırpınan vətən, ana həsrətini, eləcə də obrazın zəif cəhətlərini; onu fəlakətlərə sürükləyən xəyalpərvərliyi, könül aləmindəki qərarsızlığını, Şirinin son iztirablarını, peşmançılıq hisslərini canlı, inandırıcı bir sənət dili ilə yarada bilmişdir” (6).

Hökümə Qurbanovanın Şirini özündən əvvəlki xələflərinə nisbətən yeni idi, emosional təsiri güclü idi. Onun Şirinində mübariz ruh güclü idi. Aktrisa obrazı əvvəldən sona qədər yüksək templə ifa edirdi. O, obrazın mənşəyini bilirdi, arzusu, istəyi ona məlum idi.

M. İbrahimov “Bakinski raboçi” qəzetində (16.04.1959) yazır ki; “Rolun zahirən xəsis, lakonik rəsmi ardında biz Şirini bürüyən tragik hisslərin hərarətini, atəşini duyuruq”.

Onun Şirini şahzadə olmaqla yanaşı həm gözəl övlad və həmdə Fərhadı dərin məhəbbətlə sevən azərbaycanlı qızı idi. Bu üç xəttin hansını aktrisa daha yaxşı ifa edir? Sualına cavab vermək çətinlik yaradardı. Hökümə Qurbanova bu üç xəttin hər üçünü öz böyük istedadının gücü ilə yüksəldərək bədiilik səviyyəsinə qaldıra bilirdi.

“Şirin-H. Qurbanova tamaşanın əvvəlində gördüyümüz xəyalpərvər-romantik təbiətli bir qızdan tədriclə siyasi-fəlsəfi mühakiməli bir şəxsiyyətə çevrilir. O, mücərrəd hisslərdən, xəyallardan ayrılıb Fərhada, onun eşqinə bağlanır, şəxsi məhəbbətlə Vətən məhəbbətinin ahəngini tapır. O, burdan doğan böyük səadəti də, bu səadətin faciəsini də dərindən duyur. Bunu duydurmaq, obrazı aşkarlamaq üçün isə aktrisa özünün yetkin sənətkarlığını işə salır. Onun duyğu-

ları, fikirləri, hərəkətləri, ehtirasları, bütünlükdə oyunu, ifası üç sözlə təriflənə bilər: lakonizm, romantika, tragizm!" (16).

Nəsrlə yazılan pyesi oynamaq, mənzum dramı oynamaqdan rahatdır. Nəsrlə yazılan pyesdə aktyor sərbəst olur. Mənzum dram isə bir qism aktyorları elə bil çərçivəyə salır. Elə aktyorlar var ki, onlar üçün nəsrlə yazılan pyeslə, mənzum dramın fərqi yoxdur. Hökümə Qurbanova da o tip aktyorlardandır. Onun sənətinin qüdrəti o qədər böyük idi ki, aktrisa şerin daxili məzmununu, ritmini asanlıqla dərk edirdi. Aktrisanın səsində olan məlahət, musiqi tamaşaçıya müsbət enerji bəxş edirdi. İstər-istəməz saatlarla bu təkrarsız səsə qulaq asmaqdan doymurdun.

1960-cı ilin yayında Akademik Milli Dram Teatrı Gürcüstanda qastrolda olan zaman orada yeddi dəfə "Fərhad və Şirin" tamaşası oynanıldı. Qastrolun açılışı (30.06.1960) "Fərhad və Şirin"lə başladı. Tamaşa böyük müvəffəqiyyətlə keçdi. Gürcüstan kinostudiyası tamaşanın son şəkillərini löntə çəkdilər. Qastrol (06.08.1960) yenə də "Fərhad və Şirin"lə sona çatdı.

Q. Buxnikaşvili "Zarya vostoka" qəzetində (03.07.1960) yazır ki; "H. Qurbanova öz qəhrəmanının tragik duyğuları və yaşantılarındakı dərinliklə tamaşaçıları valeh edir".

Hökümə xanım Şirinin həyəcanları ilə vətən həsrətini eyni məharətlə tamaşaçıya göstərirdi. Onun nitqində sözün tam mənasında sevən bir insanın ürək döyüntülərini hiss edirdin. H. Qurbanova Şirini duyub, düşünüb ifa edirdi. Tamaşaçını da öz hissinə tabe edirdi. Xüsusən onun ifa etdiyi final səhnəsi misli görülməmiş sənətkarlığın parlaq nümunəsi idi.

1959-cu il oktyabr ayının 2-də Yuri Osnos və Viktor Vinnikov Hind yazıçısı Şidrakın "Gil arada" povesti əsasında səhnələşdirdikləri "Hind gözəli" əsəri (tərcümə edən A. Babayev) Ə. Quliyevin quruluşunda tamaşaya qoyuldu və Vasantasena obrazını Hökümə Qurbanova ilə Leyla Bədirbəyli ifa etdi.

"Melodrama janrında səhnə təfsiri verilmiş "Hind gözəli" tamaşasında sentimental ifadə vasitələrindən də istifadə etməklə rejissor intim ovqat yaratmışdı. Bu ruh qavrama baxımından azərbay-

canlı tamaşaçılar üçün doğma idi, səhnə ilə salon arasındakı "pərdənin" hiss edilməməsinə təkan verildi. Bir qədər romantik ruhda oynayan Hökümə Qurbanovanın və sentimental çalara qatılıq verən Leyla Bədirbəylinin ifa etdikləri Vasantasena rolu tamaşanın əsas ağırlığını çəkirdi" (19).

H. Abbaszadə "Bakı" qəzetində (03.10.1959) yazır ki; "Artist H. Qurbanovanın ilhamla yaratdığı Vasantasena obrazı əsərdə mürəkkəb və mükəmməl qadın obrazlarından biridir. Qurbanova-Vasantasena qadınlıq ləyaqətini tapdayan feodal qanunlara qarşı çıxır. O, sevdiyi adama qovuşmaq üçün son nəfəsinə qədər mübarizə etməyə hazırdır. Nə şahın qayğısı Sanstankanın vəd etdiyi daş-qaşlar, nə də ölüm qorxusu Vasantasenanı fikrindən döndərə bilmir".

Psixoloji-dramatik obrazlara aid olan Vasantasenanı Hökümə Qurbanova nisbətən fərqli ifa edirdi. Yəni onu faciəvi boyalarla tamaşacılara çatdırırdı. "Psixoloji rollarda obrazın ovqatını tamamlamaq üçün səsləndirilən musiqinin ritm və ahəngini, tərənə düzümünü Hökümə xanım səsinin cingiltili, titrəyişli musiqisi ilə eyni kökdə, not dəqiqliyi ilə qururdu" (21).

"Bakinski raboçi" qəzeti (11.10.1959) yazır ki; "Hökümə Qurbanova öz qəhrəmanının obrazını tragediya açarı ilə açıb aşkarlayır. O, Vasantasenanın mətin, ehtiraslı xarakterini yaratmaq üçün iri, qalın, qatı boyalardan istifadələnir. Onun mənalı, qəzəbli sözləri dünyanın amansız, ədalətsiz işlərinə qarşı ittiham kimi səslənir. Vasantasena özünün insanlıq hüququnu mərdanəlik, qəhrəmanlıqla müdafiə eləyir".

Hökümə Qurbanova obrazın xarakterini dəyişmə qüdrətinə malik olan görkəmli sənətkar idi. Bu istedad hər aktyora nəsib olmur. Ancaq böyük sənətkarlara xas olan nadir keyfiyyətdir. Gərək obrazın xarakterini elə məharətlə dəyişməyi bacarasan ki, tamaşaçılar sənə inansın və yaratdığın səhnə qəhrəmanı onları razı salsın.

"Aktrisanın tragik yüksəkliyə qaldırdığı obrazlardan biri də "Hind gözəli" tamaşasındakı Vasantasenadır. Maraqlıdır ki, həmin rolun o biri ifaçısı Leyla Bədirbəyli, tənqidçilərin yazdığı kimi, onu

lirik planda oynadığı halda, Hökümə Qurbanova obrazı məhz faciə boyaları, faciə ahəngilə işləmişdir” (16).

Teatr 1964-ci il iyul ayında Yerevanda qastrolda olarkən Hökümə xanım orada “Hind gözəli” tamaşasında Vasantasena rolunu ifa edib və böyük tamaşaçı rəğbətini qazanmışdır.

1959-cu il dekabr ayının 27-də A. P. Çexovun “Vanya dayı” əsəri N. Rəfibəylinin tərcüməsində Ə. Şərifovun quruluşunda tamaşaçılara təhvil verildi və Hökümə Qurbanovaya Yelena Andreyevna Serebryakova obrazı tapşırıldı.

Qabaqcıl rus teatrının ənənələrinə əsaslanaraq tamaşaya qoyulan “Vanya dayı” əsərini kollektiv həvəslə hazırladı. Əsərin orijinallığına əl vurmamaq şərti ilə pyesin bədii-fəlsəfi fikrini tamaşaçılara göstərə bildi. Azərbaycan səhnəsində ilk dəfə tamaşaya qoyulan bu əsrdə H. Qurbanova (Yelena), A. D. Qurbanov və A. Gəraybəyli (Serebryakov), İ. Dağıstanlı (Astrov), M. Sadıqova və S. Bəsirzadə (Sonya) kimi səhnə ustaları çıxış edirdilər.

“Tamaşanın orijinallığı Yelena Andreyevna (H. Qurbanova), Astrov (İ. Dağıstanlı), Sonya (M. Sadıqova) surətlərinin səhnə şərhində də öz əksini tapırdı” (5).

H. Qurbanova ifa etdiyi Yelena Andreyevna obrazı haqqında “Ədəbiyyat və incəsənət” qəzeti (30.01.1960) yazır ki; “Anton Pavloviç Çexovun “Vanya dayı” əsərindəki Yelena Andreyevna obrazı həmişə rus səhnəsinin görkəmli aktrisalarının nəzərini cəlb etmişdir. Bu rol üzərində işləyərkən Çexovun yaradıcılığından, Yelena Andreyevna rolunun bir çox mahir ifaçılarının zəngin təcrübəsindən çox şey öyrənmişəm.

Yelana Andreyevna, Serebryakovu ağıllı, istedadlı bir adam hesab edərək gəncliyində ona ərə getmişdir. İndi onun ümidləri puça çıxsa da, yenə onunla yaşayır, bu sıxıntılı həyatın bütün əzablarına dözür. Özünün dediyi kimi, o artıq “cəmiyyətdə epizodik bir surətdir”. Yelana Andreyevna yalnız zahirən gözəldir, onun daxili aləmində heç bir gözəllik yoxdur. Buna görə də Yelena Andreyevnanın varlığı cəmiyyət üçün faydasızdır.

Mənim fikrimcə, Yelena Andreyevna “Vanya dayı” pyesinin mürəkkəb obrazlarından biridir. Bu rolun daxilini, ruhunu bütün incəliklərinə qədər tamaşaçılara çatdırmağı bacarsam, özümü xoşbəxt hesab edirəm”.

Bu sözləri oxuyanda hiss edirsən ki, Hökümə Qurbanovada nə qədər böyük təvazökarlıq var idi. Bu belə də olmalıdır. Bütün böyük sənətkarlar kimi Hökümə xanımda daima öz təvazökarlığını nümayiş etdirib. H. Qurbanova təxminən əlli illik yaradıcılıq dövründə orta səviyyəli rol oynamayıb. O, bütün obrazlarını yüksək bədii səviyyəyə qaldırmağı bacaran nadir sənətkarlardan olub.

““Vanya dayı” tamaşasındakı Yelena Serebryakova əsasən, lirik boyalarla, akvarel rəngləri ilə işlənmişdir. Gözəl, cazibədar, yaraşıqlı, məlahətli Serebryakovanın-Qurbanovanın “çölü özgələrini yandırırsa, içi özünü yandırır”. Çoxunun həsəd apardığı, çoxlarının nəzər yetirdiyi bu gənc qadının əslində dərdi-qüssəsi böyükdür. O, ərə gedərkən aldanmış, gedəndən sonra tənhalıq, işsizlik, faydasızlıq, lüzumsuzluq dərdi onu üzmüşdür. O, çox zaman özünün daxili qayğıları, fikirləri ilə məşğuldur. Aktrisa bu rolda sözsüz düşünmək-danışıq bacarığı, susduğu səhnələrdə yaşamaq, “daxili monoloq” demək hünəri göstərir. Daxili monoloqlar sistemində isə onun ucadan danışıqları, xüsusilə üçüncü pərdədəki monoloqu dərin məzmun, dərin yaşantı ilə ifadəli səslənir. Aktrisa Yelenanın həm bir quş kimi uçub azad diyara getmək həsrətini, həm də bu meşşan bataqlığında çəkdiyi əzabını, habelə istəkləri ilə cəsarətsizliyi arasındakı tərəddüdlərini Çexov üslubuna uyğun tərzdə təmkinli emosionallıqla ifa edir” (16).

Müxtəlif millətlərin qəhrəmanlarını səhnədə böyük şövqlə yaradan Hökümə Qurbanova Yelena Andreyevna obrazına öz möhürünü vurmuşdur. H. Qurbanovanın yaradıcılıq diapazonu o qədər böyükdür ki, tamaşaçılar onun təsirindən çıxa bilmirdilər. Hökümə xanımı bir dəfə səhnədə görüb ona heyranlıqla tamaşa etməmək mümkün deyildir. Onun ifa etdiyi obrazı ondan sonra hansı aktrisa ifa etsəydi ya gərək Hökümə xanımı təqlid edəydi, ya da ondan zəif oynayardı. H. Qurbanovanın dublyorları da onunla eyni obrazı ifa etməyə çətinlik çəkirdilər. Çünki obrazı Hökümə xanım kimi bədii

səviyyəyə qaldıra bilmirdilər. Ona görə də iki, üç obrazı çıxmaq şərt ilə o, bütün rollarını dublyorsuz hazırlayırdı. Yelena Andreyevna da belə obrazlardan idi.

"“Vanya dayı” pyesində Hökümə xanımın oyununa tamaşa edərkən düşünürsən ki, sanki Yelana Andreyevna Serbryakova obrazı məxsus Hökümə xanım üçün yazılmışdır. Onun diqqətəlayiq oyununun maraqlı bir cəhəti budur ki, o, başqa ifaçılardan fərqli olaraq, hər pərdədə başqalaşır, bu başqalaşma, bu dəyişmə aktrisanın səhnədəki ruhi vəziyyətindən irəli gəlir.

Yelena Andreyevna Serebryakova obrazının yüksək nöqtəsi, onun üçüncü pərdədə söylədiyi monoloqdur. Bu monoloqu aktrisamız böyük məharətlə söyləyir. Tamaşaçı, Hökümə Qurbanovanın ifasında hiss edir ki, Yelena Andreyevnanı, bu miskin, meşşan həyat öz amansız, murdar məngənəsində sıxır.

Nəhayət, sonuncu pərdədə özünün bütün görkəmi, sakitliyi və vüqarı ilə Yelena Andreyevna-Hökümə Qurbanova tamaşaçıya anladır ki, onun həyatı və taleyi bu yerdən çıxıb getməsi ilə bağlıdır.

Ümumən “Vanya dayı” tamaşasına baxarkən Hökümə xanımın cazibəli oyununa valeh olmamaq mümkün deyildir. Hökümə xanım, səhnədə incə bir zövq və ilhamla yaratdığı surətin könül dəftərini, ürək dastanını sətir-sətir, səhifə-səhifə tamaşaçının qarşısında nümayiş etdirir. Aktrisa oynadığı obrazı bütün varlığı ilə sevir, aktrisa, Yelena Andreyevnanın müsbət və zəif cəhətlərini ürək yanğısı ilə hiss edir. Yelena Andreyevna-Hökümə xanım gənc və gözəldir, lakin o, qoca professora ərə getmiş, öz gəncliyini, gözəlliyini və azadlığını bu qoca professora vermişdir... Yelena Andreyevna gözəl və ağıllı olsa da, mənəvi cəhətdən zəifdir. Astrovun, Vanya dayının təsiri ilə o, bəzən, özünə sərbəstlik verməyə çalışır, azad bir quş olmağı, bu meşşan həyatdan uzaqlaşıb getməyi arzu edir.

Bu səhnələrdə Yelenanın-Hökümənin gözlərində həyat qığılcımları parlamağa başlayır. O, nə isə etmək istəyir. Lakin buna cəsarəti çatmır, qorxur, təşəbbüsdən, yaradıcılıqdan məhrum olan bir natura kimi qalır.

Tamaşaçılar Hökümə xanımın ifasında Yelena Andreyevnanı belə görüb, belə hiss edirlər. Hökümə xanım bu rolun bütün psixoloji incəliklərini, sanki mikroskop altında böyüdür, qabarıqlaşdırır, onu sənətin yüksək nöqtəsinə qaldırır. Birinci pərdədə Hökümə xanım-Yelena Andreyevna bağdakı səyahətdən evə dönür, o, heç bir söz danışmır, yalnız yavaş-yavaş addımlayır, lakin bu sükutlu yerişdə, biz qüvvətlə söylənmiş bir monoloq təsiri hiss edirik. Onun iri, qara gözlərində əsrarlı bir məhəbbətin çırpındığını duyuruq. Onun sakit addımlarında qətiyyət vardır. O, həqiqi bir eşqin arzusu ilə dayanmaq, qəlbindəki arzuları otlara, ağaclara, buludlara söyləmək istəyir, ancaq bunu bacarmır, əri Serebryakovun ardınca evə keçir. Biz dərhal hiss edirik ki, Serebryakovla onun arasında körpü salına bilməz uçurum vardır. Səhnəmizin böyük sənətkarı Hökümə xanım Yelena Andreyevnanın xarakterini daima dinamikada, inkişafda göstərir" (8).

Bütün bu deyilənlərdən belə qənaətə gəlmək olar ki, Hökümə Qurbanovanın ifasındakı Yelena Andreyevna idi öz dolğunluğu ilə seçilən bir obrazd idi. Bu obraz həm Azərbaycan teatrının və həm də Hökümə xanımın sənət qələbəsi idi.

1959-cu ildə Akademik Milli Dram Teatrı may ayının 22-dən 31-dək Moskvada Azərbaycan Ədəbiyyatı və İncəsənətinin Dekadasında iştirak etdi. On günlükdə C. Cabbarlının "Almaz" (24, 28), S. Vurğunun "Fərhad və Şirin" (23, 24, 27), C. Məcnunbəyovun "İliç buxtası" (22, 25, 30, 31), V. Şekspirin "Otello" (26, 29, 31) tamaşaları Moskvada Vaxtanqov teatrının binasında tamaşaçılara göstərildi.

Dekadanın açılışı "İliç buxtası" pyesi ilə (22may), bağlanışı "Otello" faciəsi ilə (31 may) oldu.

Dekadanın ilk tamaşasında Hökümə Qurbanova Moskvada "İlic buxtası"nda Könülü ifa etdi. Mayın 23-də Moskvada axşam "Fərhad və Şirin"də Şirini, 24-də gündüz "Fərhad və Şirin"in 300-cü tamaşası oynanıldı.

Beləliklə, Dekada müddətində dörd tamaşa 12 dəfə nümayiş olundu və Hökümə xanım dörd dəfə Könülü, üç dəfə Şirini ifa etdi. Onun bu mükəmməl ifaları Moskva tamaşaçılarını heyrətə gətirdi.

Dekadada göstərilən yüksək səviyyəli tamaşalara görə Azərbaycanın ədəbiyyat və incəsənət xadimləri keçmiş Sovetlər İttifaqının orden və medalları ilə təltif edildi. Hökümə Qurbanova Dekadadakı uğurlu çıxışına görə o dövrün ən yüksək mükafatlarından olan Lenin ordeni ilə təltif olundu.

1960-cı il may ayının 24-də Azərbaycan teatr sənətindəki nailiyyətlərə görə Hökümə xanım Qurbanovaya Azərbaycan respublikasının xalq artisti fəxri adı verildi.

1960-cı il dekabr ayının 28-də N. Hikmətin "Şöhrət və ya unudulan adam" pyesi (tərcümə İ. İbrahimov) N. Sadıqzadənin quruluşunda tamaşaya qoyuldu. Bu tamaşada H. Qurbanova doktorun qızı obrazını canlandırdı.

Əsərdə paklıq və çirkab mübarizə aparır. Dərin dramatik vəziyyətlərin sonunda paklıq qələbə çalır. Bu pyesdə simvolika güclüdür. Bu simvolik vəziyyətlərin arxasında həqiqi, real hadisələr dayanır.

Tamaşada Hökümə xanımın ifa etdiyi qız obrazı həkim ailəsində böyümüş ləyaqətli, nəcib bir insan idi.

"Tamaşada bacarıqlı aktyor ifasından danışarkən doktorun qızı rolunda çıxış edən Hökümə Qurbanovanın işini xüsusi qeyd etmək lazım gəlir. Akrisa rolu doğru traktovka etmiş, onu səadət ardınca gedərkən ailədə baş verən ixtilaflar, boğucu mühit, ögey ananın yaramaz hərəkətləri, atasının şəxsi şöhrət üçün bütün varlığını qurban verməsi üzündən çaşmış, sadəlövh, şıltaq bir qız kimi səhnədə canlandırmışdı. Qızın sevdiyi kişi ilə görüş səhnəsi çox müvəffəqiyyətli idi. Aktrisa ağlının deyil, hissinin tələbi ilə hərəkət edən bir qızın sevincini, kədərini və xüsusən faciəsini doğru şərh edirdi" (14).

Aktirisanın yaratdığı qız obrazı bütün əzab-əziyyətlərə sinə gələn narahat qəlbli gənc idi. H. Qurbanova qızın daxilindəki iztirabları, həyatdakı uğursuzluqlarını incə ştrixlərlə tamaşaçılara göstərirdi.

"Öz atasına zərif, şəfqətli məhəbbətini qız (Qurbanova) qabarıq çatdırırdı. Halbuki qızın qəlbi artıq çoxdan narahatlıqla döyünməli idi: o görürdü ki, evlərində nə isə pis bir hadisə baş verməkdədir. Fitnəli, xudpəsənd analığı ilə bir yerdə keçən həyatı get-gedə daha dözülməz olurdu. Onları əhatə edən mənəvi-psixoloji çirkabla

atanın barışması ona gətirib çıxarır ki, qız da gözünü yumaraq özünü kortəbii hisslərə təslim edir və heç düşünmədən taleyin yüngül əxlaqlı, ailəli bir kişi ilə bağlayır.

Özünün və atasının başına gələnlər qızı qorxudur və həyəcanlandırır. Onda böyük bir məhəbbətlə yanaşı atasına, onun "prinsiplərinə" qarşı əsil bir nifrət və etiraz da yetişdirir. Qurbanovanın oyununda isə bu hisslər yalnız bir səhnədə, qəflətən üzə çıxır. Şöhrətə qulluq edən atanın etirafını onun öz dilindən eşitməsi qızı dəhşətə gətirir və o, öz ittiham və nifrət nidalarını atasının üzünə çırpır" (5).

Lirik təmayüllü psixoloji obrazlar silsiləsinə aid olan qız-Hökümə xanımın şəxsində öz kamil ifaçısını tapmışdır.

"İstedadlı aktrisamız Hökümə Qurbanova şöhrətpərəstlik hissindən gözləri qapanmış, nə etdiyini özü üçün aydınlaşdıra bilməyən bədbəxt və zavallı atanın günahsız qurbanını çox təsirli, lirik cizgilərlə yarada bilmişdir. Əsərin əvvəlindən axırına qədər qız-H. Qurbanova tədricən inkişaf edir. O, içərisində dolaşdığı həyatın zəhərli havasına tab gətirə bilməyən, tez-tez üsyan edən, lakin qəti və aydın bir yol tapmayan, təcrübəsizlik nəticəsində fəlakətə gəlib çıxan bir qızın həyəcanlarını, iztirablarını və faciəsini bədii yüksəkliyə qaldıra bilir" (7).

Hökümə Qurbanova təqdim etdiyi qız obrazı ilə vəziyyətdən-vəziyyətə başqalaşmağın, obraza olan düzgün yaradıcı münasibətin, aktyorluq sənətinin nə olduğunu tamaşaçılara bir daha göstərdi.

Akademik Milli Dram Teatrı 1960-cı il iyun ayının 28-dən avqust ayının 7-dək Gürcüstanda qastrolda oldu. Qastrola on bir səhnə əsəri aparılmışdır ki, bunlara H. Cavidin "Şeyx Sənan" (3, 4, 12, 14, 20, 1), C. Cabbarlının "Solğun çiçəklər" (7, 17, 18, 25, 27), "Almaz" (7, 28), S. Vurğunun "Vaqif" (21, 22, 26, 31, 4, 5) və "Fərhad və Şirin" (30, 1, 9, 11, 19, 3, 6), S. Rüstəmin "Qaçaq Nəbi" (13, 24, 29, 2), S. Rəhmanın "Xoşbəxtlər" (5, 9, 14, 20, 1, 3), C. Məcnunbəyovun "İliç buxtası" (6, 10), İ. Səfərlinin "Ana ürəyi" (2, 15, 23, 29, 30), V. Şekspirin "Qış nağılı" (8, 17, 25), Y. Osnos və V. Vinnikovun "Hind gözəli" (11, 15, 19, 23, 29, 30) tamaşaları aid idi. Və bu tamaşalar 52-dəfə nümayiş edildi. Qastrolun açılışı və bağla-

nışı “Fərhad və Şirin” tamaşası ilə olmuşdur. Hökümə Qurbanova qastrol müddətinə Xumar, Şirin, Könül, Sevgili, Germiona və b. obrazlarla çıxış etdi. Gürcüstanda işıq üzü görən “Zarya Vostoka” qəzeti Hökümə xanımın ifa etdiyi tamaşalar haqqında tutarlı məqalələr nəşr etdirdi.

# III FƏSİL
# SƏNƏTİN ZİRVƏ DÖVRÜ (1961-1988)

*Fitri istedad sahibi olan Hökümə xanım*
*məharətlə yaratdığı səhnə obrazları ilə*
*tamaşaçını ələ alıb düşündürmək bacarığı*
*sayəsində nadir bir sənətkar kimi şöhrətlənmişdir.*

**Adilə İsmayılova**

Hökümə xanım Qurbanovanın yaradıcılığının zirvə dövrü altımışıncı illərdir. Bu illərdə görkəmli səhnə ustası özünü müxtəlif xarakterli obrazların mahir ifaçısı kimi tanıtmışdır. O, lirik, qəhrəmanlıq və faciəvi səpgili obrazları ilə bənzərsiz sənətkarlar səviyyəsinə yüksəlmişdir. “Aktrisa orijinal tərcümə pyeslərində, tarixə aid əsərlərdə, müasir və klassik repertuarda faciə, dram, komediya janrında biri-birindən heyrətli dərəcədə fərqli rollar oynamış, yüksək sənət meyarı ilə ölçülə və qiymətlənə bilən zəngin səhnə obrazları yaratmışdır” (16).

Hökümə Qurbanova 1961-1969-cu illərdə S. Rəhmanın “Əliqulu evlənir” komediyasında Nazlı (rej. M. Məmmədov, 09.03.1961); V. Hüqonun “Mariya Tüdor” faciəsində Mariya Tüdor (tərcümə M. Məmmədov, rej. T. Kazımov, 17.03.1962); M. İbrahimovun “Kəndçi qızı” komediyasında Bənövşə (rej. M. Məmmədov, 21.12.1962); H. Cavidin “Səyavuş” faciəsində Südabə (rey. Ə. Şərifov, 14.03.1963); V. Şekspirin “Antoni və Kleopatra” faciəsində Kleopatra (tərcümə T. Əyyubov, rej. T. Kazımov, 23.04.1964); F. Şillerin “Orlean qızı” faciəsində İoanna (Tərcümə T. Əyyubov, rej. Ə. Şərifov, 14.10.1965); Q. Rəsulovun “Söz yarası” pyesində Səhərgül (rej. Ə. Şərifov, 14.04.1966); Ç. Aytmatovun “Ana torpağı” əsərində Tolqonay (tərcümə T. Əliyev, rej. H. Sultanov, 28.12.1966); Ş Qurbanovun “Sənsiz” dramında Sevinc (rej. T. Kazımov, 02.06.1967); M. İbrahimovun “Közərən ocaqlar” əsərində Maral

(rej. Ə. Şərifov, 07.11.1967); B. Vahabzadə "İkinci səs" pyesində Arzu (rej. Ə. Quliyev, 19.04.1969) obrazlarını ifa etmişdir.

1961-ci il mart ayının 9-da S. Rəhmanın "Əliqulu evlənir" komediyası M. Məmmədovun quruluşunda tamaşaya qoyuldu və Nazlı rolunu H. Qurbanova ifa etdi.

Bu əsəri tamaşaya Adil İsgəndərov hazırlayırdı. O, Gürcüstanda qastrolda olarkən hər gün məşq edirdi, artıq stolarxası məşqlərdə başa çatmışdır və müxtəlif şəkillərin mizanları qurulurdu. Lakin 1960-cı il oktyabr ayının 22-də A. İsgəndərov direktor və bədii rəhbər vəzifəsindən uzaqlaşdırıldı və bu əsər Mehdi Məmmədova tapşırıldı. "Əliqulu evlənir" baş rejissor kimi Akademik Milli Dram Teatrında M. Məmmədovun ilk işi idi. O, A. İsgəndərovun rol bölgüsünə toxunmadı.

"Sabit Rəhmanın "Əliqulu evlənir" komediyasının tamaşası da böyük rəğbətlə qarşılandı... A. S. Gəraybəyli, M. Ə. Vəlixanlı (ilk tamaşadan sonra Xəlil rolunun ifaçısı Məmmədəli Vəlixanlı xəstələndi və bir daha səhnəyə çıxmadı, aprel ayının 12-də 1969-cu ildə rəhmətə getdi, İ. Osmanlı Xəlil rolunun daimi iştirakçısı oldu-İ.A.), H. Qurbanova... və bir çox başqalarının iştirakı ilə yaranan bu maraqlı tamaşa teatr kollektivinin, eləcə də görkəmli dramaturqun yeni yaradıcılıq imkanlarının təzahürü idi" (22).

""Əliqulu evlənir" komediyasında müəllif müsbət obrazların sayını artırmaqdan, onlara çox yer verməkdən başqa, intriqa mexanizmini, ixtilaf yayını hərəkətə gətirməyi də əslində onlara həvalə eləmişdir. Nazlının da öhdəsinə bu mənada böyük vəzifə, fəal işlər buraxılmışdır. O, həm Əliqulunu "cəzalandırmalı", həm də öz qısqanc əri Rövşəni tənbeh edib onu tərbiyələndirməlidir. Nazlı-H. Qurbanova tamaşada öz fəallığı, şuxluğu, tədbirli və ağıllı hərəkəti, mehriban xasiyyəti ilə fərqlənir. O, öhdəsinə düşən dramaturji rolu, bütünlükdə isə Nazlının rolunu-xarakterini müvəffəqiyyətlə yaradırdı" (16).

Komediyadakı Nazlı müsbət obrazdır. H. Qurbanova Nazlının xarakterini düzgün acaraq tamaşaçılara göstərmişdir. Onu əri Röv-

şən (Fateh Fəullayev) və Əliqulu (Ağasadıq Gəraybəyli) ilə olan səhnələri real və inandırıcı ifa ilə zəngin idi.

Hökümə xanım daban-dabana zidd olan müxtəlif xarakterli obrazları böyük sənətkarlıqla ifa edib. Nazlı kimi adi məişət obrazından sonra Mariya Tüdor kimi son dərəcə zəngin və mürəkkəb xarakterli qanlı kraliçanı tamaşaçılar qarşısında canlandırmaq, əlbəttə fitri istedanın nəticəsi idi.

1962-ci il mart ayının 17-də T. Kazımovun quruluş verdiyi və M. Məmmədovun tərcümə etdiyi Viktor Hüqonun "Mariya Tüdor" faciəsi tamaşaya qoyuldu və Hökümə Qurbanovaya əsərin baş qəhrəmanı Mariya Tüdor obrazı tapşırıldı.

Dahi fransız ədibi V. Hüqo XVI əsrdə İngiltərə həyatından bəhs edən bu əsəri 1833-cü ildə yazmışdır. "Viktor Hüqo özünə məxsus böyük bədii qüvvə ilə saray ilə xalq arasındakı dərin, keçilməz uçurumları, xalq kütlələrinin həlledici bir amil olduğunu inandırıcı bədii boyalarla təsvir etmişdir. Öz ordusuna, məhkəməsinə, cəlladlarına arxalanan, rəiyyətə nifrət bəsləyən Mariya Tüdor nə qədər qanlı bir kralısa olsa belə, o, hiss edir ki, xalqın əzəməti, qüdrəti qarşısında acizdir... Hökümə Qurbanova əsərin baş qəhrəmanı olan Mariya Tüdor rolunda çıxış etdi. Hökümə xanım, Mariya Tüdor rolu ilə bir daha sübut etdi ki, nə qədər böyük, dərin bir istedada, nə qədər əzəmətli sənətkar qüdrətinə malikdir!" (8).

Hökümə Qurbanovanın Mariya Tüdoru, qaniçən, qəddar kraliça olmaqla bərabər, həm də böyük qəlb ilə sevən bir insan idi.

C. Cəfərov yazır ki, "Biz səhnəmizdə Hökümə Qurbanovanı klassik repertuarda az görmüşük. Lakin hiss olunur ki, şöhrətli klassik obrazlar yaratmaq üçün aktrisanın hər bir imkanı vardır. O, Mariya Tüdorla bunu sübut etdi. Hökümə Qurbanova bu obrazı yaradırkən başlıca olaraq dramaturqun öz qeydlərinə, obraza verdiyi təhlilə əsaslanmışdır. Pyesə yazdığı müqəddimədə Viktor Hüqo qeyd edir ki, Mariya Tüdor simasında o, eyni zamanda həm böyük bir kraliça, həm də həqiqi bir qadın göstərmək istəmişdir.

Hökümə xanım çox dolğun bir obraz yaradır. O, Viktor Hüqonun qəhrəmanlarının çox fəal təbiətli olduqlarını yaxşı dərk

etdiyindən, öz Mariyasını hədəfə doğru böyük bir qətiyyətlə aparır. Hökümə Qurbanova qadın Mariyanı, kraliça Mariyaya nisbətən güclü oynayırsa, bu, tamaşanın ümumi istiqamətinə, ictimai ruhuna daha da kömək edir.

Romantik obraz ifaçısından böyük fiziki qüvvə tələb olunur. Aktrisamız bu qüvvəyə malikdir. Onun səsi də, nəfəsi də çatır ki, haldan-hala, rəngdən-rəngə düşən, böyük sarsıntılar keçirən, kraliça ilə qadın arasında çırpınan dərin məzmunlu və zəngin boyalı bir səhnə obrazı yaratsın. Hökümə xanımın yaratdığı Mariya Tüdor həqiqətən bir sənət əsəridir" (8).

Bu fikirlərdə çoxlu həqiqətlər var ki, onlardan biri də Mariya Tüdorun sənət əsəri olması fikridir. Hökümə xanımın yaratdığı obrazların əksəriyyəti sənət əsəri səviyyəsinə yüksəlib. Onun Məryəmi, Germionası, Xumarı, Yelena Andreyevnası, Şirini həqiqətən böyük sənət əsərləridir. Hökümə xanımın qarşıda böyük sənət qələbələri çox olacaq... Bəli, məhz Hökümə Qurbanovanın! Azərbaycan səhnəsinin əfsanəvi sənətkarının, bənzərsiz səhnə ustası Hökümə Qurbanovanın!!!

"Tamaşanın müvəffəqiyyətində səhnəmizdə böyük ehtiraslı xarakter-Mariya Tüdor obrazını yaratmış Hökümə Qurbanovanın əməyi xüsusilə qeyd edilməlidir. O, patetik təsir gücünə malik olan oyunu ilə iyrənc qadınlıq hisslərinin əsiri, həqiqi məhəbbət duyğusundan uzaq, dövlət başçısına yaraşmayan naqis ehtiraslı Mariyaya tamaşaçıların nifrətini qazandıra bildi" (22).

Hökümə Qurbanova Mariya Tüdor obrazı ilə sübut etdi ki, o, dünyanın faciə aktrisaların ilə bir cərgədə dura bilər, bəlkə də onlardan üstün olar.

""Mariya Tüdor" tamaşası da, onun qəhrəmanı da özü özlüyündə yeni hadisə idi. Azərbaycan səhnəsində bu vaxta qədər böyük fransız yazıçısının romanları əsasında yaranmış tamaşalar göstərilmişdi. "Mariya Tüdor" romantik dramı ilə tamaşaçılara müəllifin bilavasitə dramaturgiyası təqdim olunurdu. Bu təşəbbüsün uğurla nəticələnməsi yenə baş rolun ifaçısından, Hökümə Qurbanovadan çox asılı idi. Aktrisa bu ümidi parlaq nəticə ilə doğrultdu. O, zalım kra-

liça (tarixçilərin adlandırdığı kimi “qanlı Mariyanı”) və dəlicəsinə sevən qadını, hər iki sifətdə öz ehtirası və xudbin niyyətləri üçün günahsız qanlara, qurbanlara səbəb olan bu mürəkkəb və ziddiyyətli xarakteri yüksək sənətkarlıqla yaratdı. Aktrisanın ifasından alınan təəssürat belə idi” (16).

Hökümə Qurbanovanın Mariyasında yırtıcılıqla humanistlik vəhdət təşkil edirdi. Aktrisa bir-birini zidd olan bu xətləri elə ustalıqla çarpazlaşdırırdı ki, nəticədə Mariya Tüdor kimi canlı və əzəmətli bir obraz meydana gəlirdi.

“Qüdrətli aktrisamız, Mariya Tüdor simasında məhəbbətin məngənəsində çırpınan, hökmranlıq tac-təxtində isə qanlı fərmanlar verən bir qadının təbiətindəki müxtəlif xüsusiyyətlərini üzvi surətdə birləşdirir, onun bir-birinə zidd cizgilərini bir vəhdət halında ifadə edir, tam məna, tam təəssürat yaradır. Hökümə xanım, bəzən, eşqin, məhəbbətin əlində aciz qalan kövrək ürəkli bir qadın, bəzən də bütün ətrafını gəmirən bir pələngə çevirir. O, “Mariya Tüdor” tamaşasının bütün iştirakçılarından yüksəkdə durur, öz məharətli, coşqun, şəlalələr kimi coşub-çağlayan ilhamı ilə bütün iştirakçıları öz ardınca çəkib aparır” (8).

Klassik dramaturgiyada iştirak etmək hər səhnə xadimi üçün çətin olduğu kimi, həm də şərəflidir. Gərək ifa etdiyin hər hansı bir obrazın, xüsusən klassik rolların məsuliyyətini dərk edəsən. Və baxıb öyrənəsən ki, səndən əvvəl bu obrazı kim və necə ifa edib. Onun oyununun çatışmayan cəhətləri nə idi. Hökümə xanım həmişə yeni obraz ifa edərkən həmin rolun ondan əvvəlki iştirakçılarının kimlər olduğunu və necə ifa etdiyini, hansı səhvləri buraxıb ya buraxmayıb kimi halları öyrənərdi ki, öz ifasında onlara fikir versin.

Mariya Tüdoru isə Azərbaycan səhnəsində ilk dəfə Hökümə xanım ifa etdiyi üçün o bu işin məsuliyyətini dərk etdi ki, özündən sonra gələn nəsillər bu rolu ifa etdikdə, öz sələfindən lazımi şeyləri əxs edə bilsin.

“Mariya Tüdor tamaşada barışmaz ziddiyyətlərin meydanında təsvir edilirdi. Bu ziddiyyətlər mütləqiyyətçi qadın-hakimin ehtirasları ilə onun məhz bir qadın kimi istəkləri arasında baş verirdi. H.

Qurbanova öz qəhrəmanında Mariya-qadını daha artıq qiymətləndirirdi; məhz onun hakimiyyətinə, emosional təhriklərinə tabe olur və belə bir Mariya ilə qanlı məlaikə arasında ziddiyyət daha qabarıq görünürdü" (5).

Hökümə Qurbanova romantik səpgili bu faciədə Mariyanın daxilindəki təzadı, zərgər dəqiqliyi ilə tamaşaçılara açıb göstərməyə müvəffəq olurdu. Aktrisanın Mariya Tüdoru sənət baxımından o qədər yüksəkdə idi ki, ona ancaq həsəd aparmaq olardı.

"Hökümə Qurbanova Mariya Tüdorun faciəsini, məhz onun mütləqiyyətçi, hakim ehtirasları ilə adi qadın istəkləri arasındakı uçurumda görürdü və göstərirdi ki, daxilən əzab çəkən, inildəyən qadın Mariya ilə qanlı kraliça Mariya arasındakı ziddiyyət olduqca güclüdür" (13).

Hökümə Qurbanova yaratdığı bu obrazın taleyini, arzu və istəklərini dəqiq göstərərək ifa etdiyi bu mənfi kraliçaya haqq qazandırmağa çalışır və buna nail olurdu. Bu belə olmalıdır. Aktyor gərək ifa etdiyi obraza haqq qazandırmalı və onun dediyi sözə özü inanmalıdır ki, tamaşaçını da inandıra bilsin. Hökümə xanımda bu inam çox güclü idi.

"Romantik aktyor məktəbinin Hökümə Qurbanova kimi qüdrətli təmsilçisini Tofiq Kazımov Mariya Tüdor rolunda "sındıraraq" onu sırf psixoloji teatr poetikasının tələblərinə cavab verən faciə aktrisası təki üzə çıxardı. Hökümə Qurbanova səhnədə tam sərbəst və çevik davranır, məkan "boşluğundan" məharətlə istifadə edirdi. Acılı hisslərini idarə edə bilməyən qanlı kraliçanın törətdiyi fəlakətlərin xofunu, vahiməsini psixoloji dərinliklə çatdırır, faciənin kökünü fərdi köklərdən şaxələndirərək ictimai-sosial səbəblərlə bağlayırdı.

Hökümə xanımın mizanlarını səhnə boyu verən Tofiq Kazımov aktrisaya digər personajları Mariya Tüdor ətrafında müxtəlif şəkildə birləşdirmək, ünsiyyəti gücləndirmək funksiyasını tapşırmışdı. Təcrübəli aktrisa ifadə-üslub baxımından onun üçün yeni olan bu formanın icra mexanizmini heyranedici çevik və zərif hərəkətlərlə mənalandırırdı" (20).

Akademik Milli Dram Teatrı 1964 il, iyul ayında İrəvan şəhərində qastrolda oldu. Hökümə xanım qastrol müddətində üç dəfə Mariya Tüdor rolunu ifa etdi. Mətbuat bu görkəmli səhnə xadiminin ifasını yüksək qiymətləndirdi.

"Sovetakan Hayastan" qəzeti (07.07.1964) yazır ki; "Hökümə Qurbanovanın yaratdığı Mariya obrazı ölməzdir. Şahanə yeriş, gözəl zahiri görünüş, həyəcanlı səs, odlu və hərarətli daxili aləm, anbaan dəyişən fikir-niyyət, ziddiyyətlər, hər şeyi üstələyən məhəbbət divanəliyi, bunlarla yanaşı tez-tez özünü göstərən hökmranlıq iddiası-Hökümənin yaratdığı kraliçanın xarakter xüsusiyyətləridir... Qurbanova gözəl artistlik məharəti, böyük istedad və əsil sənətkarlıqla oynayır. O, əsil faciə artistidir".

Polşada nəşr olunan incəsənət jurnalında da Hökümə xanım Mariya Tüdor obrazına yüksək qiymət vermişdir.

Bütün bu deyilənlərdən belə nəticəyə gəlmək olar ki, Hökümə Qurbanvanın tamaşaçılara təqdim etdiyi Mariya Tüdor obrazı Azərbaycan teatr tarixində qalan nadir obrazlar silsiləsindəndir.

1962-ci il dekabr ayının 21-də M. İbrahimovun "Kəndçi qızı" komediyası M. Məmmədovun quruluşunda səhnəyə qoyuldu. Tamaşanın baş qəhrəmanı Bənövşə obrazını Hökümə Qurbanova yaratdı.

Əsərin əsas üstün cəhəti ondan ibarət idi ki, M. İbrahimov Azərbaycan dramaturgiyasında ən yaxşı müsbət qadın obrazını dramda yox, faciədə yox, məhz komediyada yaratmışdır. Şübhəsiz ki, belə bir dolğun obrazın komediyada yaranması və həm də müsbət qəhrəmanın yeni tipi, müəllifin uğuru idi.

Bu komediyada janrın poetikası zənginləşirdi. Burada məzmun və forma, fikir və ifadə vasitələri, janrdakı bitkinlik əsərin yüksək keyfiyyətinə dəlalət edirdi. Bu tamaşada Hökümə xanımın ifa etdiyi Bənövşə yüksək mənəvi keyfiyyətlərə malik idi. Aktrisa Bənövşənin əxlaqını, mehribanlığını vəhdətə göstərirdi.

M. Arif "Kommunist" qəzetində (16.01.1963) yazır ki; "Aktrisa Hökümə xanım öz yaxşı oyunu ilə diqqəti daha çox cəlb edir. Onun ifa etdiyi Bənövşə rolu çətin roldur. Aktrisa gah sadə və utancaq bir "kəndçi qızı", gah "qız və ya oğlanlığı məlum olmayan"

qabaqcıl bir traktorçu, gah da işvəkar həkim qız simasında tamaşaçıların qarşısına çıxır. Burada ustalıq, yalnız maskaları dəyişməkdə deyildir, hər bir obrazı daxilən yaratmaq sənətindədir. Aktrisa bu rolun öhdəsindən bacarıqla gəlir, şablona yol vermədən hər üç obraz üçün diqqətlə işlənmiş hərəkət və danışıq tərzi tapır, hər üçünü təbii, səmimi və inandırıcı oynayır".

Lirik komediya janrında qələmə alınmış "Kəndiçi qızı"ndakı Bənövşə əsərin mərkəzində duran qəhrəmandır. Bu komediyanın daxilində üç komediya olduğu kimi, aktrisa bu komediyada da üç rol ifa edir ki, bunların da hamısı Bənövşə-Hökümə xanımın siması idi.

"Bənövşənin-Hökümə xanımın səhnəyə hər gəlişi tamaşaçılar arasında nəcib hisslər, şən duyğular oyadır. Salonda səhnədəki əhvalatlardan doğan şən qəhqəhələr eşidilir... Bu tamaşaya qiymət verən bütün qəzetlərdə göstərilir ki, aktyor-aktrisa oyunu cəhətdən ilk planda, şübhəsiz, Hökümə Qurbanova durur. Teatrımızın fəxri olan bu aktrisa, indiyədək yaratmış olduğu bütün obrazlardan seçilən bir obraz yaradır. Bənövşə çox mürəkkəb bir roldur. Lakin bu mürəkkəb rolu o nə qədər aydın, parlaq oynayır! Hökümə xanım, bir tərəfdən, bəzilərinin təsəvvür etdiyi sadə və guya "ibtidai" kəndçi qızını, digər tərəfdən doktor Nərgizi, üçüncü tərəfdən isə mexanizator Bənovşəni əslində olduğu kimi oynamalıdır. Bu vəzifə çətindirmi? Əlbəttə, çətindir. Çünki aktrisa obraz içində obraz yaratmalıdır" (8).

Bənövşə-Qurbanova hadisələr inkişaf etdikcə gah kəndçi qızı, gah traktorçu, gah da Nərgiz (aktrisa, həkim) olurdu. Utancaq kəndli, hay-küylü traktorçu və xanım-xatın həkim. Lakin bunlara baxmayaraq o yenə Bənövşə idi. Bütün bu incə detalları Hökümə xanım elə böyük sənərkarlıqla ifa edirdi ki, tamaşaçıların ona valeh olmaması mümkün deyildir.

C. Məmmədov yazır ki; "Bənövşə rolunda çıxış edən Hökümə xanım bu tamaşada əsil səhnə ustası olduğunu bir daha sübut etdi. O, bu tamaşada bir-birindən tamamilə fərqlənən üç obraz yaradır! Hökümə xanım bunların hər birini tamaşa salonunda dərin əks-sədalar oyadan bir vüsətlə oynayır. Qarşımızda üç qız canlanır: Biri utancaq kəndçi qızıdır, biri özünə inanan, nəşəli, üzügülər traktorçu,

digəri isə son moda ilə bəzənmiş füsunkar və işvəli qız. Bunların hər üçü də hamının hüsn-rəğbətini qazanan məlahətli bir insan. Bunların hər üçündə də Hökümə xanım cazibədar bir ustaddır" (8).

"Kəndçi qızı" komediyası haqqında yazılmış məqalələrə baxanda görürsən ki, tamaşada iştirak edən bəzi aktyorlar haqqında xırda qüsurlar qeyd olunur. Bircə Hökümə xanımdan başqa. Bütün məqalə müəllifləri Hökümə xanımın böyük ustalıqla yaratdığı Bənövşədən ürək dolusu ilə danışıblar. O, bu tamaşada üç obraz oynayıb, yox oynamayıb, yaradıb, özü də sözün tam mənasında, ürəkləri fəth edərək yaradıb.

""Kəndçi qızı" komediyasındakı çoxcəhətli, "çoxsifətli" Bənövşə obrazı belə bir təhlil və öyrənmə prosesində, müəllif və rejissorla birgə laboratoriya işi aparmaq nəticəsində bu dərəcə səlis və aşkar yaranmışdır. Bənövşənin-Hökümə xanımın "çoxsifətliliyi" onun əsil sifətini, vahid xarakterini əyan etmək üçün vasitədir. Bir iksir, bir turşu kimi məişətdəki, insanların şüurunda, fikrində və işindəki pası-paxırı açan və təmizləyən bu müasir kənd qızının çətin xarakteri sənətkar məharəti və incəliyi ilə göstərilir" (15).

H. Qurbanovanın ifasında Bənövşə işində dəqiq, düz bir insan idi. Başqalarının halına acıyan Bənövşə-Qurbanovada qəlb o qədər təmiz və saf idi ki, o, hər insanın ağrı-acısını özününkü bilirdi. Onun ifa etdiyi Bənövşə ayıq, zirək və namuslu idi.

"H. Qurbanovanın Bənövşəsi üç müxtəlif simada çıxış edirdi. Ürkək və utancaq kəndli qızı, şən, dəcəl traktorçu və nazlı, əzilib-büzülən bir aktrisa. Hər üç halda o, tamaşaçıların rəğbətini qazanan cazibəli bir Bənövşə olaraq qalırdı" (22).

Hökümə xanımın ifasında Bənövşə dolğun və canlı surət idi. Aktrisa Bənövşə obrazı ilə tamaşaçılara yeni müsbət qəhrəmanın obrazı təqdim etmişdir. H. Qurbanovanın Bənövşəsində bütün insani keyfiyyətlər yeni idi.

""Kəndçi qızı" komediyasındakı Bənövşə pyesin mərkəzi obrazı, əsas qəhrəmanıdır. Müsbət obrazın komediya qəhrəmanı olması dramaturgiya tarixində nadir haldır. Janrın poetikasına görə əsas qəhrəman gülüş hədəfi olur, tənqid və ifşa olunur. Bu dəfə

tərsinə, əsas qəhrəman, yəni Bənövşə özü gülür, tənqid və ifşa eləyir. Bu nadir situasiya janrın təbiətini qorumaq, komikliyin şiddətini saxlamaq üçün ifaçıdan xüsusi hünər tələb eləyir. Bundan əlavə aktrisanın qarşısında bir çətin məsələ də dayanır. O, bir rolda üç rol oynamalı, hadisələrin davamında gah kəndçi qızı, gah traktorçu, gah da aktrisa Nərgiz cildində səhnəyə gəlməlidir. Bundan sonra isə aktrisa tamaşanın öz səpkisindəki, üslubundakı şətrləri gözləməli, şərti tamaşa üsulunu, realist ifa tərzi ilə uyuşdurmalı idi. Hər üç halda, cilddən-cildə düşdüyü hallarda Bənövşə-Hökümə Qurbanova öz əsil simasını saxlayır, yaxşılara yaxşı olur, pislərə, naqis, nacins təbiətli, tüfeyli xasiyyətli adamlara isə amansız, hətta, rəhimsiz rəftar göstərir. Ondan ən rəhimsiz rəftar görən Vahiddir. Bənövşənin paxırları açan kislota (turşu-İ.A.) və iksir qüvvəsi Vahidin astarını üzünə çevirir, rüsvay edir, onu "ciyərinə qədər yandırır". Çoxlu vəziyyətlərdə çoxlu görkəm alan, gülən və güldürən Bənövşənin əsil siması bunda görünür və elə buna görə də tamaşaçıda özünə qarşı dərin rəğbət oyada bilirdi" (16).

Hökümə xanımın Bənövşəsi həm Vahidə (bu rolu xalq artistləri M. Sənani və H. Turabov ifa edirdilər) nifrət edirdi, həm də ona acıyırdı. Ona görə Vahidə acıyırdı ki, onun tikanlı, təsirli sözlərə ehtiyacı var idi.

"H. Qurbanova kəndçi qızı Bənövşə rolunu bədii qüvvətlə yaradırdı. Əsərdəki hadisələrlə əlaqədar olaraq Bənövşə müxtəlif rollarda-həkim Nərgiz, traktorçu qız Bənövşə və Vahid Səfayinin təsəvvüründəki sadəlövh kəndçi qızı rolunda çıxış edirdi. Aktrisa bu rolların yalnız xarici rəsmini deyil, daxili aləmlərini, xarakter xüsusiyyətlərini də düzgün göstərirdi. O, ağıllı və düşüncəli işi, məntiqi hərəkətləri ilə sübut edirdi ki, yaşamağın mənasını namuslu əməkdə görən, təmiz bir məhəbbətlə sevməyi bacaran Bənövşə, üst-başını bəzəyən, zəhmət adamlarını bəyənməyən Vahid Səfayi kimilərdən qat-qat yüksəkdə durur" (13).

Tamaşadakı kəndçi qızı Bənövşə-Qurbanovanın həyatdakı mövqeyi yalnız geyindiyi kombinzon və sürdüyü traktor deyildi.

Hökümə xanım Bənövşənin daxili zənginliyini bu atributlarsızda çox gözəl əks etdirirdi.

"Bu tamaşada H. Qurbanova özünün ən yaxşı müasir rollarından birini oynayırdı... Bənövşə surəti ilə ifadə edilən daha nəcib fikir bu idi ki, həyata fəal, mübariz, yaradıcı münasibət insanlar arasında təmiz, saf və gözəl qarşılıqlı münasibətlərə mənəvi zəmin olur. Bənövşə iş, əməl adamı, mübariz, temperamentli bir qızdır, o, heç nəyə biganə qalmır, başqalarının taleyi ilə də öz şəxsi taleyi səviyyəsində maraqlanır. O, daxilən inanmışdır ki, hər bir adam mənəviyyatımıza zidd əxlaqi keyfiyyətlərin hər hansı təzahürünə qarşı amansız olmalı və ona mübarizə elan etməlidir. Müasir azad insan həmişə ayıq, oyaq və zirəkdir, onda kifayət qədər fantaziya vardır və onun həyatda getdiyi yol hər dəfə yeni, hər dəfə qeyri-adidir. Bənövşə də məhz belə surətdir. Çoxlarının səadətini pozan, özünə əmin, lovğa bir "professor oğlu"nun meşşan mahiyyətini ifşa etmək üçün o, mürəkkəb bir yol seçir. Artistlik istedadına malik Bənövşə öz məqsədinə nail olmaq üçün dəfələrlə cildən-cildə, roldan-rola girir.

Bütün bunları yaxşı duyan təcəssüm etdirən H. Qurbanovanın Bənövşəsi üç müxtəlif simada çıxış edirdi. Ürkək və utancaq kəndli qızı, şən, dəcəl traktorçu və nazlı, əzilib-büzülən bir aktrisa. Hər üç halda da o, tamaşaçıların rəğbətini qazanan cazibəli bir Bənövşə olaraq qalırdı" (5).

"Cəsarətlə demək olar ki, "Kəndçi qızı" Hökümə Qurbanovanın sənət qələbəsi idi. Mariya Tüdor kimi qanlı faciələr törədən kraliçadan sonra komik Bənövşəni oynamaq yalnız istedadların qismətinə nəsib olan səadətdir.

Hökümə xanım Vahidi çaş-baş salan kəndli Bənövşəni, tələbə Bənövşəni və mexanizator Bənövşəni cüzi səsdəyişmə variasiyaları, ancaq əsaslı hərəkət davranış toplusunda məharətlə əlaqələndirməklə komediyanın sosial, məişət qatlarında və həmçinin mənəvi təbəddülatlar burulğanında əlaqələndirirdi. Onun qətiyyətli, "avam", "sadəlöhv" boyalarında inandırıcılıq realizmdən şirələnirdi" (20).

Tamaşadakı konflikt Bənövşə-H. Qurbanova ilə bağlı idi. O, tamaşanın ideya təcəssümçüsü idi. Hökümə xanımın Bənövşəsi

tamaşada mərkəzi sima, əsas və istiqamətverici qüvvə idi. Aktrisa lirik səciyyə daşıyan Bənövşəni yüksək sənətkarlıqda tamaşaçıların yaddaşına həkk edə bildi.

Akademik Milli Dram Teatrı 1964-ci ilin iyul ayında Yerevan şəhərində qastrolda oldu. H. Qurbanova qastrol müddətində dörd dəfə "Kəndçi qızı" tamaşasında Bənövşə rolunda çıxış edib. Qastrolun açılışı "Kəndçi qızı" tamaşası ilə olub.

"Biz bu qüdrətli sənətkarı eyni zamanda romantik təbiətli qəhrəman və xarakter rollarda da görmüş, onun yeni sənət zirvələrinə doğru yüsəldiyinin şahidi olmuşuq. Bu cəhətdən Hökümə Qurbanovanın səhnəmizdə böyük ustalıqla yaratdığı Mariya Tüdor və kəndçi qızı Bənövşə təzadlı boyalarla işlənmiş həqiqi sənət nümunələridir" (23).

1963-cü il mart ayının 14-də Ə. Şərifov tərəfindən tamaşaya qoyulan H. Cavidin "Səyavuş" mənzum faciəsində Hökümə Qurbanova İran şahının zövcəsi olan Südabə rolunu ifa etdi.

Mərziyə Davudovadan sonra Südabə obrazı Hökümə xanımın ifasında öz layiqli ifaçısını tapmışdır. "Şeyx Sənan"dakı təmiz, pak Xumardan sonra qəddar, qaniçən Südabəni ifa etmək aktrisadan şübhəsiz gərgin əmək tələb edirdi. Lakin qüdrətli səhnə ustası Hökümə Qurbanova Südabə obrazını yaratdı və tamaşaçılar qarşısında bu imtahandan da müvəffəqiyyətlə çıxdı.

"Südabə varlığı məkr və hiylədən yoğrulmuş çılğın bir afət, fitnə və xəyanətlər törətmək yolu ilə qara niyyətlərinə yol açan rəzil bir qadındır. Onun nəzərində müqəddəs və təmiz bir şey yoxdur. Həyat nəşəsi ilə çağlayan günahsız bir qəlbi Südabə mərhəmətsizcəsinə və heç bir əzab çəkmədən zəhərləyir; ən müqəddəs inamları-şübhəyə, ən pak niyyətləri-iftiraya və ən şirin arzuları-sönük bir həvəsə döndərir. H. Cavidin təsvir etdiyi Südabə belədir. Tamaşada Südabə rolunda Hökümə Qurbanova çıxış edir. Bir sıra maraqlı, orijinal və təsirli surətlər yaratmış sənətkarın bu əsərdəki məharəti, yeni vüsət kəsb etmişdir. H. Qurbanova Südabəni hadisələrin əvvəlindən axırınadək tədriclə dəyişərək təkmilləşmə və kamilləşmə prosesində inkişaf etdirib, bədii yüksəkliyə qaldırır. "Ehtirasın qara yelkəni" kimi səhnəyə daxil olan Südabə-H. Qurbanova qəlbində baş

qaldıran mənhus duyğuları sakitləşdirmək məqsədi ilə bir-birindən qorxulu, ağır və müdhiş cinayətlər törədir və axırda öz qurbanının nəşi üzərinə qonmuş quzğun kimi amiranə nəzərlərlə ətrafı süzür.

Hökümə Qurbanova duyğuları ağlına, ehtirasları fikrinə və istəkləri mühakimələrinə qələbə çalan mərkli afətin surətini bütün mürəkkəbliyi və incəliyi ilə tamaşaçının nəzərində canlandıra bilir. Südabə fitnə-fəsad təcəssümü, qansız və qəddar bir hərəm, kinli, azğın və çılğın qadın kimi də H. Qurbanovanın ifasında özünün real, dolğun ifadəsini tapmışdır. H. Qurbanova oynadığı bu surətin üzərində hərtərəfli yaradıcılıq işi aparmış, bu surətin psixoloji xüsusiyyətlərini, xarakterinin bütün incəliklərini dərindən duymuş və tamaşada xüsusi bir qabarıqlıqla nəzərə çarpan, uzun müddət yaddan çıxmayan, qüvvətli bir surət yaratmışdır" (7).

Əsərdə ki, Südabə Suriya Kralının qızı və İran şahı Keykavusun zövcəsidir. Yəni bu o deməkdir ki, əlinin üstündə əl yoxdur. Sarayda onun dediyi qanun olmalı, onun bütün istəyi həyata keçməli, onun bir sözü iki olmamalıdır. Bu Südabə obrazının xarakterdir. Hökümə Qurbanova bu xarakterin müqabilində Südabə obrazını ifa etdi. Obrazın xarakterini düzgün dərk edən Hökümə xanım Südabəni H. Cavid dramaturgiyası səviyyəsində yaratmağa müvəffəq oldu.

"V. Hüqonun "Qanlı Kraliça"sında ustalıqla Mariya Tüdor, lap son zamanlar isə "Kəndçi qızı"nda Bənövşənin surətini yaratmış Hökümə Qurbanova "Səyavuş"da Südabə rolunu məharətlə ifa edir. Biz Hökümə xanımın yaratdığı Südabənin qeyri-adi məhəbbətinə, onun dağ seli kimi güclü və hər şeyi uçurub-dağıtmağa hazır olan ehtiraslarının gücünə inanırıq. O, ehtirasın şüura qalib gəldiyi, cavabsız məhəbbətin amansız nifrətə və qəzəbə çevirdiyi anları coşqunluqla ifa edir" (11).

Hökümə xanımın ifa etdiyi Südabə təbiətən oynaq, ehtiraslı, baxışlarından od saçan Suriya şahzadəsi idi. Səyavuşun analığı olan Südabə-Qurbanova ona aşiq olur və buradan da Səyavuşun (bu rolu Ağadadaş Qurbanov ifa edirdi) faciəsi başlayırdı. Səyavuşun onun eşqinə boyun əymədiyini görən Südabənin-H. Qurbanovanın bütün

xarakteri dəyişirdi. Aktrisa bu jestləri, pauzaları çox böyük sənətkarlıqla ifa edirdi.

"Südabə bitkin, zəngin səhnə əsəri kimi seçilir. Azərbaycan səhnəsinin faciə ustası Mərziyə xanımdan sonra Südabə obrazı H. Qurbanovanın simasında yeni, ləyaqətli ifaçı tapmışdır. Südabə Xumardan kəskin surətdə fərqli, tamam başqa fakturalı, daha mürəkkəb, xalis dramatik obrazdır. Onu oynamaq üçün aktrisadan daha kamil bacarıq, daha böyük ustalıq, daxili hərarət və yaşantı, hissiyyat və ehtiras, asan alışan temperament tələb olunur. Lakin bu da azdır. Südabə təkcə coşqun ehtirasa deyil, həm də qırılmaz iradəyə malik xarakterdir. Xatalı, qanlı-qadalı ehtirasın dönməz-qırılmaz iradə ilə birləşməsi bu xarakteri bir az da böyüdür, qüvvətləndirir. Hökümə Qurbanova rola məhz bu anlayışla yanaşır, onu böyük xarakter kimi yaradır və onu belə plan əsasında rəsm edir. Bu plan tamam surətdə ancaq ikinci pərdənin ikinci səhnəsində açılır:

*Qarşımda diz çöksə bütün yer üzü,*
*Yenə Səyavuşda könlümün gözü.*
*Məhbəsdə inlərkən düşündüm onu,*
*Eşqimin bir odur əvvəli, sonu...*
*Bir diləyim varsa-onun vüsalı,*
*Gözlərimdə yalnız onun xəyalı.*
*Səyavuşun o dik, o məğrur başı*
*Əyilməz olursa sevgimə qarşı,*
*Onu al qanlarda görmək istərim,*
*Saçlarından çələng hörmək istərim.*

Aktrisa son misraları deyərkən həmişə tamaşa salonundan gurultulu alqışlar ucalır. Tamaşaçılar bu yerdə, əlbəttə, Südabənin qərarını deyil, aktrisanın obrazı aşkarlamaq məharətini alqışlayırlar. Südabə-Hökümə Qurbanovanın səhnə həyatında bu yer kulminasiya nöqtəsidir. Əvvəlki səhnələri bu nöqtəyə gətirib çıxaran bir yoldur. İlk səhnələrdə, Səyavuşla ilk görüşdə, yaxud gecənin qaranlığında onu pusub əylədiyi vaxt da Südabə-Hökümə xanım odlu-ehtiraslıdır. Lakin bu od-hərarət hələ gizlində, daxildə saxlanır, hələ öz hüdudlarını aşıb qarşısıalınmaz fəlakətə çevrilmir. İkinci görüşün sonunda

isə bu eybəcər ehtiras bəndləri qırır, kor bir qüvvəyə, kar bir iradəyə, küt bir silaha çevrilir, ta Səyavuşu məhv edənə qədər, tamaşanın sonuna qədər onu izləyir, təqib edir. Südabə-Hökümə xanım ikinci pərdədən sonra bir daha səhnəyə çıxmasa da, onun təqibləri, fitnələri səhnədən-səhnəyə davam edir, bu obrazı qiyabi surətdə, lakin aktrisanın rəsm etdiyi əyaniliklə, bütün dəhşəti ilə yaşadır" (16).

Hökümə Qurbanovanın səhnədə canlandırdığı Südabə son dərəcə gözəl qadın idi. Səhnəyə ilk dəfə çıxanda tamaşaçılarda xoş ovqat yaranırdı. Lakin Südabə-Qurbanovanı daxilində qıvrılıb yatan ilan oyandıqca, tamaşaçılarda bu mərkli qadına qarşı nifrət baş qaldırırdı.

"... Hökümə xanım, Südabənin yeni keyfiyyətlərini, yeni psixoloji amillərini, kəşf etmiş və bu cəhətləri yüksək, ehtiraslı, poetik səviyyəyə qaldırmağı bacarmışdır" (8).

Hökümə xanım Südabəni şəkildən şəklə inkişaf etdirdikcə, obrazın xarakterini tamaşaçılara göstərdikcə ifa etdiyi obraza qarşı kəskin nifrət yatarmağa nail olurdu. Onun Südabəsi məkrdən yoğrulmuş gözəl bir qadın idi. "Hökümə Qurbanova öz aktyorluq fəhminin gücü hesabına ehtiraslı, coşqun məhəbbətlə sevən romantik Südabəni dramaturqun ruhuna doğma tərzdə oynayırdı" (20).

Hökümə Qurbanova Səyavuşla birinci və ikinci görüşləri fərqli ifa edirdi. O, birinci görüşdə nisbət yumşaq olurdusa, ikinci görüşdə ehtiraslı, qəddar, qaniçən bir cəllada çevrilirdi. Aktrisa Keykavusla olan səhnəsində özünü günahsız göstərməsini, dəqiq düşünülmüş hərəkətlərlə həyata keçirirdi və ərini Səyavuşun xəyanətinə inandırırdı. Bütün bu fitnə-fəsadı Südabə-Hökümə Qurbanova yüksək peşəkarlıqla ifa edirdi. Onun Südabəsi Azərbaycan teatr tarixində yaranan mənfi obrazlar içərisində öz bitkinliyi ilə seçilən sənət nümunəsi idi.

1964-cü il aprel ayının 23-də dahi ingilis dramaturqu Vilyam Şekspirin 400 illiyi münasibəti ilə Akademik Milli Dram Teatrı onun ən məşhur faciələrində biri olan "Antoni və Kleopatra" əsərini T. Kazımovun quruluşunda (tərcümə T. Əyyubov) tamaşaya qoyuldu. Bu tamaşada Hökümə Qurbanova teatr tarixində ən məşhur rolu olan Kleopatranı sözün tam mənasında yaratdı. Ümumiyyətlə

Hökümə xanım ona tapşırılan heç bir obrazı oynamayıb, yaradıb. Aktrisanın obrazlar qalereyasının baş tacı Kleopatradır.

"Tamaşanın təsirli və müasir səslənməsində Ə. Zeynalovla (Antoni) və H. Qurbanova (Kleopatra) rejissora yardımçı oldular. Teatrın və tamaşaçıların uzun müddətdən bəri arzu etdikləri, gözlədikləri möhtəşəm, işıqlı, humanist bir tamaşa yarandı. Bu tamaşada həm də teatrın novatorluq səylərinin nəticəsi özünü göstərdi" (13).

Hökümə Qurbanova Kleopatranı səhnədə kamilləşdiyi bir dövrdə yaratdı. Onun Kleopatrası dünya səhnələrini titrədən, sənət nailiyyəti idi.

""Antoni və Kleopatra" faciəsi öz mürəkkəbliyi, siyasi və lirik-dramatik hadisələrin konfliktini tez-tez yeni məcaralara yönəltməsi ilə Şekspirin tarixi pyesləri arasında xüsusi yer tutur. Antoni və Kleopatra xarakterləri biri-birinə məhəbbət təmasında, həmçinin fərdi, siyasi-ictimai, mənəvi-psixoloji durumda çox mürəkkəb mahiyyətə malikdirlər, ziddiyyətlidirlər, çətin anlaşılandırlar. Hətta o dərəcədə mürəkkəbdirlər ki, Dünya teatrı təcrübəsində bəzən ən qüdrətli aktyorlar belə, bu rolların ifasında dramaturqun əsas məqsədini tuta bilmirlər, siyasət və məhəbbət mövzularının qovuşuğunda surətlərin davranışlarını düzgün, səlist müəyyənləşdirməyi bacarmırlar.

Tofiq Kazımovun səhnə yozumunda, Hökümə Qurbanova ilə Əli Zeynalovun ifasında təzadlı, mürəkkəb, qərar və hətəkətlərində dəyişkənlikləri gizlətməyən Antoni və Kleopatranın möhtəşəm sadə, həyati obrazları canlanırdı...

Hökümə Qurbanovanı əvvəllər Səməd Vurğunun, Nəcəf bəyin, Şekspirin, Mehdi Hüseynin, Hüqonun... faciə obrazlarında görən tamaşaçı, "Antoni və Kleopatra" tamaşasında onunla tamam yeni biçimli fəci rolda üzləşirdi. Şekspir faciəsinin möhtəşəm əhatə dairəsini, ideya yükünü, xarakter toqquşmasının əzəmətini təcəssüm etdirən tamaşada Kleopatra obrazı həm rejissorun ali məqsədinə rəğmən, həm də Hökümə xanımın dərin mənalı oyunu baxımından mərkəzdə dururdu.

Teatrşünas Cabir Səfərovin yazdığı kimi, "Antoni və Kleopatra" tamaşası "ən kədərli məhəbbət dastanına çox yaxın idi". İnsa-

nın ilahi təbiətini eybəcərləşdirən, əxlaqi tərəddüdə, mənəvi güzəştkeşliyə səbəb olan ictimai-siyasi mövzunun məhəbbət dastanında, bəşəri duyğular qaynağında həlli üçün Kleopatranın belə şəkildə hadisələr mərkəzinə gətirilməsi vacib idi. Bu, əslində Şekspirin özünə istinaddır, onun faciəsini müasir gözlə oxumağın bir vasitəsidir. Bunları idrakla dərk edib emosiya ilə canlandırmağa çalışan Hökümə Qurbanovanın Kleopatrası Antoniyə dəfələrlə xəyanət edən "rəqib", hökm-fərmaya nəsibliyini unutmayan tiran, hüsnü ilə bütün ürəkləri fəth edən qənirsiz gözəl olsa da, ilk növbədə, ürəyi, duyğusu, emosiyası olan insandır. Məhz buna görə də finalda ölümə məhkum Kleopatra-Hökümə Qurbanova daha şahanə görkəmlə səmimi, nəhayətdə, məhəbbətini siyasi mənfurluğun girdabıdan çıxarıb uca tutmağa çalışandır, etirafında ləyaqətlidir. Ürəyinin duyğularını "bəzəyib-boyamadan" titrək kövrəkliyilə təqdim edən sevgilidir" (20).

H. Qurbanovanın Kleopatrası Antonini böyük bir məhəbbətlə sevirdi. Aktrisa bu böyük sevgini birinci pərdənin beşinci şəklində aydın göstərirdi. Tamaşada sevgi xətti inkişaf etdikcə, əsərin finalında faciəyə ilə nəticələnirdi.

M. Arif "Kommunist" qəzetində (13.05.1964) yazır ki; "Kleopatra rolunda H. Qurbanova öz istedadının yeni hələ bizə məlum olmayan bir cəhətini də nümayiş etdirdi. Hiss olunur ki, aktrisa Şekspirin bu qəribə məxluqunu dərindən öyrənmişdir, onu dramaturqun düşdüyü mənada yaratmağa çalışmışdır.

... Kleopatranın ölümü əzəmətli bir ölümdür. H. Qurbanova bu səhnədə nə qədər cazibəli və şairanədir! Burada Kleopatra həyatın mənfəətpərəstlik ehtiraslarından təmizlənərək öz gözəl, nəcib, insani sifətləri ilə qarşımızda canlanır. Burada birinci dəfə onu şahanə geyimdə görürük. Lakin bu geyim, bu şahanə əda hakimiyyət ehtirasından çox, azad insan ləyaqətinin təntənəsini andırır".

Hökümə xanımın gözəl və cingiltili səsi Kleopatra obrazına xüsusi təravət verirdi. O, elə bil bu dünyaya Kleopatra oynamaq üçün gəlmişdi.

"Südabə və Kleopatra aktrisanın son illərdə yaratdığı obrazlardır. Bunlardan birincisi ikincisi üçün hazırlıq hesab edilə bilər. Hö-

kümə xanımın ifasında hər iki obraz əzəmətli yaradılmış və yenə böyük faciə ruhilə aşılanmışdır...

Ehtiras girdabına düşmüş insanın fəlakətini, fəlakətli ehtirasların dəhşətini, müdhiş aqibətini ustalıqla əyan edən aktrisa hər iki rolda öz tamaşaçılarını dərindən sarsıdır, onları “katarsis” (“mənəvi paklaşma”) prosesindən keçirir, nəticə etibarilə yenə müsbət idealları təsdiq edir” (15).

Hökümə Qurbanova Kleopatradan əvvəl Mariya Tüdor və Südabə kimi son dərəcə mürəkkəb xarakterli obrazları yaratmaqla, özünü görkəmli faciə aktrisası kimi göstərmişdir. Kleopatra obrazı ilə Hökümə xanım bu fikri bir daha təsdiq etdi.

“Ehtirası, fikirləri, məhəbbəti, həyat kredosu müxtəlif müstəvi kəsiklərində çarpazlaşan Kleopatra səpkili mürəkkəb faciə obrazlarının ən dramatik səhnələrində də aktrisa səslə daxili ehtirasını paralel işlətməkdə, onları obrazın mürəkkəb, psixoloji, ziddiyyətli mənəvi aləminin açılmasına istiqamətləndirməkdə mahir ustad idi” (21).

Hökümə xanımın ifa etdiyi Kleopatrada Şərqə məxsus ehtiras çox güclü idi. Kleopatranın xarakterinin açılmasında əsas göstərici idi. H. Qurbanova Kleopatranı ecazkar sənətin zirvəsinə qaldıra bilmişdir.

“Hökümə Qurbanovanın Kleopatrası xüsusilə təsirli və cazibədar görünür. Kleopatra-H. Qurbanova öz sevgilisinə sadiq bir aşiqdir, öz eşqi yolunda hər cür əzablara dözməyə hazırdır. O, əflatuni bir məhəbbətlə məftun olduğu Antoniyə sadəcə olaraq bir könül əyləncəsi kimi baxmır, öz şöhrəti ucundan xəyanətlərə yol versə də məhəbbətində çox təmiz və məğrurdur. Buna görə də Antoninin ölümündən sonra alçalmağa təhqir olunmağa dözməyərək özünü həlak edir.

Kleopatra surəti Hökümə Qurbanovanın səhnəmizdə əsl kamilləşmə dövrü keçirməyə başladığı bir vaxtın məhsuludur. Belə çətin və mürəkkəb bir obrazı yaratmaqla o özünün artistlik palitrasının nə qədər zəngin və rəngarəng, təbiətində nə qədər tükənməz istedad və qüvvət olduğunu bütün parlaqlığı ilə nümayiş etdirdi. H.Qurbanovaya xas olan qızğın temperament, alovlu ehtiras, səhnə tə-

biiliyi kimi keyfiyyətlər Kleopatra obrazında bütün genişliyi ilə gözlərimiz önündə canlandı. Görkəmli sənətkarı "Antoni və Kleopatra" tamaşasında görən yüzlərcə tamaşaçı onu səmimi məhəbbət hissi ilə alqışladı. Teatrımız böyük zövq və ilhamla hazırladığı bu tamaşanı şəhərimizə qonaq gələn qardaş respublikaların sənət adamlarına da göstərdi. Əsərə baxan teatr xadimləri-moskvalılar, gürcülər, özbəklər, taciklər Hökümə Qurbanovanın Kleopatra kimi mürəkkəb psixologiyaya malik obraz üzərində işləyərkən novatorluq axtarışlarına geniş meydan verdiyini və səhnəmizdə unudulmaz bir sənət nümunəsi yaratdığını sevinc və iftixar hissi ilə qeyd etdilər" (23).

Tənqidçinin qeyd etdiyi kimi Hökümə Qurbanovanın novatorluq axtarışlarına geniş meydan verməsi Kleopatra obrazında bütün çılpaqlığı ilə görünürdü.

"Novatorluq obrazın ideya-estetik idealını poetik bir münasibətlə, sənətkarlıqla ifadə etməkdə özünü göstərir. Novatorcasına yaranan bir tamaşa və ya obraz fikircə dərin, bədiilik və müasirlik baxımından tam olur. O, hissin, ehtirasın, mənanın təcəssümündə dinamikaya arxalanır.

... Hökümə Qurbanovanın Kleopatrası bu baxımdan çox səciyyəvidir. Aktrisa xarakteri dramatik və dinamik bir ehtirasla canlandırır. Onun hər bir hərəkəti obrazın daxili məntiqinə tabe edilir. Bu zaman o, öz qəhrəmanına dolğun məndəricə və cazibədarlıq gətirir. Bu, novator bir sənətkarın yaradıcılıq xüsusiyyətidir. Nəhayət, Qurbanovanın novatorluğu fikrin obrazlı və bədii ifadəsində, xarakterin bütün incəliklərinə qədər açılmasında, aktrisanın ölçü hissini gözləməsində və müasir səslənməsində özünü göstərir" (1).

H. Qurbanovanın tamaşaçılara nümayiş etdirdiyi Kleopatra Antoniyə dəfələrlə xəyanət etməsinə baxmayaraq yenə də onu sevirdi. Ona görə də Hökümə xanımın ifa etdiyi Kleopatra dünya səhnələrində ifa olunan Kleopatralardan fərqli idi.

"Tamaşanın təməlində və mərkəzində Kleopatra-Hökümə Qurbanova dayanır. Bu Kleopatra bir qadın, bir şəxsiyyət, bir səhnə əsəri kimi əzəmətlidir. Aktrisa qadın gözəlliyini xarakterin monumentallığı ilə elə bir məharətlə uyuşdurur ki, bunun özü obraza

əlavə bir gözəllik gətirir, estetik həzz mənbəyinə çevrilir. Aktrisa bu rolda həqiqətən sənətin yüksək pillələrinə ucalmış, istisnasız olaraq hamını, o cümlədən öz tənqidçilərini də heyran qoymuşdur. Onun Kleopatrası obrazı həm zahirən, həm daxilən görmək və qavramaq, obrazın cismi və ruhi aləminə nüfuz etmək, eləcə nüfuz etmək yox, orda təcəssüm tapmaq, danışıqda, davranışda, plastikada, münasibətlərdə xarakteri əyaniləşdirmək nümunəsi, yüksək sənətkarlıq timsalıdır. Tamaşaçılar və tənqidçilər bu rolun ifasını başdan başa, bütünlüklə təqdir eləmişlər” (16).

Hökümə Qurbanovanın Kleopatrası məharətli oyun nəticəsində meydana gəlmişdir. Aktrisa bu obraz ilə sənətin yüksək zirvəsində olduğunu sübut etmişdir. Bu monumental səhnə əsəri, H. Qurbanovanın böyük sənətinin bariz nümunəsi idi. Onun Kleopatrası Azərbaycan səhnəsinin bəzəyidir. Əgər Hökümə xanım təkcə Şekspirin ən mürəkkəb qadın obrazı olan Kleopatranı yaratmış olsa idi, yenə də onun adı Azərbaycan teatrının tarixində qızıl həriflərlə yazılmış olardı.

Hökümə Qurbanovanın Kleopatrası Azərbaycan səhnəsində tarixi hadisədir. Bu misilsiz ifaya görə aktrisaya tamaşanın bəzi yaradıcı heyəti ilə birlikdə 1965-ci ildə M. F. Axundov adına Respublika mükafatı (indiki Respublika Dövlət mükafatı) verilmişdir.

1964-cü ilin iyul ayında Akademik Milli Dram Teatrı İrəvan şəhərində qastrolda oldu. Qastrola on iki tamaşa aparılmışdır ki, bunlara C. Cabbarlını “Solğun çiçəklər” (6), H. Cavidin “Səyavuş” (5; 15), S. Vurğunun “Vaqif” (8; 18; 22; 28), S. Rəhmanın “Toy” (4; 9; 11; 19; 23; 25) və “Əliqulu evlənir” (4; 9; 19; 20; 23; 25; 30), M. Hüseynin “Alov” (6; 7; 14; 16; 17; 27), M. İbrahimovun “Kəndçi qızı” (1;11; 26; 29), Ş Qurbanovun “Əcəb işə düşdük” (3; 13; 14; 21; 24; 27), V. Hüqonun “Mariya Tüdor” (3; 13; 31), Lope de Veqanın “Dəlilər” (7; 16; 17), Y. Osnos və V. Vinnikovun “Hind gözəli” (2; 10; 12; 21; 24), S. Alyoşinin “Palata” (10) əsərləri aid idi. Və bir ay qastrol müddətində teatr 31 tamaşa “Flora” yay teatrında, 17 tamaşa isə azərbaycanlılar yaşayan rayonlarda tamaşaçılara göstərdi. Cəmi 48 tamaşa nümayiş olundu. Yerevan qastrolu iyul ayını

1-də M. İbrahimovun "Kəndçi qızı" komediyası ilə açılış etdi və 31-də isə bağlanış V. Hüqonun "Mariya Tüdor" faciəsi oldu. Qastrolun açılışında Hökümə Qurbanova Bənövşə, bağlanışında isə Mariya Tüdor obrazlarını ifa etdi. Bu qastrol müddətində H. Qurbanova Südabə, Nazlı, Bənövşə, Mariya Tüdor, Vasantasena və başqa obrazları canlandırdı.

1965-ci il mart ayının 2-də Azərbaycan mədəniyyətində qazandığı yüksək uğurlara görə Hökümə Abbasəli qızı Qurbanovaya SSRİ xalq artisti kimi yüksək və şərəfli bir ad verildi. Bu ad nəinki Hökümə xanıma, bütün keçmiş çoxmillətli sovet teatrına verilən qiymət idi.

Daim yaradıcılıq eşqi ilə yaşayan H. Qurbanova müxtəlif millətlərdən olam hökmdar qadın obrazlarını səhnədə böyük sənətkarlıqla canlandırırdı.

1965-ci il oktyabrın 14-də Ə. Şərifovun quruluşunda, böyük alman dramaturqu F. Şillerin tamaşaya qoyulan "Orlean qızı" faciəsində (tərcümə T. Əyyubov) Hökümə xanım Janna d'Ark (İoanna) obrazını yaratdı. "Öz romantik qəhrəmanının faciəli taleyini H. Qurbanova böyük sənətkarlıqla canlandırır" (5).

"Orlean qızı" faciəsində Şiller vətənpərvərlik və humanizmi əks etdirməklə yanaşı, həm də bu əsəri tarixi faktlar əsasında qələmə almışdır. Bu əsərdə ki, hadisələr İngiltərə ilə Fransa arasındakı gedən yüz illik müharibədən (XIV-XV əsrlər) və Fransada baş verən ağır böhranlardan bəhs edirdi.

XV əsrin əvvəllərində ingilislər Orlean şəhərini yəni Fransanın qapısını mühasirəyə aldılar. Əgər Orlean şəhəri məğlub olunsa idi, bütün Fransa təslim olunardı. "Xalq kütlələri və Fransanın patriotik qüvvələri bu bədnamçılığa yol verməmək üçün, min cür məhrumiyyətlərə və məşəqqətlərə dözərək mübarizə aparırdı. Lakin heç bir ümid işığı görünmürdü. Bu işıq yalnız bir sonra on yeddi yaşlı fransız qızı Jannanın simasında parlayıb bütün Fransanı işıqlandırdı...

Janna surətinin səhnə təcəssümündəki psixoloji realizm, qüdrət və əzəmət hər şeydən əvvəl SSRİ xalq artisti Hökümə Qurbanovanın ehtiraslı oyunu ilə bağlıdır. O Jannanın mürəkkəb psixoloji aləmini

yaxşı duymuş və təsirli şəkildə canlandıra bilmişdir. Biz bunu nəinki Janna-Hökumə danışdığı zaman, dərin iztirablar, ruhi çırpıntılar və sarsıntılar içində susub duyduğu zaman da hiss edirik. Bu cəhətdən artistin 8-ci şəkildəki mənalı oyunu olduqca güclü təsir bağışlayır. Burada rejissorun da yaxşı mizan tapdığı, Jannanın daxili sarsıntılarını qabarıq şəkildə gözə çarpdırmaq üçün olduqca əlverişli və realist səhnə priyomlarından istifadə etdiyi qeyd olunmalıdır" (11)

Orlean qızı Janna – H. Qurbanovanın əvvəl ifa etdiyi Südabə, Mariya, Kleopatra kimi qəddar, ziddiyyətli deyildir. Lakın bu obrazda da əvvəl ki, obrazlar kimi monumentallıq və əzəmət vardır. Janna obrazının inkişaf dinamikası güclü idi. Hökümə Qurbanova cəmi 19 il ömür sürmüş Janna obrazının xarakterini dəqiq göstərə bilmişdir. Çoban qızı olan Janna-Qurbanova mistik ruhda tərbiyələnmiş, dini təsəvvürlərə etiqad edirdi. Bundan başqa Jannanın qəlbi vətənpərvərlik hissi alışıb-yanırdı.

"H. Qurbanovanın böyük sənətkarlıqla ifa etdiyi Janna d' Arkın simasında Vətənin azadlığı, xalqın səadəti uğrunda vətəndaşlıq qeyrəti ilə vuruşan, əsarətə, zülmə qarşı silah qaldıran mərd insanların ümumiləşmiş obrazının təcəssümünü tapmışdır" (13).

Hökümə Qurbanova bütün bu xətləri məharətlə ifa edirdi. Adi bir kəndli qızının, böyük bir missiyanı üzərinə götürüb, xalqın xilasedicisi kimi çətin və şərəfli bir işə sahib olmasına tamaşaçılar inanırdı.

"Tamaşanın ümumi fonunda Janna-Hökümə Qurbanova gerçəkdən hərarətli, ehtiraslı ifası ilə seçilir, yadelli işğalçılara, xalqın düşmənlərinə qarşı mətin mübarizin, inamlı vətənpərvərin obrazını sıcaq, doğma bir hisslə, məharətlə yaradırdı. Fransız qızı Janna ilə Azərbaycanın mərd qızlar Zeynəb ("Dumanlı Təbriz") və Həcər ("Qaçaq Nəbi") obrazları arasında ideya-tematik yaxınlıq, yaradıcılıq irsiyyəti, davamiyyəti görmək çətin deyildir. Hökümə Qurbanovanın yaradıcılığı üçün xas olan, onun bir şaxəsi, tərkib elementi hesab edilən qəhrəmanlıq motivi bu rolda xüsusi bir qüvvətlə səslənmişdir" (16).

1966-cı il dekabr ayının 28-də H. Sultanov Çingiz Aytmatovun "Ana torpağı" əsərinə (tərcümə T. Əliyev) quruluş verdi. Bu ta-

maşada H. Qurbanovanın ifa etdiyi Tolqonay rolu tamaşaçıların rəğbətini qazandı. Cəmi beş dəfə oynanılan (28; 30 dekabr, 7; 13 yanvar, 4 mart) bu tamaşa Hökümə xanımın yaradıcılıq uğuru sayıldı.

B. Nəbiyev "Kommunist" qəzetində (05.02.1967) yazır ki; ""Ana torpağı" tamaşasının ağırlığı Tolqonay rolunun ifaçısı SSRİ xalq artisti Hökümə Qurbanovanın üzərinə düşür. Tolqonay əsərin yalnız baş qəhrəmanı deyil, onun mahiyyətini müəyyən edən canlı bir meyardır. O bütün hadisələrin mərkəzində durur, onlara təkan verir, istiqamətləndirir. Hökümə Qurbanova öz ecazkar oyunu ilə hamı üçün əziz və sevimli olan dözümlü və məğrur, əyilməz və müqəddəs bir ana obrazı yaradır".

Sadə süjet xətti olan bu tamaşada bütün ömrünü əzablar içərisində keçirmiş, ağ saçlı Tolqonayı Hökümə xanım böyük sənətkarlıqla ifa etdi. Ürəyi sirrlərlə dolu olan bu qadının obrazı H. Qurbanovanın ifasında sön dərəcə maraqlı və düşündürücü idi. Aktrisa obrazın əsərdəki mövqeyini, şəxsi davranışını, başına fəlakətlər gəlmiş bu qadının xarakterindəki mürəkkəbliyi, zəngin daxili aləmini, yüksək insani keyfiyyətlərini tamaşaçılara dəqiq açıb göstərirdi.

""Ana tarlası" tamaşasındakı Tolqonay da faciəli xarakterdir, faciəli həyatla yaşayan nəcib, ülvi təbiətli bir qadındır. Tolqonay tamaşanın mərkəzində durur. Əslində pyes də, tamaşa da "Tolqonayın dastanı" adlana bilər. Hərçəndi ki, burda da ictimai motivlər, "ictimai-tarixi fon" güclüdür. Buna görə, əsas qəhrəmanın taleyi və həyatı yalnız onun deyil, zamanın, Vətənin dastanı kimi qəbul olunur, bizə Vətən müharibəsinin çətin sınaq illərini tez-tez xatırladır. Tamaşa səhnədə uzun müddət davam gətirməsə də Hökümə Qurbanovanın yaradıcılıq nailiyyəti kimi qiymətlənmiş, teatr həvəskarlarının və tənqidçilərin diqqəti cəlb eləmişdir... Aktrisa obrazı yüksək, ümumiləşdirmə səviyyəsinə qaldırır, onun səhnə həyatını dinc əmək, halal zəhmət himni kimi, müharibəni lənətləyən bir qarğış kimi səsləndirir" (16).

Tamaşaçılar Tolqonay-Hökümə Qurbanovanı ayrı-ayrı dövrlərdə, müxtəlif əhvalda görürdülər. Tolqonay-Qurbanova tarla ilə, torpaq ilə söhbət edərkən dünyanın hər üzünü görmüş, insanlara

daim qayğı göstərən insan idi. Onun günəşə, buludlara və müqəddəs torpağımıza etdiyi müraciətdə Hökümə xanımın ürəkdən gələn sözləri son dərəcə təsirli və insanları düşündürməyə vadar edən çağırış idi. Xatirələrlə zəngin olan Tolqonayın keçirdiyi hissləri, psixoloji vəziyyətləri aktrisa sözün tam mənasında böük ustalıqla açır, tamaşaçılara təbii və incə detallarla çatdırırdı.

Müharibədə ərini və oğullarını itirən Tolqonay-Qurbanova öz bütün mehrini vaxtsız dul qalmış gəlininə salır. Gəlininin uğursuz taleyi onu düşündürür, dərdə çevirir. Tolqonay-Qurbanova bilir ki, cavan gəlin gec-tez ondan ayrılacaq, lakin buna baxmayaraq yenə də ona qayğı ilə yanaşır. Bu iki gəlin və qaynana münasibəti tamaşanın ən uğurlu səhnələridir ki, Hökümə xanım bu təsirli səhnələri tamaşaçılara yüksək peşəkarlıqla çatdıra bilmişdir.

1967-ci il fevral ayının sonunda teatr qısa müddətli İrəvan şəhərində qastrolda oldu. V. Şekspirin “Antoni və Kleopatra” (25 və 26 axşam) və C. Cabbarlının “Oqtay Eloğlu” (26 gündüz və 27 axşam) tamaşaları Sundukyan adına teatrda nümayiş olundu. Fevral ayının 25-də oynanılan “Antoni və Kleopatra” faciəsinə Ermənistanın bütün hökumət üzvləri tamaşa etmişdilər.

1967-ci il iyun ayının 2-də Şıxəli Qurbanovun “Sənsiz” əsəri T. Kazımovun quruluşunda tamaşaya qoyuldu və Sevinc rolunu SSRİ xalq artisti Hökümə Qurbanova ifa etdi.

"“Sənsiz” tamaşasında dolğunluğu ilə diqqəti cəlb edən obrazlardan biri də H. Qurbanovanın emosionallıqla yaratdığı Sevincdir. O, nakam məhəbbətli, ağır iztirab çəkmiş bir qadının ürək çırpıntılarını elə sənətkarlıqla canlandırır ki, onun dərdlərinə şərik olmaya bilmirsən” (1).

Cəmi dörd iştirakçısı olan bu əsərdə Hökümə xanım təmiz əxlaqlı Sevinci sevərək, tamaşaçılara sevdirdi. Onun Sevinci repressiya dövrünün qurbanı olmuş Tərlanın sevgilisi və onu qəlbində unuda bilməyən, sadiq bir insan idi.

"“Sənsiz” əsəri tamaşaçını belə bir aləmə salır, əvvəldən axıra qədər faciə mühitində saxlayır, faciəvi idrak prosesindən keçirir. Amma nəticə etibarilə ona ruh yüksəkliyi, nikbinlik təlqin edir. Ta-

maşaçı bu prosesi və bu yolu iştirakçılarla bərabər keçir. Dörd iştirakçıdan birinci tanış olduğumuz Sevinc-Hökümə Qurbanovadır. Məharətlə söylənən monoloqlar, əyani, bəzən qiyabi dialoqlar bizi Sevincin dərdi, kədəri ilə tanış, daha doğrusu həmdərd edir. Vüsal gecəsi öz ardınca hicran illərini gətirmişdir. Bircə günün gəlini 18 ildir ki, öz sevgili əri cavan geoloq Tərlandan ayrı düşmüşdür. Pyesin fakturasına uyğun olaraq aktrisa öz rolunu əsasən qəlbdən duyulmuş duyğulardan, dərin yaşantı tellərindən hörür. Hadisələr və münasibətlər həlli mümkün olmayan bir müşgülə çevrildikcə Sevincin-H. Qurbanovanın həyəcanları, əzabları kimi intizarı da dərinləşir. Onunla bərabər tamaşaçının da intizarı artır. O həm Sevincin taleyini, həm idrakın son mənzilini intizarla izləyir. Tamaşanın rejissoru T. Kazımovun və H. Qurbanovanın düzgün fikri və fikrin uğurlu təcəssümü nəticəsində tamaşadakı hadisələr, münasibətlər, habelə Sevincin dərdi-əzabı fərdilik və xüsusilik çərçivəsində qalmır. Onların mənası, mahiyyəti ümumilik və bədii ümumiləşdirmə dərəcəsinə çatdırılır. Rejissoru və aktrisanın emosional-bədii təfəkkürü hamı üçün ibrətli olan həyat düşüncələrinə yol açır. Biz tamaşaya baxdıqca, Sevincin çətin həyatına bələd olduqca, öz səadətini nəhayət belə çətinliklə, əzabla tapdığını görüncə dərk edirik ki, quran, yaradan, dünyanı dəyişdirən və gözəlləşdirən insan üçün yaşamaq – mübarizədir. Yaşamaq çətinliklərə qalib gəlməkdir. Aktrisa beləliklə, öz qəhrəmanının həyata və səadətə, haqqa və ədalətə inamını dəmir iradə ilə öz tamaşaçılarına təlqin edir" (16).

"İfalarında obrazın faciə yükünü daşıdıqlarına açıq işarə vuran Məlik Dadaşov və Hökümə Qurbanova lirik psixologizmi sakit tərzdə, əsasən sifət ifadələrində, gözlə və səs variasiyalarında oynayırdılar" (20).

"...Hökümə Qurbanovanın yardıcıllığındakı fəci qüvvət "Sənsiz" də yeni bir cilvə ilə parladı. Biz səhnəyə ilk gəlişində Hökümə xanımın əzəmətli bir qadın obrazı yaradıcılığını duyduq. O, gəlinlik örpəyinə qara bağlamış bu gənc qadının dəyanət və hünərini, dözüm və sədaqətini bəzən zərif, bəzən də qatı boyalarla göstərə bilir. Sevinc-Qurbanova Tərlanla münasibətində nə qədər mülayimdirsə, Fərhada münasibətində ciddidir, tədbirlidir, ağlın hökmünə qulaq

asandır. H. Qurbanovanın Sevinci həm də qayğıkeşdir. Bu cəhətdən qısqanclıq oduna yanan Maral ilə onun söhbəti nə qədər mənalı və təbiidir!

Ümumiyyətlə müqtədir sənətkarımız öz qəhrəmanının çətin həyat yolunu, mürəkkəb duyğular aləmini səhnədə ləyaqətlə canlandırmış, müasirlərimizin bir sıra yüksək mənəvi keyfiyyətlərini özündə cəmləşdirən bir obrazla bizi sevindirmişdir" (22).

Sevinc obrazı Hökümə Qurbanovanın misilsiz ifası ilə sənət hadisəsinə çevrilə bildi. O, Sevincin əziyyətini, dərdini, düşüncəsini və o dövrdə əzab və zillətlərə düçar olmuş insanların faciəsini parlaq cizgilərlə tamaşaçıların yaddaşına həkk etdi. Hökümə Qurbanova Sevinci yüksək bədiilik səviyyəsinə qaldırmağa müvəffəq oldu.

1967-ci il noyabr ayının 7-də Ə. Şərifovun quruluşunda tamaşaya qoyulan Mirzə İbrahimovun "Közərən ocaqlar" pyesində H. Qurbanova Mazar bəyin ömür gün yoldaşı Maral xanımı ifa etdi.

Aktrisanın ifasında Maral xanım qəm-qüssəsini gizlədə bilməyən, öz-özünü aldatmağa çalışan, sədaqəti itmiş, möhkəm iradəli, dözümlü, namuslu bir qadın idi.

X. Əlimirzəyev "Bədii həqiqət uğrunda" (1984, s.219) kitabında yazır ki; "Səhnəmizin fəxri olan Hökümə Qurbanova Maral xanımın vəziyyətini, daxili aləmini, hiss və düşüncələrini çox yaxşı duyduğu üçün gözəl, təsirli bir obraz yaratmışdır. Hökümə xanımın Maralı düşdüyü mühitə qarşı üsyankarlıqla etiraz edən, ərinin yaramazlığı üçün də vicdan əzabı çəkən bir qadın, yaxşı ana, humanist, xeyirxah qəlbli bir insandır. Biz onun halına acıyırıq, onun dərdlərinə şərik çıxırıq. Tamaşaçı Hökümə xanımı bu rolda alqışlayır..."

Hökümə Qurbanovanın Maral xanımı "qızıldan don geyinmiş" kədərli bir insan idi. Aktrisa bu obrazda üzdə gülürsə, daxilində göz yaşları axıdırdı. Öz halına, düşdüyü mühitə acıyırdı.

"Hökümə Qurbanova Maralı düşüncəli, həssas, yaşadığı mühitlə barışmayan mütərəqqi görüşlü bir qadın kimi tamaşaçılara sevdirə bilirdi. Nərimanın maarifçi ideyaları, azadlıq mübarizəsi Maral-Hökümə xanım üçün doğma və əziz idi. Aktrisa öz qəhrəmanının incə qəlbini, ruhi sarsıntılarını böyük psixoloji dərinliklərlə açır,

Nərimanovun şəxsiyyətinə, sənətinə və mübarizəsinə rəğbətini də real şəkildə göstərirdi" (22).

Maral xanım Hökümə Qurbanovanın yaradıcılığında müvəffəqiyyətli obrazlarından biri olmaqla yanaşı, "hər şey var, heç nə yoxdur" prinsipinə əsaslanan səhnə qəhrəmanı idi.

"Hökümə Qurbanovanın çöhrəsində Cakondanın sirli təbəssümü vardı. Aktirsa o təbəssümün sehrindən və hüsnündən dramatik rollarda məharətlə istifadə edirdi. O dramatik rollarda ki, onların həyat amalları insanpərvərliklə, xeyirxah əməllərlə yoğrulub" (21).

1969-cu il aprel ayının 19-da Bəxtiyar Vahabzadənin "İkinci səs" pyesini Ə. Quliyev tamaşaya qoydu və Arzu obrazını yaratmağı Hökümə xanıma həvalə etdi.

Ailə-məişət mövzusuna toxunulmuş bu əsərdə insan psixologiyasının bəzi problemli düyinlərini acmaq müəllifin əsas məqsədi olmaqla yanaşı həqiqi məhəbbətin paklığını bu üç obrazda (Arzu (H. Qurbanova), Həyat (L. Bədirbəyli) və Rəşad (H. Salayev)) göstərməyə çalışmışdır.

Lirik təmayüllü psixoloji obrazlardan olan Arzunu H. Qurbanova öz istedadının gücü ilə sənətinin zirvəsinə qaldırmağa nail ola bildi. Aktrisa "...təbii və parlaq oyununda yüksək əxlaqi sifətlərə malik, fədakar, alicənab, müasir bir Azərbaycan qızının mənəvi ucalığı"nı (Y. Qarayev, "Kommunist" qəzeti, 29.06.1969) yaratmağa müvəffəq oldu.

"Mənəvi ucalıq, iradə qəhrəmanlığı Arzu surətində (H. Qurbanova) dərin psixoloji ifadəsini tapırdı" (5).

"Tənqidi məqalələrdə Hökümə Qurbanovanın bu rolu (Arzu-İ.A.) təbii oynadığı, mənəvi ucalığa, yüksək əxlaqi sifətlərə malik, möhkəm iradəli, alicənab, müasir Azərbaycan qızının obrazını yaratdığı göstərilir" (16).

"Hökümə xanımın son illərdə böyük məharətlə yaratdığı səhnə obrazları arasında Kleopatra ("Antoni və Kleopatra"), Sevinc ("Sənsiz"), Arzu ("İkinci səs") və Maral ("Gözərən ocaqlar") öz canlılığı, ehtitaslı səhnə təcəssümü ilə diqqəti cəlb edir. Bu obrazlarda aktrisanın ecazkar sənəti yüksək zirvəyə qalxır" (12).

SSRİ xalq artisti Hökümə Qurbanova 1970-1985-ci illərdə, yaşının müdriklik dövründə Azərbaycan və dünya dramaturgiyasında müxtəlif xarakterlərə malik olan mürəkkəb obrazlar yaratdı ki, bunlara A. Safronovun "Kişilərə inanmayın" komediyasında Naydyonova Aleksandra İvanovna (tərcümə M. İbrahimov, rej. Ə. Quliyev, 13.06.1970); S. Vurğunun "İnsan" mənzum faciəsində Səhər (rej. M. Məmmədov, 01. 03.1974); Avkisenti Saqarelinin "Xanuma" komediyasında Xanuma (tərcümə T. Əyyubov, rej. Ə. Şərifov, 07.06.1975); N. Hikmətin "Məhəbbət əfsanəsi" əsərində Məhmənə banu (tərcümə İ. İbrahimov, rej. Ə. Şərifov, 07.05.1977); A. Paronyanın "Şərqli diş həkimi" komediyasında Marta (tərcümə H. Orucov, rej. H. Qaplanyan, 09.05.1981); V. Şekspirin "Maqbet" faciəsində Ledi Maqbet (tərcümə A. Şaiq, rej. M. Fərzəlibəyov, 19.11.1981); Q. Rəsulovun "Qarabağ əfsanəsi" pyesində Günəş (rej. M. Fərzəlibəyov, 15.09.1984); Tennesi Uilyamsın "Şüşə heyvanxana" əsərində Amanda (tərcümə İ. İbrahimov, rej. B. Osmanov, 02.06. 1985) kimi obrazlar aiddir.

1970-ci il iyun ayının 13-də Mirzə İbrahimovun tərcüməsində A. Safronovun "Kişilərə inanmayın" komediyası Ə. Quliyevin quruluşunda tamaşaya qoyuldu və Naydyonova obrazını H. Qurbanova ifa etdi. Onun böyük sənəti imkan verirdi ki, bu obraza öz naxışlarını vursun və bənzəri olmayan sənəti ilə Azərbaycan səhnəsini zənginləşdirsin.

"Aktrisanın komediya istedadı "Kişilərə inanmayın" tamaşasında yenidən parlamışdır. O, janrın təbiətində qalmaq şərtilə həyat məzmunu, ideyası etibarilə mürəkkəb, zəngin bir xarakter yaratmışdır. Uğursuz ailə həyatından və bir dəfə sevib, amma cavabında vəfasızlıq görəndən sonra kişilərə inamı qırılan Naydyonova-H. Qurbanova tamaşa boyu kişilərə inamsızlıqdan inama, geniş mənada isə insanlara inama doğru məntiqli bir yol keçir. O, bu inamı komik, bəzən dramatik vəziyyətlərdə, daxili mübarizədə, incə psixoloji ştrixlərlə, aktyorluq palitrasının əlvan boyalarından məharətlə istifadə edərək qazanır. Təəccüblü deyildir ki, tamaşaçılarla, tənqidçilərlə bərabər əsərin müəllifi Anatoli Safronov da Hökümə xanımın ifa-

sından razı qalmış, onun istedadına heyran olmuşdur. O, demişdir: "Mən şadam ki, əsərim Hökümə Qurbanova kimi görkəmli ustaların çalışdığı bir teatrın səhnəsində tamaşaya qoyulmuşdur. Bu aktrisa saysız-hesabsız zərif boyaları bərq vuran parlaq və yüksək istedada malikdir". Müəllifin təəssüratı gerçəkdir. Çünki tamaşaçılar və tənqidçilər də aktrisanın yaratdığı obrazın qadın kimi füsünkarlığından, emosiyalı, çılğın və coşqun olmasından, eyni zamanda dərin ağlı və mühakiməsi ilə rəğbət oyatdığından ağız dolusu danışırlar" (16).

Hökümə Qurbanovanın Naydyonovası böyük sənətin gözəl bəhrəsi idi. Aktrisa bu obrazda komik çalarlardan son dərəcə məharətlə istifadə edərək, ifa etdiyi rola xüsusi ahəng verirdi.

"Burada, əlbəttə, qüdrətli sənətkarımız Hökümə xanımın oyunu, bu oyundakı rəngləri, çalarları, özünəməxsus cizgi və xırdalıqları da qeyd etməliyik. Birinci pərdədə öz faciəli həyatını, keçmiş iztirablarından və məhəbbətindən danışarkən Hökümə xanımın qəhqəhəsini unutmaq olmaz. Bu kinayəli qəhqəhə min cümlədən güclüdür, doludur. Hökümə xanımın bir sənətkar kimi yaradıcılıq yolunu izləyən sənətşünas, mən istərdim ki, bu acı qəhqəhəyə qulaq assın. Bu qəhqəhə zirvədə dayanan, lakin dünəndən tam mənada ayıla bilməyən bir əzabkeşin öz taleyinə qarşı acı kinayəsidirmi? Bu qəhqəhə Naydyonovanın iztirablı həyatının son dəqiqəsidirmi? Bu qəhqəhə məhəbbətin əlindən sinəsi dağ-dağ olan kimsəsiz bir qadının dünənə təəssüfüdürmü? Üsyanıdırmı? Bu qəhqəhə, dumanlı göylər kimi tutulan bir qəlbin acı hönkürtüləridirmi? Mən deyərdim hamısıdır.

"Hökümə xanım Naydyinova obrazını gözəl yaradır"-cümləsi bu boya üçün çox azdır. Mən deyərdim ki, bu rola Hökümə xanımın maralı əlavələri var. Nədir bu əlavələr? Onun yaratdığı obrazın qadın kimi füsunkarlığı, çılğınlığı, emosiyası və bununla bərabər dərin ağlı, mühakiməsi, düşüncəsi. O, səhnədə alışıb yanır, dəqiqədə neçə rəngə, neçə hala, neçə vəziyyətə düşür. Düşünürsən, görəsən bu rəngləri, bu halları mahir sənətkar necə yaşayır? Mən hər dəfə Hökümə xanımın yeni bir roluna baxdığın zaman ürəyimdən bir arzu keçir: bu sənətkarın böyük imkanları səviyyəsində bədii obraz yaratmaq! Nə edəsən ki, arzu başqa, imkan başqa!" (25).

SSRİ xalq artisti Hökümə Qurbanovanın ifa etdiyi Naydyinova obrazı aktrisanın yetmişinci illərin əvvəlində yaratdığı ən dolğun səhnə qəhrəmanlarından biridir. Onun bir sənətkar kimi obraza yaradıcı münasibəti o qədər geniş və hərtərəfli idi ki, bu da ona obrazın dəqiq açılmasına imkan verirdi. Nəticədə, Hökümə xanımın yaratdığı hər bir obraz, yaşından, mühitindən, mövqeyindən asılı olmayaraq sənət hadisəsinə çevrilirdi.

1974-cü il mart ayının 1-də S. Vurğunun "İnsan" mənzum faciəsi Mehdi Məmmədovun quruluşunda ikinci dəfə tamaşaya qoyuldu və flosof Şahbazın həyat yoldaşı, bəstəkar Səhər obrazı Hökümə Qurbanovaya tapşırıldı.

Bu tamaşada SSRİ xalq artistləri Hökümə Qurbanova (Səhər) və Mehdi Məmmədovun (böyük Şahbaz) son dərəcə maraqlı və yaddaşlardan silinməyən ifaları var idi.

Tamaşada iki Şahbaz və iki Səhər var. Bunlar gah cavan, gah da yaşlı görünürlər. Hər iki obrazı eyni aktyorlar böyük məharətlə ifa edirdilər. "Tamaşadakı hadisələr belə cərəyan edir ki, tamaşaçı gah cavan, gah da qoca Səhəri görür... Hər ikisinin rolunu Hökümə Qurbanova ifa eləyir. Psixoloji cəhətcə və səhnəlik tərəfdən mürəkkəb olan bu "dəyişmə" elə bir ustalıqla və o qədər sadə, təbii tərzdə baş verir ki, guya bizi hər dəfə sehrin gücü ilə gah keçmişə, gah da hazıra köçürürlər və biz gah məhəbbətlə, yaradıcılıq ilhamı ilə çoşan gənc Səhəri-H. Qurbanovanı, gah da kədərdən, iztirabdan, çətin sınaqlardan üzülən, amma yenə də vüqarını itirməyən xoşbəxt ananı, qəhrəman atasının xatirəsini əziz tutan bir oğul böyüdən dəyanətli ananı görürük" ("Baku" qəzeti, 24.03.1974).

Hökümə xanımın ifa etdiyi Səhər sənətkarlıqdan yoğrulmuş bir səhnə qəhrəmanı idi. Onun ifasında Səhər mənalı və təbii idi. Səhər-Qurbanova bir qadın, ana və nəhayət vətəndaş kimi ömrünü namusla başa vurmuş, gözəl əsərlər yaratmış, ərini pak məhəbbətlə sevmiş, daim məhəbbətinə sadiq qalmış, ağıllı və tərbiyəli bir övlad böyütmüşdür.

M. İbrahimov yazır ki; "Səhər rolunda çıxış edən SSRİ xalq artisti Hökümə Qurbanovanın çox gözəl oyununu qeyd etməliyik.

Hökümə xanım surətin psixoloji aləmini, sevinc və iztirablarını yaxşı açır, musiqi ilə bağlı səhnələrdə mənalı, ehtiraslı jestlər və hissi ifadələr tapır".

Səhər-Hökümə xanımın ərinin orduya gedəcəyini düşündükcə keçirdiyi iztirabları unutmaq çətin idi:

*Bəzən bağçadakı bir çocuq səsi,*
*Ya bir bəstəkarın ürək nəğməsi,*
*Ya mənalı bir söz, məsum bir baxış,*
*Qışdakı qar tarı, yazdakı yağış,*
*Yaşıl yamacdakı bir ayaq izi,*
*Qəmli bir insanın pərişan üzü,*
*Bir gülüş... bir bayram... ya da ki, bir yas,*
*Bir insan vüqarı, bir qəşəng libas*
*Yerdə olmasaydı insan sönərdi,*
*Gözəl xəyallar da heçə dönərdi.*

"Leteraturnaya qazeta" (10.07.1974) yazır ki; "H. Qurbanova Səhər obrazını başdan-başa öz ürəyinin hərarəti ilə, qadın şəfqəti və mehtibanlığı ilə isidir".

Aktrisanın yaratdığı Səhər ərini böyük məhəbbətlə sevməklə yanaşı, ona çox böyük hörmət edirdi. Aktrisa bunu xüsusi cizgilərlə göstərirdi.

"Sovetskaya kultura" (02.06.1974) qəzeti yazır ki; "H. Qurbanova Şahbazın arvadı bəstəkar Səhərin parlaq obrazını yaradıb... Onun ifası insani və qəhrəmani keyfiyyətlərlə, zərif cizgilər və incə psixologizm ilə fərqlənir".

H. Qurbanovanın ifasında Səhər otuz ildir ki, ərinə olan sevgisi və musiqinin gücü ilə yaşayır. O, özünün daxilindəki qüvvəyə arxayın olan, hər əzaba qalib gələn insan idi. "Hökümə Qurbanovanın oyunundakı səmimilik və xalislik hamı üçün örnəkdir" ("Pravda" qəzeti, 05.05.1974).

"Səhər rolunda ... Hökümə Qurbanovanın surətin psixoloji aləmini, sevinc və iztirablarını mənalı, ehtiraslı jestlərlə, hərəkətlərlə və hisslərlə açması ... coşqunluq və inandırıcılıq səhnəmizdə "İnsan"ın ikinci həyatının parlaq və uğurlu olmasına zəmin yaratdı" (13).

“Sevinc, Tolqonay və Səhər obrazları başqa qütbün adamları, faciə aləminin sakinləridir. Onların qismətində, taleyində bir yaxınlıq var. Hər üçü əzabkeşdir. Qaragünlü, gözüyaşlı, sinədağlıdır. Hər üçü hicran yolçusudur. Onlar intizar, həsrət içində yaşayır, yaşayır və gözləyirlər. “Sənsiz”, “Ana torpağı” və “İnsan” pyeslərində ölümlər, qaraxəbərlər, qanlar, qurbanlar olmasa idi belə bu üç qadın obrazı həmin əsərlərə faciə vüsəti, ülviyyəti verər, onları əsil faciə səviyyəsinə qaldıra bilərdi.

Xüsusilə Hökümə Qurbanovanın ifasında!

Aktrisa hicran mövzusunu, vüsalə çatmaq ehtirasını, kama çatmazlığın əzabını dərindən duyduğu kimi, dərin idrak və emosiya ilə də canlandırır. Əsil faciəviliyin və faciə janrında yazılmış əsərlərin nəzdində böyük iztirabla dərin idrak bir-birinə qarışır və qovuşur. Onlar hadisə ilə mahiyyətin, forma ilə məzmunun qovuşduğu kimi qovuşur, vəhdət daxilində birləşirlər. Bu vəhdət eyni zamanda ahəngə çevrilir, musiqi sədaları kimi səslənir, dinlənir, şeriyyətin dili ilə şairanə bir dillə bizə həyatın, xilqətin sirlərini açır. Deməli idrak aləminin qapılarını açır. Faciə səpgili pyeslərdə iştirakçıların çəkdiyi, bizim canyanğısı ilə duyduğumuz əzab, iztirab, əlbəttə, idrak və özünü idrak vasitəsi, həyat əlaməti və nəticə etibarilə nikbinlik nişanəsidir...

Səhər obrazı Sevinc və Tolqonayla müqayisəedilməz dərəcədə əzəmətlidir, monumentaldır. Onun təmsil etdiyi, hicran, vəfa, sədaqət teması da bu əsərdə genişəhatəli, fəlsəfi vüsətlidir. Səhər-H. Qurbanova fəlsəfi-monumental səpkili bu tamaşaya onun üzvi hissəsi kimi daxil olur. Şahbazla bərabər onun ideya-konflikt özəyini yaradır. Əslində tamaşanı Səhər başlayır və o da tamama yetirir. Səhər-Qurbanova hamıdan əvvəl səhnənin önünə çıxıb royal arxasında əyləşir, olub-keçənləri qəmli, ibrətli bir dastan kimi nəzərində canlandıraraq uzaqlara baxır, sonra şirmayı dillərdə “Hicran nəğməsi” adlanan simfoniyanın ilk akkordlarını səsləndirirdi...

“Hicran nəğməsi” pərdə-pərdə ötür, dalğa-dalğa ucalır, sanki tamaşa salonundan çıxıb uzaqlara yayılırdı. Səhər “Otuz il əvvəl...” deyə xəyalın gücü ilə keçmişi hazıra qaytarır, tamaşaçıların gözü qabağında bir anda özü də otuz il cavanlaşırdı. Tamaşaçı ona

inanırdı. Özünə, sözünə, düşündüklərinə, dediklərinə! Ağlına-kamalına, duyğularına, həyəcanlarına, sevincinə və kədərinə! Onun qadın, zövcə, ana ləyaqətinə, vəfasına, ilqarına, vətəndaş sədaqətinə, bəstəkar istedadına-hamısına inanırdı. Hamısına! Hökümə xanım təlqin hünəri güclü olan sənətkarlardandır. Onun bu hünəri "İnsan" tamaşasında az qala hipnoz qüvvəsi kəsb edir, sehrə çevrilirdi. On iki şəkildən ibarət olan tamaşanın ancaq üç şəklində bilavasitə iştirak edirdi. Amma bütün şəkillərdə yaşayırdı. Şahbazın xəyalında, "Hicran nəğməsi"ndə, bunların hamısından çox öz təlqin qüvvəsində yaşayırdı. Özü səhnəyə çıxmadığı epizodlarda belə Səhərin səhnə həyatı səhnədə davam eləyir, tamaşaçılar onun səsini, nəfəsini, addım izlərini duyur və görürdülər...

Hökümə xanım bu rolu əvvəldən axıra qədər həqiqətən misilsiz bir gözəlliklə, sənətkar dəyanəti, sədaqəti ilə oynayırdı. Onun bütün səhnələri gözəl idi. Onun özü də bütün səhnələrdə gözəl idi. Lakin on ikinci şəkildəki son epizodun misli yox idi...

...insan obrazının və insaniyyət məfhumunun tamaşadakı bədii təcəssümündə Səhərin-Hökümə Qurbanovanın rolu, xidməti xüsusilə böyükdür. Tamaşanın ideya istiqamətini, üslub və janr xüsusiyyətlərini təcəssüm etdirmək işində də aktrisanın sənətkar səyi, yaradıcılıq potensialı böyük rol oynamışdır. "İnsan" sözün əsl mənasında müasir faciədir. Səhər də sözün həqiqi mənasında tragik obrazdır. Hökümə Qurbanovanın faciə istedadı bu rolda yanidən parlamışdır" (16)

Bütün bu sözlərdən sonra belə qənaətə gəlmək olar ki, Hökümə Qurbanova irili xırdalı müxtəlif biçimli obrazlar-Tamara, Xuraman, Tatyana, Məryəm, Şirin və nəhayət Səhəri ifa etməklə Səməd Vurğun dramaturgiyasında yaranan obrazlar qalereyasına bir növ möhür vurdu. Onun Səhəri Azərbaycan səhnəsində özünə layiqli yer tutdu. Və Azərbaycan Teatrının 100 illik yubileyi münasibəti ilə indiki Akademik Milli Dram Teatrı iyun ayının 27-dən iyul ayının 10-a qədər Moskva da Malı teatrının səhnəsində S. Vurğunun "İnsan" (27; 04), İ. Əfəndiyevin "Mahnı dağlarda qaldı" (28; 07), N. Poqodinin "Zamanın hökmü" (29; 10), F. Şillerin "Mərk və məhəbbət" (30; 05); N. Xəzrinin "Sən yanmasan" (01; 06), V.

Şekspirin “Fırtına” (02; 09), C. Məmmədquluzadənin “Ölülər” (03; 08) tamaşaları göstərildi. Qastrol S. Vurğunun “İnsan” mənzum facəsi ilə işinə başladı və N. Poqodinin “Zamanın hökmü” pyesi ilə sona çatdı. Həkümə Qurbanova bu qastrolda iki dəfə Səhər obrazını o dövrün paytaxt tamaşaçıları qarşısında canlandırdı. Bayaq adlarını çəkdiyim mərkəzi mətbuatlarda (“Sovetskaya kultura” 02.07.1974; “Literaturnaya qazeta” 10.07.1974) Hökümə Qurbanovanın bənzərsiz ifa etdiyi Səhər obrazına böyük qiymət verildi. Bu ömrünün ahıl dövrünü sənətdə keçirən görkəmli bir səhnə ustasının böyük sənətinə verilən qiymətin gözəl nümunəsi idi.

1975-ci il iyun ayının 7-də tamaşaya qoyulan Avkisenti Saqarelinin “Xanuma” komediyası (tərcümə T. Əyyubov) Ə. Şərifovun quruluşunda tamaşaya qoyuldu və baş rol olan Xanumanı qüdrətli səhnə ustası Hökümə Qurbanova ifa etdi.

Hökümə xanım Xanuma obrazı ilə sübut etdi ki, sənətkar üçün yaş məhdudiyyəti yoxdur. O, hər hansı bir rolu ömrünün müxtəlif dövrlərində oynamağı bacarırdı.

“Baku” qəzeti (28.06.1975) yazır ki; “Hökümə Qurbanovanın yaratdığı şən, şux Xanuma obrazını tamaşanın nəbzinə bənzətmək olar. Bərabər olmayan aktyor qüvvələrini o, bir vəhdətdə cəmləşdirir, öz parlaq oyunu ilə tamaşanın bəzi kəsirlərini, nöqsanlarını hamarlayıb düzəldir”.

Hökümə Qurbanova ampula tanımırdı, onun istedadı nə qədər məsafə desən qət etməyə hazır idi. Bu Xanuma obrazında aydın görünürdü.

“Son iyirmi beş ildəki yaradıcılığın əsas siqlətini, onların ictimai-estetik vəznini, əlbəttə ki, faciə janrı və bu janrda yaranmış patetik, romantik səpkili xarakterlər səciyyələndirir. Aktrisa başqa janra mənsub əsərlərdə də çıxış eləmişdir. Bu dövr komik obrazlarla da zəngindir... Belə obrazların cərgəsinə Xanuma rolunu da əlavə eləməliyik. Aktrisanın özü qeyd elədiyi kimi bu “müzukl tipli tamaşa, müzukl səpkili obrazdır”. Bu çətin tamaşada, çətin rolda aktrisanın tükənməz istedadının yeni çalarları meydana çıxmışdır” (16).

“Kəndi qızı”nda ki, Bənövşədən sonra ikinci belə iri həcimli obraz yaradan Hökümə xanım Xanuma obrazı ilə özünü komediya aktrisası kimi bir daha təsdiqlədi. Heç inanmaq olmurdu ki, bu misilsiz sənətkar Mariya Tüdor, Kleopatra, Janna d’Arkın kimi mürəkkəb xarakterli qadın obrazları yaradan aktrisa idi.

““Xanuma” şən oynaq, dinamik, zövq oxşayan tamaşa idi. Cünki reyissorun üzdən, səthi yanaşdığı səhnələri, tərəf-müqabillərin süstləşdirdikləri epizodları Hökümə Qurbanova bütün qüvvə və bacarığını, yumor qabiliyyətini səfərbər etməklə ətə-qana gətirir, boşluğa ecazkar təbiilik verir, hərəkətlərinin mayasına uyuşuqlu yumor qatırdı. “Aktirsa obrazın mayasında olan xeyirxahlığı, həqiqətpərəstliyi, mənəvi saflığı, insan gözəlliyini qabarıqlaşdırmış”, “öz incə məharətli oyunu ilə... tamaşaçının ürəyində gülüş doğurur”, ansamblın enerji nüvəsində dayanırdı.

Hökümə xanım coşqun ehtirasla ifa etdiyi rəqsləri, məlahətli səs tembrini dramatik, satirik, yumorlu... səhnələrin mahiyyətinə uyğun şəkildə şövqlə dəyişməsi, ekssentrik hərəkətlə sözün vəhdətini harmonik cazibədə təqdimi ilə sehrkar vüsətli, şirin, məlahətli, məhrəm qılıqlı obraz yaradırdı. Xanuma rolu Hökümə Qurbanovanın son on ildəki sənət nailiyyətləri sırasında ən layiqli yerlərdən birini tuturdu” (20).

Komediya janrında çıxış etmək faciə aktrisası üçün çətindir. Lakin Hökümə xanımın böyük istedadı bu çətinliyi aradan qaldırırdı. O, obrazı özününkiləşdiməyi bacaran nadir sənətkarlardan biri idi.

“Komediya rollarında (Bənövşə, Xanuma...) səhnəyə çıxan Hökümə Qurbanovanın məlahətli yumoru, sərrast və dürüst istiqamətli satirası sanki səhnəyə sığmırdı, vəziyyətin ovqatı bütün salona sirayət edirdi. Onun yumorlu ifası əsərin məhvərinə çevrilir, tamaşadakı bütün personajları öz gülüşünün oxu ətrafında fırlanmaq cazibəsinə salırdı.

Mənalı, zərif və cazibəli plastikası vardı, hərəkətlərini personajın ictimai-sosial mənsubiyyətinə, mənəvi-əxlaqi xüsusiyyətlərinə, hadisələrin psixoloji dramatizminə ahəngdar həssaslıqla bağlayıb əlaqələndirirdi” (21).

1977-ci il may ayının 7-də böyük türk şairi Nazim Hikmətin “Məhəbbət əfsanəsi” əsəri (tərcümə İ. İbrahimov) Ə. Şərifovun quruluşunda tamaşaçılara təqdim olundu və SSRİ xalq artisti Hökümə xanım Qurbanova Məhmənəbanu obrazı ilə tamaşaçılar qarşısında çıxış etdi.

Azərbaycan səhnəsində hökmdar qadın obrazlarını böyük sənətkarlıqla ifa edən H. Qurbanova bu obrazıda tamaşaçılara öz böyük istedadının gücü ilə təqdim edə bildi. Aktrisanın ifasında Məhmənəbanu bacısı Şirini (bu obrazı Hökümə xanımın qızı, istedadlı aktrisa, əməkdar artist Vəfa Fətullayeva ifa edirdi) öz övladı qədər istəyən bacıdır. Hökümə xanımın Məhmənəbanusu ömrünün son dövrlərinin məhsulu olmasına baxmayaraq, onu böyük şövq və yaradıcılıq ehtirası ilə yaratmağa müvəffəq oldu.

SSRİ xalq artisti, professor Mehdi Məmmədov Hökümə Qurbanovanın bu ifasını A. Çevovun “Vanya dayı” tamaşasında ki, Yelena Serebyakova obrazı ilə müqayisə edərək yazır; “Çexovla Nazim Hikmət arasında bənzərlik, yaxud yaxınlıq axtarmaq birdən-birə qəribə görünə bilər. Amma Yelena Serebyakova ilə “Unudulan adam” tamaşasındakı qızı və “Məhəbbət əfsanəsi”ndəki Məhmənəbanu obrazlarını yanaşı qoyanda, onların aktrisanın ifasındakı səhnə təcəssümünü xatırlayanda qəribəlik əvəzinə bir uyarlıq, bədii qanunauyğunluq da tapmaq olar. Dərin psixoloji arayış, lirik-fəlsəfi təfəkkür, xoşbəxtlik həsrəti və ümidi hər iki müəllif üçün səciyyəvi görünər. Belə yaxınlıq, uyğunluq əlamətləri aktrisanın adlandırdığımız obrazlarında da vardır. Bizə elə gəlir ki, Hökümə xanım Nazim Hikmət obrazını Çexov üslubuna yaxınlaşdırır, professorun qızında o, obrazın mehriban, mülayim, həlim cizgilərini, Məhmənəbanuda onun fədakarlığını, Şirin üçün çəkdiyi cəfanı, bir sözlə bu obrazların altürist meylini qabardır, onu çexovsayağı, zərif tərzdə, kövrək boyalar, yarımtonlarla aşkarlayır. Az sözlə çox məna daşımaq, daşımaqdan çox düşünmək, sözaltı mənalar, daxili monoloqlarda yaşamaq ədası hər iki təsadüfdə müşahidə olunur. Bununla belə Məhmənəbanu obrazında aktrisanın fərdi üslubuna xas olan əzəmət, monumentallıq da öz işini görür” (16).

1981-ci ildə noyabr ayının 19-da V. Şekspirin "Maqbet" faciəsi (tərcümə A. Şaiq) M. Fərzəlibəyovun quruluşunda səhnəyə qoyuldu. Tamaşada H. Qurbanovaya ledi Maqbet obrazı tapşırılmışdır. Bu tamaşa "Azərbaycan Şekspir teatrının nailiyyətləri sırasına daxil ola bilmədi" (20).

C. Səfərov "Ədəbiyyat və incəsənət" qəzetində (08.01.1982) yazır ki; "Hökümə xanımın ledi Maqbet obrazı onun yaradıcılığında yeni səhifədir; Oliviya, Germiona, Kleopatradan sonra Hökümə Qurbanovanın Şekspir əsərlərində yaratdığı dördüncü qüvvətli xarakterdir. Ledi Maqbet-H. Qurbanovanın keçirdiyi faciə onun ziddiyyətli təbiəti ilə üzvi surətdə bağlıdır. O, qəhrəmanını zahirən pak və qüvvətli göstərir, eyni zamanda bu keyfiyyətlərin ledi Maqbet üçün niyyətlərini gizlətməkdən ötrü bir vasitə olduğunu da məharətlə biruzə verir. Hökümə xanım təsirli oyunu ilə ledi Maqbeti rəhimsiz kübar qadın kimi tamaşaçıların nifrət hədəfinə çevirir. Aktrisanın ifasından aydın olur ki, candugərlərdən başqa ərinin məhvinə bais olan qorxunc bir qüvvə də ledi Maqbetin özüdür. Nəyin bahasına olursa-olsun, başında kral zövcəsinin tacını gəzdirmək eşqi ilə yaşayan ledi Maqbet ərini xəyanətə-Dunkanı öldürməyə vadar etdikdən sonra dəhşətli sarsıntılar keçirir. İndi onun səsindəki ahəng tamamilə dəyişmişdir. Sızıltılı danışığı, bənizindəki tutqun boyalar bu mənhus təbiərli qadının məhvə məhkumluğunu aydın göstərir. H. Qurbanova mürəkkəb obrazın varlığına dərindən nüfuz edir, zahiri effektlərə uymadan ledi Maqbetə xas bütün keyfiyyətləri vəhdətdə çatdırır".

M. Əlizadə "Bakı" qəzetində (22.01.1982) yazır ki; "Tamaşada ledi Maqbet obrazını SSRİ xalq artisti H. Qurbanova ifa edir. Onun ledi Maqbeti bütün hissləri şöhrətpərəstliyə tabe etdirilmiş gözəl qadındır. Ledi mənəvi-əxlaqi anlayışlardan büsbütün məhrumdur. Onun fikrincə, "su cinayətin axıtdığı qan ləkəsini əldən yuyar". Bütün varlığı ilə törətdiyi cinayəti dərk etməyən ledi Maqbet təbiət tərəfindən cəzalandırılaraq ağlını itirir. Aktrisa bu səhnəni sırf psixoloji tərzdə təqdim edir. Obrazın ümumi səhnə rəsmində isə H. Qurbanova onun qeyri-insani varlığını, insan nəslinə yabançılığını, təbiətindəki şərin güclü təcəssümünü verməkdən daha çox onun

gözəl bir qadın kimi hamıdan fərqləndirmək, öz gözəllyini taxt-tacla daha da rövnəqləndirmək, məhəbbəti vasitəsilə Maqbeti cinayətlərə hazırlamaq və nəhayət, cinayətlərdən keçən yolda sevgilisini və özünü ucaltmaq istəyini ön plana çəkir".

Aktrisanın ledi Maqbeti mələyə çevrilmiş qəddar bir insan idi. H. Qurbanova bu obrazı şöhrətpərəst, qaniçən, qəddar bir qadın kimi ifa edirdi. Böyük səhnə təcrübəsinə malik olan Hökümə Qurbanova ledi Maqbeti rəhimsiz kübar qadın kimi elə ifa edirdi ki, tamaşaçılar ona nifrət edə bilmirdilər. Artıq yaşı yetmişi haqlamış bu görkəmli səhnə ustası dünya dramaturgiyasının ən mürəkkəb qadın obrazlarından biri olan ledi Maqbetin bütün incəliklərini tamaşaçılara çatdırmağa çalışmışdır.

Lakin nə qədər qüvvətli aktrisa olsa belə tamaşanın zəif quruluşunu üst-basdır edə bilməz. Hökümə Qurbanova öz ifası ilə "Maqbet" tamaşasını qüsurdan xilas edə bilmədi. Tamaşaya baxmağa gəlmiş Velixova, tamaşadan sonra M. Fərzəlibəyova demişdir ki, mən ledi Maqbetin son səhnəsinə görə səni bağışlayıram.

Acıq etiraf etmək lazımdır ki, Hökümə Qurbanova dünya səhnələrində Şekspirin qadın qəhrəmanlarının ən gözəl, ən kamil, ən misilsiz ifaçılarındandır.

1983-cü ildə SSRİ xalq artisti Hökümə Qurbanovaya anadan olmasının 70 illiyi münasibəti ilə ikinci dəfə Lenin ordeni verildi. Bu o dövr üçün çox böyük hadisə idi.

1985-ci ildə iyun ayının 2-də Tennessi Uilyamsın "Şüşə heyvanxana" (tərcümə İ. İbrahimov) əsri B. Osmanovun quruluşunda tamaşaçılara təqdim olundu və SSRİ xalq artisti Hökümə Qurbanova öz son rolunu Amandanı ifa etdi.

M. Əlizadə "Bakı" qəzetində (14.07.1985) yazır ki; "H. Qurbanova və rejssor Amanda obrazının mənəvi aləmini qabarıqlaşdırırlar...

H. Qurbanovanın səhnə obrazları üçün səciyyəvi olan əsəblərin, hisslərin titrəyişini, qəlbin incə, zərif duyumlarını ifadə etmək bacarığı T. Uilyams dramaturgiyasının səhnə təcəssümü üçün çox gərəkli keyfiyyətlər kimi bu tamaşada onun köməyinə gəlir. Qəlb gözəlliyi, onun faciəsinin dramatik, tragik və komik təzahürü

tamaşada H. Qurbanova üçün mürəkkəb və cazibəli bir cəhətə çevrilir. Amandanın xatirələrini danışarkən keçirdiyi coşqun hisslər, sonra onun çaxnaşmalı, tələşlı məqamları, dərdli anları, sadəlövlüyü, zərifliyi rejissor və aktrisa tərəfindən dəqiq işlənmişdir.

Hökümə Qurbanovanın Amandası həyatsevərdir, ancaq yaşamağı bacarmır, keçmişi xatırlamaqla günlərini başa vurur. Onu bu günlə bağlayan Lauranın taleyi ilə əlaqədar nigaranlığıdır. Amanda oğluna daha təsir edə bilmədiyi üçün əzab çəkir. Aktyor onun gələcək qarşısındakı qorxu hissini, daxilən zərif ola-ola bəzən zahirən qəddarlaşmasının səbəblərini də izahsız qoymur. O, teatrın mayasını təşkil edən əsl sirayətedici oyun nümayiş etdirir...

Tamaşada H.Qurbanovanın ifasında biz əvvəllər ərini, sonralar isə qızı üçün adaxlı gözləyən bədbəxt bir qadınla tanış oluruq".

Müəyyən yaş həddində olan bir sənətkarın belə mürəkkəb obrazı ifa etməsi, şübhəsiz istedadın böyüklüyünə dəlalət edir. Hökümə Qurbanova kimi dahi bir aktrisanın ifa etdiyi bütün rolları kimi, Amanda obrazıda aktrisanın yaradıcılıq tərcümeyi-halında xüsusi yer tutan bitkin səhnə qəhrəmanıdır.

Əfsuslar olsun ki, bu gözəl tamaşa və bu mükəmməl ifa cəmi bir dəfə nümayiş olundu. Yersiz səbəblərə görə tamaşanın göstərilməsi bir daha baş tutmadı. Təəssüf...

* * *

1987-ci may ayının 21-də Hökümə Qurbanovanın kiçik qızı, respublikanın əməkdar artisti, Dövlət mükafatı laureatı Vəfa Nüsrət qızı Fətullayeva 42 yaşında həyatla vidalaşdı. Bu ağır itkidən sarsılan Hökümə xanım 1988-ci ildə noyabr ayının 2-də 75 yaşında dünyasını dəyişdi.

SSRİ xalq artisti, Dövlət mükafatı laureatı Hökümə Qurbanovanın ölümü, o dövrün çox millətli sovet teatrı üçün ağır itki idi. O dövrün respublika mətbuatında Hökümə Qurbanovanın vəfatı ilə əlaqədar nekroloqlar imzalandı. Hökümə xanımın tabutu Akademik Milli Dram Teatrında postamentin üzərinə qoyuldu. Onu son dəfə

görməyə tamaşaçılar axın-axın gəldilər, böyük sənətkarla göz yaşlarını boğa-boğa vidalaşdılar. Hökümət nümayəndələri və pərəstişkarları Hökümə Qurbanovanın cənazəsini çiyinlərində aparıb, birinci Fəxri xiyabanda torpağa tapşırdılar.

# IV FƏSİL
# AKTRİSANIN KİNO FƏALİYYƏTİ

*Mən hər dəfə Hökümə xanımın*
*yeni bir roluna baxdığım*
*zaman ürəyimdən bir arzu keçir:*
*bu sənətkarın böyük imkanları*
*səviyyəsində bədii obraz yaratmaq!*

***Xalq şairi, akademik* Bəxtiyar Vahabzadə**

Hökümə Qurbanovanın kinoya gəlişi teatrdan əvvəl baş verib. Lakin o da Əzizə Məmmədova, Mərziyə Davudova, Sona Hacıyeva, Barat Şəkinskaya kimi filmə çox çəkilməyib. Bu adlarını çəkdiyim sənətkarlar sırf teatr aktrisası olublar.

1934-cü ildə çəkilişə başlanan "Almaz" filmində Yaxşı roluna dəvət alan Hökümə xanım o günləri belə xatırlayırdı; ""Azərbaycanfilm" kinostudiyasında C. Cabbarlının ssenarisi və rejissorluğu ilə "Almaz" filmi çəkilirdi. O, təsadüfən fotoqraf vitrinində mənim şəklimi görüb Yaxşı roluna sınamaq üçün soraqlaşmışdı. Sınaq uğurlu oldu. Çəkildim. Film də müvəffəqiyyət qazandı" (16).

"Cəfər Cabbarlı, Yaxşı rolunu ifa edəcək adamın məhz Hökümə Qurbanova olacağını qət etdi. Hökümənin sifəti, iri qara gözləri, pərişan baxışları Yaxşı roluna uyğun gəlirdi. Cəfər Cabbarlı studiyaya qayıdıb "Almaz" filminin quruluşçu qruppası adından Hökümə Qurbanovanı studiyaya dəvət etdi. Hökümə xanım məşq etdi. Onun aydın diksiyası, daxili coşqunluğu, ifa edəcəyi vəziyyəti dərindən hiss edib tamaşaçılara çatdırmaq bacarığı, qəşəng xarici görünüşü ilə ayrılmaz bir vəhdət təşkil edirdi. Quruluşçu qruppa Yaxşı rolunu yekdilliklə Hökümə Qurbanovaya tapşırdı" (8).

C. Cabbarlının ölümündən təxminən iki il vaxt keçmişdir. 1936-cı ildə dekabr ayının 25-də "Almaz" filminin ekranlara çıxma vaxtı çatdı. Film ekranlara buraxılmazdan əvvəl yaradıcı heyyət

Cəfər Cabbarlının məzarı üstə gedib, filmin hazır olması barədə böyük dramaturqa raport verdilər.

Film C. Cabbarlının eyni adlı əsəri əsasında ekranlaşmışdır. Bu filmə C.Cabbarlı özü quruluş verməli idi. Hətta filmin ekranlaşdırılması ilə əlaqədar bütün hazırlıq işlərini də görüb tamamlamışdır. Ancaq amansız ölüm onun bu arzusunu yarımçıq qoydu və Almaz kinomuzun sonuncu səssiz filmi oldu.

Dram janrında çəkilmiş “Almaz” filminin quruluşçu rejssorları Ağarza Quliyev və Qriqori M. Braginski, ssenari müəllifi C. Cabbarlı, bəstəkarları Niyazi və Zülfüqar Hacıbəyov idi.

Bu filmdə biz görürük ki, Hökümə Qurbanovanın ifa etdiyi Yaxşı incə duyğulara, sevən ürəyə, gözəl təbiətə malik kəndli qızıdır. Onun qəlbinə təmiz xalq mənəviyyatı hakimdir. Yaxşı-Qurbanova təmiz və saf məhəbbətə, zəngin daxilə malikdir. Yaxşıda olan bütün bu gözəl keyfiyyətləri Almaz ilk görüşdə hiss edir. Lakin buna baxmayaraq Yaxşı-Hökümə xanım azad deyil, onun heç bir hüququ yoxdur, o, acizdir. Onu sevmədiyi bir insana zorla ərə vermişlər, cəhalətin qara yelkəni öz işini görmüşdür. Əri uzun müddət Sibirdə olduğu zamanlarda Yaxşı-Qurbanovanın bir övladıda dünyaya gəlmişdir. Bu uşaq onu kənddə biabır edir, cahil insanlar ona təhnə edirlər. Almaz bu işlərə qarışır, ona kömək edir. Almaz Yaxşının köməyinə gəlir, uşağı ondan alıb özü saxlayır, Yaxşını fəlakətdən qurtarır.

Yaxşı-Hökümə xanımın ilk ekran işi olmasına baxmayaraq ona böyük uğur qazandırdı. Azərbaycan incəsənətinə yeni və böyük bir istedadın gəldiyini təsdiqlədi.

“Almaz” filmi daxil olmaqla Hökümə Qurbanova irili-xırdalı beş filmə çəkilib ki, bunlara “Bir ailə” də Leyla (rej. Qriqori Aleksandrov, ssenari Yev Vaysenberq, Mir Cəlal, İosif Prut., 1943); “Onu bağışlamaq olarmı?” filmində professor Kəmalə xanım (rej. Rza Təhmasib, ssenari Məmmədhüseyn Təhmasib., 1959); “Həyat öyrədir” də həkim (rej. Zeynəb Kazımova, ssenari V. Bulov., 1961); “Əmək və qızıl gül” də Bikətu (rej. Tofiq Tağızadə, ssenari İdris Bazorkin, T. Tağızadə., 1962); “İnsan məskən salır” filmində

Şamama (rej. Arif Babayev, ssenari İmran Qasımov., 1967) rolları aiddir.

Dram janrında çəkilmiş "Bir ailə" filmində Hökümə xanımın ifa etdiyi Layla son dərəcə təbii və inandırıcıdır. Böyük Vətən müharibəsinin ağır illərində bəhs edən bu filmdə ki, Hökümə Qurbanovanın yaratdığı Leyla təbii və inandırıcı olmaqla yanaşı həmdə gözəl və ismətlidir. Aktrisa Leylanın faciəsini, keçirdiyi əzablı və işgəncəli həyatını düşünülmüş şəkildə, inandırıcı boyalarla tamaşaçılara çatdırır. Onun əri ilə olan kadrları misilsizdir. Xüsusən son kadrlarda Hökümə xanımın nikbin ruhunu unutmaq çətindir. Bu obraz sənət aləminə yeni gəlmiş gənc bir aktrisanın sözün tam mənasında qələbəsi sayıla bilər. Hökümə xanımın bu obrazdakı mimikaları, pauzaları son dərəcə inandırıcı və düşündürücüdür. Aktrisa obrazı düzgün dərk edib, ifa etməklə tamaşaçılarda ona qarşı dərin sevgi yarada bilmişdir.

1959-cu ildə Bakı kinostudiyası Məmmədhüseyn Təhmasibin qələmə aldığı "Bahar" pyesinin motivləri əsasında "Onu bağışlamaq olarmı?" (rej. R. Təhmasib, ssenari M. Təhmasib) filmini istehsal edib, tamaşaçıların sərancamına verdi. Bu filmdə görkəmli aktyorlardan Veriko Ançaparidze, İsmayıl Talıblı, Mehdi Məmmədov, Qriqori Tonuns, Həsənağa Salayev, Məmmədrza Şeyxzamanov və bir neçə görkəmli sənətkarlarla yanaşı Hökümə xanımda bu filmdə Tərlanın bacısı professor Kəmalə xanım (Laçın) obrazına çəkilmiş və bu rolu öz sənətinin yüksək zirvəsinə qaldıra bilmişdir.

Dram və detektiv janrda çəkilmiş bu filimdə Hökümə Qurbanovanın ifa etdiyi professor Kəmalə xanım obrazı son dərəcə mənalı və ürək titrədəndir. Aktrisa bu balaca epizod rolu o qədər təkmilləşdirib, ətə-qana gətirmişdir ki, onu baş rollar səviyyəsinə ucaldıb, Azərbaycan kinosunda ən dolğun obrazlar səviyyəsinə qaldırmağa müvəffəq olmuşdur. Filmdə cəmi 3-4 dəfə görünən bu kiçik bir rol aktrisanın yaradıcılıq tərcümeyi halında xüsusi yer tutur. Bircə bu filmdə ki, Kamələ xanım-H. Qurbanovanın ifası, onun böyük sənətini işıqlandıran nadir sənət hadisələrindən biridir. İndinin özündə də bu filmə baxanda Hökümə xanımın böyük sənətinə valeh olmamaq olmur. Onun qardaşı və anası ilə olan səhnələrində ürək parçalayan kədər

vardır ki, onu da ancaq Hökümə xanım kimi nadir sənətkarlar tamaşaçıların qəlbinə hakim edə bilər. Aktrisanın kiçik, lakin böyük sənət əsəri olan Kəmalə xanım obrazı, Azərbaycan kinosunun nadir incilərindəndir. Hökümə xanım bu obraz ilə tamaşaçılara öz böyük sənətini az da olsa nümayiş etdirə bildi.

1962-ci ildə T. Tağızadə bioqrafik janrda "Əmək və qızıl gül" ("Mən rəqs edəcəyəm") filmini (ssenari İ. Bazorkin və T. Tağızadə) çəkib, tamaşaçıların müzakirəsinə verdi.

Məşhur balet artisti, xoreoqraf, estrada rəqqası, SSRİ xalq artisti (1974), Sosialist Əməyi Qəhrəmanı (1984) Mahmud Esembayevə (15.07.1924-07.01.2000) həsr olunmuş bu filmdə Hökümə Qurbanova Mahmudun anası Bikətu obrazını ekranda canlandırır. Bu filmə dörd SSRİ xalq artistləri çəkilib: Mahmud Esambayev (Mahmud), Vladimir Txapsayev (Mahmudun atası-ƏliSultan), Hökümə Qurbanova (Mahmudun anası-Bikətu), Adil İsgəndərov (klub müdiri).

Hökümə xanımın bu filmdə ki, ana obrazı, öz səmimiliyi və istiqanlığı ilə fərqlənirdi. Elə bil obrazda bir istilik, təmizlik var. Bikətu-Qurbanova əri ilə oğlunun arasındakı dağa bənzəyir. Hər ikisi öz şikayətlərin ona deyirlər. Bəzən onun üstünə acıqlanırlar da. Lakin, Bikətu-Hökümə xanım onlara təmkinlə, səbirlə cavab verir, doğru yol göstərməyə çalışır. Ərinin yanında oğlunun, oğlunun yanında ərinin tərəfini saxlayır. Haqqın, ədalətin pozulmasına mane olur. Bu kiçik həcmli obrazda Hökümə xanım böyük iş görür. Bu obrazı tamaşaçılara sevdirir.

1967-ci ildə İmran Qasımovun ssenarisi əsasında rejissor Arif Babayev böyük kinoda ilk müstəqil işi olan "İnsan məskən salır" filmini tamaşaçılara təqdim etdi. Dram janrında çəkilmiş bu filmdə Hökümə Qurbanova yenə də ana obrazını – Şamamanı ifa edirdi.

Dəniz qəhrəmanlarının həyatından bəhs edən bu film də biz Şamama-Qurbanova ilə ilk dəfə filmin proloqunda rast gəlirik. Onun həkim Şirəli (bu rolu xalq artisti İsmayıl Əfəndiyev ifa edirdi) ilə olan dialoqunda nə qədər paklıq və mehribanlıq vardır. Bikətudan fərqli olaraq Şamamada bir az ötkəmdir. Bu onun ikinci kadrda oğlu ilə olan söhbətlərində hiss olunur. Şamama-Hökümə xanım ərini

cəbhədə itirmiş və oğlu Ramizi (bu rolu Ələsgər İbrahimov ifa edirdi) canından artıq istəyən anadır. Onun oğlu ilə olan kadrlarında o qədər istilik var ki, ana-övlad məhəbbətini bundan artıq tamaşaçılara çatdırmaq mümkün deyil.

SSRİ xalq artisti Hökümə Qurbanovanın yaradıcılığı Azərbaycan kinosu çox az işlənib. O, özü də buna o qədər əhəmiyyət verməyib. Çünki teatrda işi həddindən artıq çox olması, həm də tamaşalarda ifa etdiyi obrazlara son dərəcə məsuliyyətlə yanaşması, onun kino sahəsində ki, fəaliyyətini ləngidib. Lakin, buna baxmayaraq Azərbaycan kinosunda Hökümə xanımın bir səs obrazı var ki, bu səs olmasa idi, əksər filmlərin baş qəhrəmanlarının ifası sönük görünərdi.

"Qara daşlar"da (1956) Lətifə (Nəzakət Hüseynova), Qızmar günəş altında" (1957) filmində Nərminə (Töhfə Əzimova), "Uzaq sahillərdə" (1958) filmində Anjelika (Aydar Yelikoyeva), "Ögey ana"da (1958) Dilarə (Həcibə Məlikova), "Kölgələr sürünür"də (1958) Afət (Sürəyya Qasımova), "Onun böyük ürəyi" (1958) filmində Səmayə (Tamilla Ağamirova), "Aygün"də (1960) Aygün (Nəcibə Məlikova), "Bizim küçə" (1961) filmində Sara (Rimma Məmmədova), "Böyük dayaq"da (1962) Maya (Tamilla Rüstəmova), "Romeo mənim qonşumdur" (1963) filmində Nona (Ariadna Şengelaya), "Əhməd haradadır"da (1963) Leyla (Töhfə Əzimova) Hökümə Qurbanovanın səsi ilə danışırlar. Mən cəsarətlə deyə bilərəm ki, əgər müxtəlif xarakterli bu obrazları Hökümə Qurbanova səsləndirməsəydi, bəlkə də onlar böyük ictimaiyyətə bu qədər sevilməzdi.

# NƏTİCƏ

*Hökümə Qurbanovanın mövqeyi Azərbaycan teatrında*
*elə bir əlçatmaz zirvədədir ki, hər aktyor və aktrisa*
*ora sahib ola bilməz.*

***Fəlsəfə doktoru* İmran Axundov**

XX əsr aktyorluq sənətinin ən görkəmli nümayəndələrindən biri olan SSRİ xalq artisti Hökümə Qurbanovanın fövqəladə aktyorluq qabiliyyəti Azərbaycan teatrının kimliyini təyin edir. Bu böyük yaradıcılığın kökü dərinə işləyərək, zirvəsi buludlarla görüşən nəhəng bir ağaca bənzəyir. "İstedad və əməksevərlik, yaradıcılıq işinə şüurlu münasibət, öz əməyindən ilham almaq bu kamil sənətkarın əsas xüsusiyyətləridir. Onun öz sənət və həyat prinsipləri var. Hər hansı obraz olursa olsun, bu misilsiz istedad sahibi ona ciddi yanaşır. O, obrazın dili-diksiyası üzərində çalışmağı, hər sözün, hər pauzanın və vurğuların yerli-yerində olmasını aktyor yaradıcılığının əsas şərtlərindən hesab edir. Təbiət H. Qurbanovaya kamil sənətkarlara xas olan bütün xüsusiyyətləri vermişdir. O, öz istedad xəzinəsinin incilərindən böyük ustalıqla, səmərəli istifadə edir.

Hökümə Qurbanova səhnədə başqalaşmağı, yaratdığı obrazın simasını almağı bacarır. Sünilik ona yaddır. O, həmişə sadə, təbii və inandırıcıdır"(12).

H. Qurbanova öz üzərində daim çalışan, sənətinə düşüncə ilə, həvəslə münasibət bildirən sənətkar idi. O, yaxşı başa düşürdü ki, ərsəyə gələn hər bir obraz aktyor üçün böyük bir imtahandır. "... aktrisa Azərbaycan səhnəsinə misilsiz töhfələr vermişdir. Onların içərisində Səhər, Südabə, Kleopatra kimi zəngin yaradıcılıq tacına həkk olunmuş ləl, cəvahir, gövhər vardır" (16).

"Aktrisa sözsüz düşüncələri, sükutları ilə səhnədə çox mənalı görünür. O, obrazın forma ilə məzmunu arasında harmoniya yaradır. Onun səhnədə istifadə etdiyi bədii vasitələr xarakterin şərhinə xidmət edir, səhnə materialını cana gətirir, xarakterin idrak

əhəmiyyətini yüksəldir. Belə hallarda onun yaratdığı obraz özü bir tamaşaya çevrilir. Aktrisanın güclü istedadı, duymaq, dərk etmək bacarığı obrazı ümumiləşdirməyə, onu tamamlamağa imkan verir. Hökümə xanımın Germionası, Kleopatrası, Sevinci, Bənövşəsi məhz bu cəhətdən səciyyəvidir" (1).

Hökümə xanım qüdrətli bir sənətkar olduğundan Azərbaycan teatrında yaşayan realist və romantik ənənələrdən məharətlə istifadə edərək, ifa etdiyi obraza navator prinsipi ilə yanaşır, onu öz sənət süzgəcindən keçirib, yüksək bədiilik səviyyəsinə çatdıra bilirdi. Bu yol böyük və həqiqi bir istedadlı sənətkarın yoludur. SSRİ xalq artisti Hökümə Qurbanova daim bu yol ilə gedərək, sənət aləmində öz cığırını açmış, öz sözünü demiş, nadir sənətkarlardandır.

*2014*

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Allahverdiyev M. Müasir teatrda ənənə və novatorluq məsələləri. Bakı, Azərnəşr, 1974, s. 39, 81.

2. Cəfərov C. Əzizbəyov adına Azərbaycan Dram Teatrının 75 illiyi. Bakı, Azərnəşr, 1949.

3. Cəfərov C. Azərbaycan Dram Teatrı. Bakı, Azərnəşr, 1951.

4. Cəfərov C. Azərbaycan Dram Teatrı. Bakı, Azərnəşr, 1959.

5. Cəfərov C. H. Azərbaycan Teatrı. Bakı, Azərnəşr, 1974.

6. Cəfərov M. C. Sənət yollarında. Bakı, Gənclik, 1975, s. 311, 313 və 326.

7. Əlioğlu M. Tənqidçinin düşüncələri. Bakı, Azərnəşr, 1968, s. 139-173.

8. Əyyubov T. Hökümə Qurbanova. Bakı, Az.TC, 1964.

9. Hüseyn M. Ədəbiyyat və sənət məsələləri. Bakı, Azərnəşr, 1958, s. 557 və 576-577.

10. Hüseynov R. Cəfər Cabbarlının tarixi dramlarının səhnə təcəssümü. Bakı, Maarif, 1971, s. 201 və 287.

11. İbrahimov M. Ədəbi qeydlər. Bakı, Azərnəşr, 1970, s. 286, 291 və 295-296.

12. İsmayılova A. Azərbaycan qadınları səhnədə. Bakı, İşıq. 1977, s. 107-111.

13. Kərimov İ. Azərbaycan peşəkar teatrının tarixi və inkişaf mərhələləri. Bakı, Maarif, 2002.

14. Kərimov İ. Azərbaycan-Türkiyə teatr əlaqələri. Bakı, 2000, s. 112.

15. Məmmədov M. Teatrlar. Aktyorlar. Tamaşalar. Bakı, Azərnəşr, 1966, s. 165-172.

16. Məmmədov M. Onun sənət ulduzu. Bakı, İşıq, 1983.

17. Mərdanov M. Əlli il Azərbaycan səhnəsində. Bakı, Uşaqgəncnəşr, 1959.

18. Mərdanov M. Xatirələrim. Bakı, Azərnəşr, 1964.

19. Rəhimli İ. Akademik Milli Dram Teatrı. Birinci kitab, Bakı, Qann-Poliqraf, 2002.

20. Rəhimli İ. Akademik Milli Dram Teatrı. İkinci kitab, Bakı, Qann-Poliqraf, 2002

21. Rəhimli İ. Səhnəmizin fədailəri. Birinci kitab, Bakı, Qann-Poliqqraf, 2002, s. 213-218.

22. Səfərov C., Babayev A. Şərəfli yol. Bakı, Azərnəşr, 1974.

23. Səfərov C. Teatr və dramaturgiya. Bakı, Yazıçı, 1982, s. 83-87.

24. Təhmasib.T. Hüseyn Cavid və teatr. Bakı, İşıq, 1988, s. 96.

25. Vahabzadə B. Sadəlikdə böyüklük. Bakı, Yazıçı, 1978, s. 192-197.

26. Юсифбейли Т. Шекспир на сцене театра им. Азизбекова. Баку. 1964.

## BAŞLIQLAR

GİRİŞ ........................................................................................3

I FƏSİL

Həyatı və axtarışlar dövrü (1913-1943)........................................4

II FƏSİL

Məhsuldar dövr (1944-1960).........................................................20

III FƏSİL

Sənətin zirvə dövrü (1961-1988) ..................................................75

IV FƏSİL

Aktrisanın kino fəaliyyəti (1936-1967) ........................................115

NƏTİCƏ .......................................................................................120

İstifadə olunmuş ədəbiyyat ...........................................................122

Имран Адиль оглы Ахундов

**ОКЮУМА КУРБАНОВА**

*монография*

*(на азербайджанском языке)*

Баку – Мутарджим – 2015

*Üz qabığının dizaynı* – Мятанят ГАРАХАНЛЫ

*Kompyuter operator* – Xədicə TAĞIYEVA

Чапа имзаланыб: 06.03.2015
Формат: 60x84 1/16. Гарнитур: Тимес.
Щяъми: 8 ч.в. Тираж: 100. Сифариш № 47.

**ТЯРЪЦМЯ**
**ВЯ НЯШРИЙЙАТ-ПОЛИГРАФИЙА**
**МЯРКЯЗИ**

**Аз 1014, Бакы, Рясул Рза кцч., 125**
**596 21 44; 497 06 25; (055) 715 63 99**
**e-mail: mutarjim@mail.ru**
www.mutercim.az